Simax Şeyda



# Qürbətdən gələn səslər

**Simax Şeyda**

# QÜRBƏTDƏN GƏLƏN SƏSLƏR

**BAKI-2012**

**Redaktoru**: **Musa Ələkbərli**

Simax Şeyda «Qürbətdən gələn səslər», Bakı
«Zərdabi LTD» 2012, 224 səh.

*Simax Şeyda iyirmidən artıq kitabın müəllifi olan tanınmış Azərbaycan şairidir. Özü dağ yəhudisi olsa da sevimli Azərbaycan dilində yazıb-yaradır, yeri gəldikcə poeziyamızın ən yaxşı nümunələrini yəhudi dilinə çevirir və bu dilin vasitəsi ilə dünyaya çıxarır. Hal-hazırda Almaniyada yaşayan şairin bu kitabına onun qürbət havalı şeirləri daxil edilmişdir.*

Ş $\frac{4705120049457}{0103-2012}$

© Simax Şeyda, 2012

# QÜRBƏTDƏN GƏLƏN SƏSLƏR

Azərbaycan ədəbıyyatına uşaq şeirləri ilə gələn Simax Şeyda həm də böyüklər üçün yazılan şeirləri və qəzəlləri ilə oxuculara yaxşı tanışdır. Bu kitabın əlyazmalarını oxuyanda gördüm ki, buradakı şeirlərin böyük bir hissəsi Bakıda çıxan qəzet və jurnallarda çap olunmuş, kiçik bir qismi isə hələ işıq üzü görməmişdir. Artıq 15 ildən çoxdur ki, o, Azərbaycandan uzaqlarda yaşayır və orada keçən günlərini, daha doğrusu illərini, yazıb-yaratmaq eşqi ilə keçirir.

S.Şeydanın «Qürbətdən gələn səslər» kitabı bir neçə hissədən ibarətdir. «Qürbət şeirləri», «Şeirlər», «Qəzəllər» və «Uşaq şeirləri»; Şairin qürbət şeirlərini oxuyanda açıq-aydın hiss edirsən ki, onun ürəyi daim gözünü açdığı, boya-başa çatdığı Azərbaycan torpağına məhəbbət ilə doludur. O, hal-hazırda yaşadığı Almaniyada özünü Azərbaycansız hiss etmir, fürsət düşən kimi Bakıya gəlir və qələmə aldığı şeirlərini kitab halında buraxdırır.

Vətənə olan məhəbbətini, duyğularını şair qəzəllərinin birində belə tərənnüm edir:

Düşdüm vətəndən uzaq, qürbətdəyəm, qürbətdə
Çəkirəm qüssə, fəraq, qürbətdəyəm, qürbətdə.

Daım düşür yadıma Azərbaycan torpağı,
Neçə yurd, neçə ocaq, qürbətdəyəm, qürbətdə.

Hacıkəndin, Göygölün havasına həsrətəm,
Hardasan, ay Xoşbulaq, qürbətdəyəm, qürbətdə?

Lənkərandan, Göyçaydan, Oğuzdan yox xəbərim,
Çıraqqala, Dəlidağ qürbətdəyəm, qürbətdə.

Səfalı Qubadandır ismi pünhanım mənim,
Canımdır o Gülyanaq, qürbətdəyəm, qürbətdə.

Simax vətən həsrəti çəkə-çəkə qocalır,
Yazmaqdan qalmır ancaq, qürbətdəyəm, qürbətdə.

Yeri gəlmişkən qeyd edək ki, vətən və el məhəbbəti saflıq və sədaqət S.Şeydanın yaradıcılığının ana xəttini təşkil edir. O, Azərbaycana qırılmaz tellər ilə bağlıdır. Şair Şahdağı və Kəpəzin ətəklərindən axan sərin bulaqları, göz işlədikcə uzanan qozlu, fındıqlı və şabalıdlı məşələri, geniş düzləri böyük məhəbbətlə tərənnüm edir. Onun üçün vətən eşqi hər şeydən müqəddəs və ülvidir. İnsan çörəksiz və havasız yaşaya bilmədiyi kimi vətənsiz də yaşaya blməz. Göz açdığı el-obaya bağlılıq Simaxın şeirlərindən qırmızı bir xətt kimi keçir. Bu şairin qürbət şeirlərində daha çox hiss olunur. «Düşmüşəm» şeirinin bir yerində oxuyuruq:

Ana vətən, əf et məni, bağışlı,
Baxma mənə başqa gözlə, baxışla,
Yola düşüb bir gün qarla, yağışla
Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Yoxdur sözüm havasına qürbətin,
Cana olan səfasına qürbətin,
Oğuzumun hey çəkirəm həsrətin,
Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Şair şeirinin başqa bir bəndində qürbətə gəlib düşdüyünün səbəbini özünün xəstəliyi ilə əlaqədar olaraq belə yazır:

Gözüm seçir daim pisdən yaxşını,
Qəlbim sevməz hər nadanı, naşını
Atmaq üçün xəstəliyin daşını,

Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Vətənının bir hissəsi olan Qarabağ torpaqlarının işğalı ilə bağlı S.Şeyda istər uşaqlar, istərsə də böyüklər üçün bir sıra şeırlər yazmışdır. Onun «Azad edək», «Apar məni», «Xocalı», «Qovulanda düşmənlər», «Qarabağ» və bir sıra şeirləri bu məsələyə həsr olunmuşdur. O, inanır ki, gec-tez düşmən əlində qalan Azərbaycan torpaqları azad olacaq, qaçqın və köçkünlər öz yurd-yuvalarına qayıdacaqlar. Şair sabahkı günə ümidlə baxaraq rübailərinin birində yazır:

Çox da sevinməsın deyın əğyara,
Qara paltarını qoysun aşkara.
Bu gün, sabah Şuşa azad olacaq,
Yenə geyinəcək onu dübara.

Ümumıyyətlə S.Şeydanın son illərdə qələmə aldığı rübailəri insan duyğuları və hısslərini oxşayan əsil poeziya nümunələridir.

Onun poeziyasında Qarabağ dərdi də var, Təbriz həsrəti də, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsindən doğan sevınc hissləri də, şairin İsrail həyatından bəhs edən şeirləri də çoxdur.

Son illər gözlərində yaranan problemlə əlaqədar olaraq Almanıyada yaşayan şairin bu yerin həyatından yazdığı bir sıra şeırləri də maraqlıdır.

S.Şeydanın prezident İlham Əliyevin sərəncamı ilə 2010-cu ildə Oğuzdan Bakıya çəkilən içməli suyun paytaxta gətirilməsi münasibəti ilə yazdığı şeiri də ilhamla qələmə alınmışdır.

«Qürbətdən gələn səslər» kitabını oxuyarkən siz buradakı rübailərə diqqət edin, xüsusi ilə bu rübaiyə:

Dağların başına duman, qar gələr,
Güman var görüşə bu gün yar gələr.
Yer üzü nə qədər geniş olsa da,
Qürbətdə insana dünya dar gələr.

Görürsünüzmü qürbətdə yaşamaq nə qədər çətin və cansıxıcıdır. Simax müəllim öz fikrini nə qədər gözəl ifadə etmişdir.

Kitabdakı «Müşfiqin xətrinə» şeiri də ilhamla qələmə alınmışdır. Şairin bu şeiri bəzi cızmaqara şeirlər yazan şairlərə bir cavab kimi səslənir.

Böyük şair M.Müşfiq demişkən:

Şairə ilhamdan maya gərəkdir,
Anasız uşağa dayə gərəkdir.
Şairəm söyləyir yerindən duran,
Adamın üzündə həya gərəkdir.

Məlumdur ki, son vaxtlar şeir yazanların sayı gündən-günə artır, hər əlinə qələm alan «mən şairəm» deyir. Şeirin bir yerində oxuyuruq.

Əbü-Ulla Cəncəvi, Nizamidən bu yana,
Çox şairlər gəlibdir yer üzünə, Cahana.
Dürlü-dürlü şeirlər almış qələmə onlar
Səs salmış yer üzünə bütün aləmə onlar.
«Xəmsə» bir məktəb olmuş illər boyu insana,
Diqqət eylə, şair gəl, şeirinin hər sətrinə,
Dünyadan nakam gedən Müşfiqimin xətrinə.

Kitabda eyni zamanda şairin bir neçə sevgi şeirləri də yer almışdır. Müxtəlif illərdə çap olunmuş bu şeirlər axıcı və rəvandır. Onun «Gəncəli qız», «Yağır», «Bir gözaltım vardır», «Bircə nazın olmayaydı» və bir sıra şeirlərindən

görünür ki, şair hələ gənclik illərindən başlayaraq məhəbbət şeirləri yazmağa başlamışdır. İndi də o, ömrünün ahıl vaxtlarında ara-sıra belə şeirlər yazır. «Sevgi şeirləri yazırsan niyə» şeiri bu cəhətdən maraqlıdır. Şairə sual verən gözəllərdən biri soruşur:

Gənclik illərini salmısan yola,
Dönməz cavanlığın bir daha dala,
İstər çağır onu, istər harayla,
Qalarsan yollarda göz döyə-döyə,
Sevgi şeirləri yazırsan niyə?

Əlbəttə, şairin yazdığı şeirlərdə ülvi məhəbbətdən, təmiz sevgidən söhbət gedir. Ancaq əslində sevən ürək üçün yaş məhdudiyyəti yoxdur. İnsan ömrünün gənclik, cavanlıq, hətta ahıl çağlarında da sevə bilər. Şairin sual verən gözələ cavabına da diqqət yetirək:

Dedim: -Nizamini götür varaqla,
Böyük Füzulini oxu maraqla,
Vaqifi, Zakiri yadında saxla,
Bir kimsə olubmu onlara deyə,
Sevgi şeirləri yazırsan niyə?

Məlum olduğu kimi S.Şeydanın 4 kitab qəzəlləri də işıq üzü görübdür. Buradakı şeirlərin əksəriyyəti məhəbbət şeirləridir. Bu qəzəlləri oxuyan hər bir kəs yaxşı bilir ki, eşq və məhəbbət oyun-oyuncaq deyil, ailə quran o insan xoşbəxt olur ki, qəlbindəki sevgi duyğuları saf, təmiz və bir-birinə qırılmaz tellərlə bağlı olsun. Şair demişkən:

Eşq sazını çala-çala qocaldım,
Yar qadasın ala-ala qocaldım.

«Qürbətdən gələn səslər» kitabında eyni zamanda S.Şeydanın bəzi uşaq şeirləri də vardır. Buradakı şeirlər öz sadəliyi, oynaqlığı, dadlı-duzlu deyim tərzi ilə bir-birindən fərqlənir. Balaca oxucular bu şeirləri oxuyarkən istər-istəməz fikirləşməyə başlayır, ürəyə yatımlı misraları bir-iki dəfə oxuyan kimi əzbərləyə bilirlər.

Tükənməz sənət eşqi, vətən sevgisi ilə Azərbaycan torpağına bağlı olan S.Şeydanın həm də kitabda bir neçə qəzəlləri də verilmişdir.

2011-ci ildə S.Şeydanın 75 yaşı tamam olmuşdur.

Onun Bakıda, Qubada, Nyu-Yorkda və Təl-Əviv şəhərlərində yubileyi keçirilmişdir. Gəlin qürbətdə vətən həsrəti ilə yaşayan, yeni-yeni şeirləri ilə Azərbaycan mətbuatında tez-tez çıxış edən Simax Şeydaya möhkəm cansağlığı və yaradıcılığında yeni-yeni uğurlar arzulayaq.

*Vaqif Əliyev*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*



## DÜŞMÜŞƏM

Ana vətən, əf et məni bağışla,
Baxma mənə başqa gözlə, baxışla,
Yola düşüb bir gün qarla, yağışla,
Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Yoxdur sözüm havasına qürbətin.
Cana olan cəfasına qürbətin.
Oğuzumun hey çəkirəm həsrətın,
Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Azərbaycan! Qəlbımdəsən hər zaman,
Əziz adın çıxmaz heç vaxt yadımdan,
Od götürüb isinirəm odundan,
Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Bu yerlərin qışı qışdı, yayı yay,
Gül-çiçəkli bağlarına olmaz tay,
Gündüz günəş oxşar məni, gecə ay,
Gəlıb səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Gözüm seçir daim pisdən yaxşını,
Qəlbim sevməz hər nadanı, naşını,
Atmaq üçün xəstəliyin daşını,
Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

Simax Şeyda vətən eşqi müəqəddəs,
Qürbət eldə Bakı, Gəncə deyib gəz.
Ay Şahdağı, gözəl Göygöl, Xan Kəpəz
Gəlib səndən uzaqlara düşmüşəm,
Görmədiyim torpaqlara düşmüşəm.

*Mart, 2011*
*Almaniya, Münhen*



## KÜLƏKLƏR

Vətəndənmi uçmusunuz bu yurda,
Gəzirsiniz başım üstə küləklər?
Siz atlısız, mən isə bir piyada,
Göz nursuzdur, ürək xəstə, küləklər

Əsin, əsin saçlarımı darayın.
Yaxamı da, açın yeri gələndə.
Mən qəribi axtarın, siz, arayın
Uzaqlardan hər yol bəri gələndə.

Məlhəm olur el havası deyirlər,
Qərib eldə həsrət çəkən insana.
Ürəklərə var səfası deyirlər,
Aman verməz o, niskilə, hicrana.

Mən vətənli vətənsizəm bu yerdə,
Əlim çatmır bir kimsəyə, bir kəsə.
Yetim-yetim dolaşıram şəhərdə.
Əhvalımı bir soran yox nədənsə.

Bəlkə mənə gətirmisiz şad xəbər,
Qarabağdan o səfalı məkandan.
Azadlığa çıxıbmı ay küləklər
Gözəl Şuşa, gözəl Laçın, Zəngilan.

Yoxsa yenə gəlib gedir adamlar,
Düşmən qaçır o verdiyi sözündən?
Şirin-şirin söhbət edir adamlar,
Razı qalır hər kəs özü-özündən.

Simax Şeyda bir Allaha arxalan.
Yox olacaq qəlbinin qəm, kədəri.
Kür kimi ax, Xəzər kimi çalxalan,
Qoşul əsən küləklərə dön geri.

*26.03.2011*

## QƏRİB AXŞAMLAR

Qanadlı atları minib çapmısız,
Ömrün ahıl vaxtı məni tapmısız,
Xəyallar əlandə qalmışam yalqız,
Döyür pəncərəmi hərdəm yağış, qar
Ay qərib axşamlar, qərib axşamlar.

Qəriblik əlində qalmışam əsir,
Pas atan qandallar əlimi kəsir,
Başımın üstündə durub müntəzir,
Qoymursuz üzümə gülsün şən bahar,
Ay qərib axşamlar, qərib axşamlar.

Baxıram Münhendən vətənə sarı,
Hər yoldan keçənə, ötənə sarı,
Bağrıma basıram uca dağları,
Çəkməyim Bakıçün bunca intizar,
Ay qərib axşamlar, qərib axşamlar.

İstərəm Qarabağ elində olum,
Düşsün Xocalıya, Şuşaya yolum,
O, gözəl yerlərə bir də vurulum
Oxşasın ruhumu yenə qaval, tar,
Ay qərib axşamlar, qərib axşamlar.

Dinlə məni qaçqın, köçkün qardaşım,
Neçin kədərlisən, neçin qardaşım.
Taleyin gələcək bir gün qardaşım,
Yanacaq hər yerdə lampalar, şamlar.
Ay qərib axşamlar, qərib axşamlar.

Simax, başına dön ana vətənin,
Onsuz üzün gülməz heç zaman sənin,
Oğuzdur, Gəncədir yurdun, məskənin.
O gözəl yerləri könlün salamlar.
Ay qərib axşamlar, qərib axşamlar.

*Aprel, 2010*



## İZAR ÇAYI

Sən nə Kürsən, nə də Araz,
İzar çayı, İzar çayı.
Mən danışım, sən qulaq as,
İzar çayı, İzar çayı.

Bu gün erkən oyanmışam,
Sahilində dayanmışam,
Səni mənə dost sanmışam,
İzar çayı, İzar çayı.

Xeyli vaxtdır qürbətdəyəm.
Dərddə, qəmdə, həsrətdəyəm,
Qəlb evimdən bir xəstəyəm.
İzar çayı, İzar çayı.

Sən də daim səfərəsən,
Neçə kənddə, şəhərdəsən,
Mənim kimi dərd-sərdəsən.
İzar çayı, İzar çayı.

Gəl bir yerdə yaş axıdaq,
Bir-birinə həmdəm olaq,
Nə dil bilsin, nə də dodaq.
İzar çayı, İzar çayı.

Qəlbimə ax, yu dərd, qəmi,
Ovundur gəl ürəyimi,
Görünməyim qərib kimi,
İzar çayı, İzar çayı.

İstər bahar, ya qış olsun,
Vətənimə düşsə yolun,
Deynən sağdır şair oğlun,
İzar çayı, İzar çayı.

*Mart, 2011*

## A BÜLBÜLÜM

Oxuyursan səhər-səhər,
Səsində var qüssə, kədər,
Qan-yaş tökmə gəl bu qədər,
Etmə fəqan, a bülbülüm.

Mənım yurdum Azərbaycan,
O səfalı gözəl məkan,
Bəs sən hansı diyardansan?
Ağlama can, a bülbülüm.

Qürbət eldə gülmr ürək,
Kədərliyəm mən də sən tək,
Qəriblikdə gün keçirmək,
Deyil asan, a bülbülüm.

Qəmli tapar qəmlisini,
Daim gözü nəmlisini,
Qucub ağlar öz dizini,
Zaman-zaman, a bülbülüm.

Ayrılığın üzü qara,
Ağır dərdə olmaz çara,
Gəlib çıxdım hardan-hara,
Gülləm haçan, a bülbülüm

Simax Şeyda ildən-ilə,
Yaşar vətən eşqi ilə,
Şeir yazar doğma elə.
Çəkər hicran, a bülbülüm.

*30.03.2011*

## ZOĞAL AĞACI

Tez-tez bu yerlərdə görürəm səni,
Yadıma salırsan ana vətəni,
Səfalı Qubanı, gözəl Gəncəni,
Meyvən ürəklərin min bir əlacı,
Ay zoğal ağacı, zoğal ağacı.

Yel əsir tərpədir budaqlarını,
Tökür torpaq üstə yarpaqlarını,
Tanımır insanlar burda barını.
Meyvən ürəklərin min bir əlacı,
Ay zoğal ağacı, zoğal ağacı.

Yoxsa mənım kimi sən də qəribsən,
İsti yurd-yuvandan bura gəlibsən,
Yollarda, bağlarda salmısan məskən,
Meyvən ürəklərin min bir əlacı,
Ay zoğal ağacı, zoğal ağacı.

Saçaqlı süfrələr açılan zaman,
Ortaya çay gəlib içilən zaman,
Zoğal mürəbbəsi çıxarmı yaddan?
Meyvən ürəklərin min bir əlacı,
Ay zoğal ağacı, zoğal ağacı.

Bilirəm ürəkdə intizarın var,
Sayılmamaq kimi qəm, qübarın var,
Qürbətdə yaşayan tez yaddan çıxar.
Meyvən ürəklərin min bir əlacı,
Ay zoğal ağacı, zoğal ağacı.

Ay Simax, yaz-yarat unut həsrəti,
Çıxart xatirindən dərdi, möhnəti
Səni  yaşayacaq el məhəbbəti,
Meyvən ürəklərin min bir əlacı,
Ay zoğal ağacı, zoğal ağacı.

*20.03.2011*



## QÜRBƏT RÜBAİLƏRİ

**1**

Doğma vətən hara, qürbət el hara,
Vətəni hər zaman axtarıb ara,
Baxıram həsrətlə, intizar ilə,
Qürbətdən vətənə gedən yollara.

**2**

Qayıdıb gəlmişdi biri qürbətdən,
Sevinc yaşlarını tökürdü dən-dən.
Üzünü sürtürdü daşa, torpağa,
Deyirdi: – imana gəldim, ay vətən.

**3**

Lacivərd göylərdə bulud olaydım,
Hərdən boşalaydım, hərdən dolaydım.
Bir xeyrim dəyəydi elə mənim də,
Vətən torpağında ölüb qalaydım.

**4**

Dağların başına duman, qar gələr,
Güman var görüşə bu gün yar gələr
Yer üzü nə qədər geniş olsa da,
Qürbətdə insana dünya dar gələr.

**5**

Qəlbimdə bəslərəm ana vətəni,
Səfalı Bakını, gözəl Gəncəni,
A qürbət gəl mənə biganə baxma,
Vətən tək istəyə bilmərəm səni.

**6**

Nə var, nə də dövlət həsrətindəyəm,
Nə də ki, şan-şöhrət həsrətindəyəm.
Vətəndə yaşamaq, vətəndə ölmək,
Bir belə səadət həsrətindəyəm.

**7**

Ayrılıq həsrəti çəkəndən bəri,
Ağlayıb göz yaşı tökəndən bəri,
Xəyal qatarına minib gəzirəm,
Hər gün seyr edirəm doğma elləri.

**8**

Ay külək, bahardır məhəbbətlə əs,
Verir lalə, nərgiz ürəyə həvəs,
Gətir gəl qürbətə vətən ətrini,
Sonra başım üstə iftixarla əs.

**9**

Uzaqda olsam da öz el - obamdan,
Bakıdan, Gəncədən, gözəl Qubamdan,
Bilmirəm ayrılıq, intizar nədir
Çünki qəlbimdədir vətən hər zaman.

**10**

Qürbətdə sordular bir ixtiyardan,
Neçin kədərlisən hər vaxt, hər zaman?
Söylədi sevinib gülərmi deyin,
El-oba həsrəti çəkən bir insan?

## 11

Vətən eşqi ilə yanar ürəyim,
Onu səhər-axşam anar ürəyim,
Haqqını hər şeydən uca tutmasam,
Zəhrimara dönər duzum, çörəyim.

## 12

Qürbətdə bir evə getmişdim dünən,
Bir «Bakı» tablosu gördüm orda mən,
Elə bil yenidən gəldim dünyaya,
Bütün Azərbaycan keçdi gözümdən.

## 13

Keçsə də günlərim toyda-düyündə,
Gümrah görünsəm də xalqın gözündə,
Yüz dəfə qürbətdən vətən yaxşıdır,
Qar, yağış üstümə yağsa da gündə.

## 14

Əngin üfüqlərdə bir quş olaydım,
Qürbətdən vətənə uçmuş olaydım,
Qarabağ düşməndən azad olanda,
O qədər içəydim bihuş olaydım.

## 15

Heyranam Bakının gözəlliyinə,
Açan çiçəklərin, gülün ətirinə,
Gəncədə laləli düzlərdən keçsən,
Məni də xatırla Allah xətrinə.

**16**

Çəkil gözlərimdən duman, sis kimi,
Dolaşma ortada bir xəbis kimi,
Gündə neçə dəfə vətən deyirsən.
Gəzirsən vətəndə vətənsiz kimi.

**17**

Döysə yağış məni, döysə qar məni,
Qürbətdə incitsə intizar məni,
Vətən məhəbbəti, el məhəbbəti,
Hər dərddən, bəladan saxlayar məni.

**18**

Gəzirdim İzarın sahilində mən.
Bir dəstə quş uçdu yanıma birdən,
Soruşdum bu sevinc nədir? Dedilər,
Salam gətirmişik sənə vətəndən.

**19**

Düşsən qəribliyə qəribəm demə,
Talehdən inciyib qəm, qüssə yemə,
Biliərəm ağırdır qürbətin daşı,
Atılan hər daşa sən boyun əymə.

**20**

Bir çərxi - fələyin düşsən əlinə,
Səni həsrət qoyar doğma elinə,
Tək-tənha qalarsan xəyallarınla,
Almaz bir kimsə də səni eyninə.

**21**

Bızim el-obaya bənzər bu yerlər,
Xaçmaza, Qubaya bənzər bu yerlər,
Sevdalı qəlbimdə, xəyallarımda,
Qanadlı quş kimi gəzər bu yerlər.

**22**

Silin lüğətlərlən qürbət sözünü,
İntizar sözünü, həsrət sözünü,
Qəm, qüssə insanı vaxtsız qocaldar,
Qoymaz ki, həyata açsın gözünü.

**23**

Yuxuda gördüm ki, Qarabağdayam,
Dahilər yetirən bir torpaqdayam,
Şuşa da, Laçın da söyləyir mənə.
Harada qalmısız dar ayaqdayam.

**24**

Qürbətə gəlmişdi biri vətəndən,
Gülmürdü kişinin üzü həsrətdən.
Vətənini halını xəbər alırdı
Hər yoldan keçəndən, gəlib – gedəndən.

**25**

Düşmən, çək əlini Şuşa, Laçından,
Çox danışma torpaq ehtiyacından.
Barı abır eylə, həya eylə gəl,
Boynuna asdığın dəmir xaçından.

**26**

Bir qəmli soruşdu, başqa qəmlidən,
Ürəyi kədərli, gözü nəmlidən:
- Qürbətdə yaşamaq nə verdi sənə,
İndi hey deyirsən vətən, can vətən?

**27**

Qürbətdə bir dostdan soruşdum: - Qardaş,
Sənin bu gününü görməyəydim kaş.
Dilləndi: -Sən məndən yaxşısan məgər?
Sənın də gözündə az görmədim yaş.

**28**

Qürbətdə Şuşanı tez-tez anıram.
Onun eşqi ilə alovlanıram.
Deyirəm yəqin ki, yanğım sönərdi.
«İsa bulağından» içsəydim bir cam.

**29**

Küləkli bir gündə, bir ilk baharda,
Fikirli gəzirdim qürbət diyarda.
Bir tanış yanaşıb söylədi mənə:
-Gör bizi qəm-qüssə haqladı harda.

**30**

Hanı Şuşam mənim, Xocalım mənim,
Füzuli, Laçın tək hilalım mənim.
İyirmi ildir ki, görə bilmirəm,
Bir dastana sığmaz bu halım mənim.

## 31

O gün ki, düşdüm mən vətəndən uzaq,
Oğuz tək, Gəncə tək gülşəndən uzaq.
Sevincim, fərəhim, tərk etdi məni.
İndi çox müşküldür onları tapmaq.

## 32

Çox da sevinməsin deyin əğyara
Qara paltarını qoysun aşkara.
Bu gün, sabah Şuşa azad olacaq.
Yenə də geyəcək onu dübara.



## MƏLHƏMİM MƏNİM

Qərib axşamların qəribliyində
Xəyallar olubdur həmdəmim mənim.
Gülür gözlərində səma da, yer də.
Yoxdur ürəyimdə bir qəmim mənim.

Gəzirəm Bakını, Quba, Xaçmazı.
Mənə gəl, gəl deyir Qazaxın qızı,
Dinir Ədalətin sədəfli sazı.
Başqa bir aləmdir, aləmim mənim.

Gedirəm Gəncədən dağlara sarı,
Laləli düzlərə, bağlara sarı,
Yenə seyr edirəm qarlı Qoşqarı.
Gəzir ağ varaqda qələmim mənim.

Qəriblik qəlbimi incidir hərdəm,
Qoymur ilham alım hər bir səhərdən.
Boylanır qaranlıq qərinələrdən,
Fərhadım, Şirinim, Kərəmim mənim.

Simax, vətən eşqi oxşar ürəyi,
Baldan şirin olur duzu, çörəyi,
Bu gözəl torpağın de yoxdur nəyi?
Suyu, havasıdır məlhəmim mənim.

## SEVGİ ŞEİRLƏRİ YAZIRSAN NİYƏ

*Eşqidir mehrabı uca göylərin,*
*Eşqisiz ey dünya, nədir dəyərin?!*
*Eşqisiz olsaydı xilqətin canı,*
*Dirilik sarmazdı bütün dünyanı.*

**(Nizami)**

Söhbət eyləyirdim bir gözəl ilə,
Bir ceyran baxışlı incəbel ilə,
Çatıb qaşlarını o gülə-gülə,
Söylədi: - hər qıza, hər gülüzlüyə.
Sevgi şeirləri yazırsan niyə?

Gənclik illərini salmısan yola,
Dönməz cavanlığın bir daha dala,
İstər çağır onu, istər harayla.
Qalarsan yollarda göz döyə-döyə,
Sevgi şeirləri yazırsan niyə?

Çox gözəllər gördün bu yaşında sən.
Baş əydin onların qarşısında sən,
İndi ki, ömrünün sərt qışındasan,
Bəsdir bundan sonra baxma özgəyə,
Sevgi şeirləri yazırsan niyə?

Cananlar eşqiylə yanmaqdan daşın,
Onları yad edib anmaqdan daşın,
Qələmi qoy yerə ayılsın başın,
Yol vermə qəlbində hər bir kimsyə,
Sevgi şeirləri yazırsan niyə?

Görürəm qürbətdə həsrət çəkirsən,
İntizar çəkirsən, möhnət çəkirsən,
Vətən eşqi ilə coşub çağla sən,
Baxma nə kədərə, nə bir qüssəyə,
Sevgi şeirləri yazırsan niyə?

Dedim: - Nizamini götür varaqla,
Böyük Füzulini oxu maraqla,
Vaqifi, Zakiri yadında saxla,
Bir kimsə olubmu onlara deyə,
Sevgi şeirləri yazırsan niyə?

Eşqlə, məhəbbətlə doludur sinəm,
Nazlı gözəllərin yoludur sinəm,
İlhamım gələndə susa bilmirəm,
Məgər demək olar sevən ürəyə,
Sevgi şeirləri yazırsan niyə?

Sevgi müqəddəsdir, sevgi əzizdir,
O, ülvi göylər tək safdır, təmizdir,
Yatağa sığmayan coşğun dənizdir,
Demə heç kimə sən cürət eyləyə,
Sevgi şeirləri yazırsan niyə?

*İyul, 2012*

## SALAM, TƏBRİZ

İllər ilə həsrətini çəkmişəm,
Həsrətini, möhnətini çəkmişəm,
Bir quş olub torpağında səkmişəm,
Salam Təbriz, salam Təbriz salam hey!
Sevincindən lal olmuşam, lalam hey!

Gəzib gəldim Ərdəbili, Zəncanı,
Sındı bir az ürəyimin həycanı,
Qoy mən olum gözlərinin qurbanı,
Salam Təbriz, salam Təbriz salam hey!
Sənsiz vallah mən saralıb sollam hey!

Qismət oldu gəldim səni gəzməyə,
Əlvan-əlvan güllərini üzməyə,
Nazlı yarın yollarında düzməyə,
Salam Təbriz, salam Təbriz salam hey!
Bulud kimi mən boşalıb dolam hey!

«Heydər baba» sənə könül bağladım,
Oxuduqca çaylar kimi çağladım,
Şəhriyarı yada salıb ağladım,
Salam Təbriz, salam Təbriz, salam hey!
Bir laylay çal, söylə laylay balam hey!

Dünya gülür gözlərimdə nə dərdim,
Dost bağından çiçək üzdüm, gül dərdim,
Səndə gəzir Bəhmən ağam, Əhədim.
Salam Təbriz, salam Təbriz salam hey!
Ələ düşməz bir də belə məqam hey!

Simax Şeyda gördü səni dirildi.
Həsrətinlə yol gəlirdi yüz ildi,
Öpmək üçün torpağına əyildi,
Salam Təbriz, salam Təbriz salam hey!
İstəyirəm burda ölüb qalam hey!

*Bakı, 1993*



## QARDAŞIM

*Şeyxülislam Allahşükür Paşazadənin*
*60 illiyi münasibətilə*

Gül-çiçəkli Lənkaranda doğuldun,
Çox səfalı bir məkanda doğuldun,
Milyon-milyon insanlara şeyx oldun,
Allahşükür Paşazadə qardaşım,
Ay mehriban, qəlbi sadə qardaşım.

Anan səndə dınə inam bəslədi,
Şeyxülislam dünyasına səslədi,
Haqqa olan inamını kəsmədi,
Allahşükür Paşazadə qardaşım,
Ay mehriban, qəlbi sadə qardaşım.

Məhəbbətlə oxuyursan Quranı,
İbadətə çağırırsan insanı,
Şan-şöhrətin tutub bütün cahanı,
Allahşükür Paşazadə qardaşım,
Ay mehriban, qəlbi sadə qardaşım.

Ürəyində Allahtala eşqi var,
Bu eşq sənin yollarına nur saçar,
İstərəm ki, ömrün olsun bəxtiyar,
Allahşükür Paşazadə qardaşım,
Ay mehriban qəlbi sadə qardaşım.

Azərbaycan sənin şanın-şöhrətin,
Bilirəm var Qarabağ tək möhnətin,
Şəfa tapar görən haçan bu dərdin?
Allahşükür Paşazadə qardaşım,
Ay mehriban, qəlbi sadə qardaşım.

Simax Şeyda hüzurunda baş əyir,
Sənə xoşbəxt uzun ömür diləyir,
Ürəklərin iftixarı ol deyir.
Allahşükür Paşazadə qardaşım,
Ay mehriban, qəlbi sadə qardaşım.

*Dekabr, 2009*



## BOLQAR QIZI

Hardan qabağıma çıxdın bu səhər,
Getmə, getmə dayan, a bolqar qızı?
Elə bil gün çıxdı güldü üfüqlər,
Nurlandı asiman, a bolqar qızı.

Bizdə də az deyil gözəl sənəmlər,
Vallah bir baxmaqla ürək vərəmlər,
Azalar qüssələr, yox olar qəmlər
Kiminlə danışsan, a bolqar qızı.

Varmı Küsteldildə sənın tək gözəl?
Sən gözəl, gül gözəl, ya çiçək gözəl,
Hər gün bu küçəyə bəzən, düzən gəl,
Mehriban, mehriban, a bolqar qızı.

Dağ dağa qovuşar insan insana,
Torpaq qar, yağışsız gələrmi cana?
Eşqin qəlbimdədir getsən hayana,
Mənəm estekadan, a bolqar qızı.

Simaxın gözündə sən uca dağsan,
Çiçəkli çəmənsən, meyvəli bağsan,
Günəşdən nurlusan, aydan parlaqsan,
Xoşbəxt ol hər zaman, a bolqar qızı.

*Sofiya, 1982*

## AŞIQ ZÜLFİYƏYƏ

Sən həm oxuyursan, həm saz çalırsan,
Hər elə, obaya səda salırsan,
Xalqın nəzərində hey ucalırsan,
Ay ellər aşığı, ay ellər qızı,
Çal telli sazının gəlsin avazı.

Gözəl məlahətli şirin səsin var,
Qəlblərə ruh verən xoş nəfəsin var,
Səni gözlər neçə toylar, bayramlar.
Ay ellər aşığı, ay ellər qızı,
Çal telli sazının gəlsin avazı.

Ürəkdən vurğunsan öz sənətinə,
Şeir sənətinə, söz sənətinə,
Görüm ki, dəyməsin göz sənətinə.
Ay ellər aşığı, ay ellər qızı,
Çal telli sazının gəlsin avazı.

Qoşmayla, təcnislə doludur sinən,
Abbasdan, Alıdan deyirlər hərdən,
Sən Allah bir ağız oxu Valehdən,
Ay ellər aşığı, ay ellər qızı,
Çal telli sazının gəlsin avazı.

Zilin də şirindir, bəmin də şirin,
Aşıqlar içində vardır öz yerin,
Təbin coşğun dəniz, kamalın dərin,
Ay ellər aşığı, ay ellər qızı,
Çal telli sazının gəlsin avazı.

«Ozan» məclisinə verirsən həyat,
Dədəm Qorqudun da ruhu olur şad,
Ağ günlər eşqilə, oxu, yaz-yarat.
Ay ellər aşığı, ay ellər qızı,
Çal telli sazının gəlsin avazı.

Köklənib Simaxın qəlbi saz üstə,
Xoşlar oxuyanda hər boyu bəstə,
Dözür qürbət eldə dərdə, həsrətə.
Ay ellər aşığı, ay ellər qızı,
Çal telli sazının gəlsin avazı.

*3 avqust, 2012*



## MÜŞFİQİN XƏTRİNƏ

*(Bəzi şairlərə)*

Əbü-Üllа Gəncəvi, Nizamidən bu yana,
Çox şairlər gəlmişdi bu dünyaya, cahana,
Dürlü-dürlü şeirlər almış qələmə onlar,
Səs salmış yer üzünə, bütün aləmə onlar,
«Xəmsə» bir məktəb olmuş, illər boyu insana
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

Qələm alır əlinə hər cavan, qoca bu gün,
Şeir yazır bilməyən qafiyə, heca bu gün,
Gəraylıdan, təcnisdən xəbəri olmayanlar,
Sözlərinin mənası, kəsəri olmayanlar,
Özlərini öyürlər, tuturlar uca bu gün,
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

Nəsimini soydular diri-diri kafirlər,
Ağlatdılar uşaq tək göyü, yeri kafirlər,
İki cahan sığışar məndə şair söylədi,
Mən isə bu cahana sığa bilmərəm dedi:
Al qana qərq etdilər ürəkləri kafirlər,
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

Ləl, cəvahir deyilmi Füzuli qəzəlləri?
Vəsf eylədi vəfalı nazənin gözəlləri,
Salam verdi almadı salamını məmurlar,
Rüşvət deyildi deyə qəbul etmədi onlar,
Lakin gün tək nur saçdı hər yerə əməlləri,
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

Molla Pənah Vaqif də yazdı gözəl şeirlər,
Gözəllərin eşqiylə nəfəs aldı deyirlər,
Ancaq cahan mülkündə bir həqiqət görmədi,
Nə gördü əyri gördü, özgə halət görmədi,
Ürəyini, qəlbini yedi hər gün qəm, kədər,
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

Satira aləmində Sabir tüğyan eylədi,
Zəmanənin zülmünə daim üsyan eylədi,
Cəhalətdə yaşamaq gördü necə ağırdır,
Xalqı elmə, biliyə, maarifə çağırdı
Haqq səsisni aləmə yaydı, bəyan eylədi.
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

Apardılar Cavidi, bir gün Əhməd Cavadı,
Ölüm oldu, qan oldu onların mükafatı.
Otuz yaşlı Müşfiqin susadılar qanına,
Dərya təbli şairin qəsd etdilər canına.
Daim yaşar qəlblərdə onun şöhrəti, adı
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

Səməd Vurğun, Şəhriyar, Süleyman, Rəsul Rza,
Şan-şöhrətə yetişdi, şeirlər yaza-yaza.
Yazdı ürək qanıyla «Gülüstanı» Bəxtiyar,
Oxudu göz yaşıyla onu cavan, ixtiyar.
Oxşa Nəbi Xəzriyə, oxşa Məmməd Araza.
Diqqət eylə, şair gəl şeirinin hər sətrinə,
Dünyadan nakam getmiş Müşfiqimin xətrinə.

*Nyu-York-Münhen*
*Oktyabr, 2011*

## YAXŞI ADAMLAR

*Kəmaləddin Heydərova*
*ithaf edirəm*

Göylərdət parlayan ulduza bənzər,
Hatəm səxavətli yaxşı adamlar.
Adı ağızlarda, dillərdə gəzər,
Sadə təbiətli yaxşı adamlar.

Sağollar, dualar saxlar onları,
Daha da həyata bağlır onları,
Qoymaz ki, haqlasın qəm insanları,
Gələcək niyyətli yaxşı adamlar.

Zəhmət dünyasının olar sultanı,
Qoymaz ki, dərd çəksin qoca, cavanı,
Sevər canı kimi Azərbaycanı,
Vətən məhəbbətli yaxşı adamlar.

Hacı Zeynalabdin olar birisi,
İstər tarixlərdə qala birisi,
Aləmə səs-səda salar birisi,
Var olsun qeyrətli yaxşı adamlar.

Simax yaxşıları daim yad eylər,
Çünki ürəkləri onlar şad eylər,
Hayıf az tanılar, az gözə dəyər,
Yaqutdan qiymətli yaxşı adamlar.

*Avqust, 2008-ci il*

## BİR GÖZALTIM VARDI MƏNİM

Neçə dəfə bu yerlərdən keçmişəm,
Bu yerlərin buz suyundan içmişəm,
Özümə bir nazlı nigar seçmişəm,
Daha gözəl bir gözaltım var mənim,
İlham verir ürəyimə yar mənim.

Anam bundan xəbər tutdu birinci,
Aşıb-daşdı ürəyimin sevinci,
Yox arvadın rahatlığı, nə dinci,
Daha gözəl bir gözaltım var mənim,
İlham verir ürəyimə yar mənim.

Bacılarım evimizə yığışdı,
Qız haqqında sorğu-sual qızışdı,
Qonşu qızı baxıb mənə qımışdı,
Daha gözəl bir gözaltım var mənim,
İlham verir ürəyimə yar mənim.

Simax, gülsün subayların çöhrəsi,
Şirin olsun yar bağının bəhrəsi,
Bir ulduza dönsün görüm hərəsi,
Daha gözəl bir gözaltım var mənim,
İlham verir ürəyimə yar mənim.

## BACILAR

*Müğənni Gülyanaq və Gülyaz*
*bacılarına ithaf edirəm.*

Şırın-şirin oxuyursuz həvəslə,
Bülbül kimi ötürsünüz xoş səslə,
Bu eşq ilə, bu qəlb açan həvəslə,
Oxuyun siz, oxuyun siz bacılar,
Vəcdə gəlsin ürəyimiz, bacılar.

Səsinizdə ilk baharın ətrı var,
Könüllərdə xoş duyğular oyadar,
Uzaq düşər insanlardan qəm, qübar,
Oxuyun siz, oxuyun siz bacılar,
Vəcdə gəlsin ürəyimiz, bacılar.

Cana gəlir səsınızlə çöl-çəmən,
Günəş çıxar, itər gözdən duman, çən,
Günlər keçir bir-birindən daha şən,
Oxuyun siz, oxuyun siz bacılar,
Vəcdə gəlsin ürəyimiz, bacılar.

Qanadlı bir quş kımidir mahnılar,
Min bir dərdin məlhəmidir mahnılar,
Onlarda bir qəlb oxşayan füsun var,
Oxuyun siz, oxuyun siz bacılar,
Vəcdə gəlsin ürəyimiz, bacılar.

Gündən-günə, aydan-aya ucalın,
Yer üzünə daha da gur səs salın,
Olun sənət dünyasının qartalı,
Oxuyun siz, oxuyun siz bacılar,
Vəcdə gəlsin ürəyimiz, bacılar.

Zeynəbdirmi, Şövkətdirmi Gülyanaq,
Dünyaya bir ziynətdirmi Gülyanaq,
Gülyaz qız da işıq saçan bir mayak,
Oxuyun siz, oxuyun siz bacılar,
Vəcdə gəlsin ürəyimiz, bacılar.

Simax Şeyda, ləl, göhərdir gözəl səs,
Qürbət eldə onsuz günün xoş keçməz,
Mahnı ilə, şeir ilə al nəfəs,
Oxuyun siz, oxuyun siz bacılar,
Vəcdə gəlsin ürəyimiz, bacılar.

*24 iyun, 2012*

# YAXŞI Kİ, VARSAN

*(«Qərib axşamlar» verilişinə baxarkən)*

Görürük üzünü həftədə bir gün,
Çəkirik səninçün həsrət, intizar,
Gəzir hər bir evdə söhbətin, sözün,
Ay qərib axşamlar, qərib axşamlar.

Sən qərib deyilsən-doğmasan doğma,
İlk gündən gəlişin doludur nurla.
Sevinc bəxş edirsən hər bir adama,
Gedirsən sabaha böyük uğurla.

Canlı bir körpüsən bilirik bunu,
Vətənlə qürbətin arasında sən,
Xoş günə səslərsən insan oğlunu,
Olmursan dünyanın harasında sən?

Şirin-şirin dinir, danışır eşqlə,
Efirdən qürbətlə Yusif Günaydın.
Həmişə insanı gətirir dilə,
Böyük məhəbbətlə Yusif Günaydın.

Zəng edib Münhendən, gözəl Venadan,
Vətənin eşqilə gəlirik cana,
Dinib-danışırıq Ukraynadan,
Qarabağ halına hey yana-yana.

Deyirəm dünyanın işinə bir bax,
Bir torpaq bölünüb gör neçə yerə,
Bir qismi düşmənin əlində dustaq,
Qaçqını, köçkünü düşüb çöllərə.

Yaxşı ki, dünyada, cahanda varsan,
Vətənin ətrini səndən alırıq,
Dərdli ürəkləri bir-bir oxşarsan,
Ölgün duyğulara saçırsan işıq.

Hər səni görəndə gülür qəlbimiz,
Düşür yadımıza köhnə əyyamlar,
Əl-ələ veririk birləşirik biz,
Ay qərib axşamlar, qərib axşamlar

*Münhen şəhəri,*
*İyul, 2012*

## KİTABLAR

Yaxın dostum olmusunuz hər zaman,
Çıxartmıram heç vaxt sizi yadımdan,
Verdiz mənə yeni nəfəs, yeni can,
Ay maraqlı, ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar.

Uşaqlıqdan sizi əldən qoymadım,
Oxuduqca oxumaqdan doymadım,
Tez-tez qaçıb oynamağa uymadım,
Ay maraqlı, ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar.

Əvvəl-əvvəl nağıllara vuruldum,
Ağ atlı tək oğullara vuruldum,
El-obayla, camaatla bir oldum,
Ay maraqlı, ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar.

Sizdə neçə ər ınsanla görüşdüm,
Babək ilə, Qazan xanla görüşdüm,
Koroğlu tək qəhrəmanla görüşdüm,
Ay maraqlı, ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar

Könül verdim çox gənc ikən şeirə mən,
Çıxdım uşaq dünyasını seyrə mən,
İlham aldım onların şən səsindən.
Ay maraqlı, ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar.

Sizsiz ömrüm bir zülmətə dönərdi.
Od-ocağım vaxtından tez sönərdi,
İlham pərim nə dil açıb dinərdi,
Ay maraqlı, ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar.

Çox qapılar açmısınız üzümə,
Güc vermisiz söhbətimə, sözümə.
Siz özümü qaytarmısız özümə,
Ay maraqlı ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar.

Sizsiz Simax Şeydanın var-dövləti,
Ürəyinin məhəbbəti, ülfəti.
Qoymursunuz çəksin vətən həsrəti,
Ay maraqlı, ürək açan kitablar!
Yollarıma işıq saçan kitablar.



## OĞUZ SUYU

*(Prezident İlham Əliyevin sərəncamı*
*ilə Oğuzdan Bakıya su xətti çəkilir)*

Baş götürüb, dağlardan,
Meşələrdən, bağlardan,
Səfalı yaylaqlardan
Ax Bakıya buz suyum,
Ay mənim Oğuz suyum.

Məlhəm ol ürəklərə,
Qanad ol diləklərə,
Gülüb-sevinsin hərə,
Ax Bakıya buz suyum,
Ay mənım Oğuz suyum.

Qəbələni salamla,
Keç yollardan inamla,
Şamaxıda axşamla,
Ax Bakıya buz suyum,
Ay mənim Oğuz suyum.

Alqış səni çəkənə,
Alın təri tökənə,
Şan-şöhrət ol vətənə,
Ax Bakıya buz suyum,
Ay mənim Oğuz suyum.

*İyun, 2008*

## ÜRƏYİMDƏN KEÇİRSƏN

Ay qız, böyük məhəbbətim var sənə,
İstəyirəm olum yaxşı yar sənə,
Bu gün- sabah, yay da gəlib ötüşər.
Bağ-bağçaya yağış yağar, qar düşər.
Eşqimizdən bir şad xəbər ver mənə,
Zaman keçir eyləmə çox fikir sən,
Gündüz yüz yol ürəyimdən keçirsən.

Səndən başqa heç bir kəsdə gözüm yox,
Danışmağa söhbətim yox, sözüm yox,
Anam deyir könül ver bir gözələ,
Qoyma yenə payız keçib qış gələ,
Daha məndə gözləməyə dözüm yox,
Zaman keçir eyləmə çox fikir sən,
Gündüz yüz yol ürəyimdən keçirsən.

Tezlik ilə azad olar Qarabağ,
Qayıdarıq Xocalıya yenə bax.
Orada biz gözəl bir toy edərik,
Hər arzuya, hər bir kama yetərik,
Yaşayarıq damağı çağ, kefi çağ,
Zaman keçir eyləmə çox fikir sən,
Gündüz yüz yol ürəyimdən keçirsən.

Anam səni bir gün görüb uzaqdan,
Xoşu gəlib sənin tək gül yanaqdan,
Bacılarım hər gün mənə deyirlər,
Bəsdir evlən subay gəzmə bu qədər,
Qabağımda oynayıblar nagəhan,
Zaman keçir eyləmə çox fikir sən,
Gündüz yüz yol ürəyimdən keçirsən.

Qəbul eylə gəl eşqimi sevgilim,
Təzə açıb ətir saçan gül kimi,
Bir dünyalıq sevinc, fərəh gətir gəl,
Bizim evə, ailəyə, ay gözəl,
Ömür boyu yaşayaq biz səmimi,
Zaman keçir eyləmə çox fikir sən,
Gündüz yüz yol ürəyimdən keçirsən.

*28 iyun, 2012*



## HƏMRƏYLİK GÜNÜ

Qurultay günüdür, Bakı şəhəri,
Yığışıb azəri xalqı bir yerə,
Birliyə çağırır həmyerliləri,
Çıxır Azərbaycan gözəl günlərə.

Siz ey Almaniyada, gözəl Venada,
Rusiyada çalışan can qardaşlarım,
Yığışın əl-ələ verin dünyada,
Axsın gözlərimdən sevinc yaşlarım.

Uzaq Fransadan səs ver səsimə
Ay Dədəm Qorqudun mərd övladları
Dünya heyran qalsın bu həvəsimə,
Sizinlə fəxr etsin Odlar diyarı.

Qardaşlıq günüdür, bu birlik günü,
Daha da isnişir insan insana.
Toy büsat bürüyər yerin üzünü,
Uçar xoş xəbərlər Azərbaycana.

Bu qardaşlıq günü, bu birlik günü,
Görünür könüldən könülə yollar,
Şair də, alim də deyir sözünü.
Hər insan qəlbində gülər bir bahar.

Qardaşım! İzn ver sıxım əlini,
Uğurlar diləyim ürəkdən sənə,
Qürbətdə heç zaman çıxma qəlbini,
Vətən məhəbbəti bəslə vətənə.

Şuşa da, Laçın da birləşin deyir,
Hələ də Xocalı xəyallardadır.
Kəlbəcər buxovu qırmaq istəyir,
Füzuli, Qubadlı intizardadır.

Qurultay günüdür, Bakı şəhəri,
Yığışıb azəri xalqı bir yerə,
Birliyə çağırır həmyerliləri,
Çıxır Azərbaycan gözəl günlərə.



## İSMİ PÜNHANIM

Sormayın kimdir
İsmi pünhanım?
Eşqim, sevgimdir,
İsmi pünhanım?

Var ay camalı,
Yanaqda xalı,
Qəlbə od salır,
İsmi pünhanım?

Danışmaz əbəs,
Hər deyən gülməz,
O dili bilməz
İsmi pünhanım?

Bağçada gəzər,
Gül-çiçək üzər,
Saçına düzər,
İsmi pünhanım?

Al səhərimdir,
İlham pərimdir,
Şah əsərimdir,
İsmi pünhanım?

*Oktyabr, 2006*

# YADA GƏTİRƏCƏK

*Bakıda dağ yəhudilərinin uşaqları
üçün məktəb açılıb.*

Yaraşıqlı bir məktəb var Bakıda.
Təzə açıb uşaqlara qoynunu,
Aşıb-daşır ürəklərin sevinci,
Hər yol yada gətirəndə mən onu.

Təhsil alır burda əziz balalar,
Həm ingilis, həm ivritcə biləcək,
Günəş kimi qəlbi təmiz balalar,
Şirin-şirin danışacaq, güləcək.

Getmək olmaz gələcəyə biliksiz,
Açmaq olmaz onsuz heç vaxt qol-qanad.
Elm iylə uçdu aya peykimiz,
Açdı bizə qucağını kainat.

Bu binanı tikənlərə eşq olsun,
Zəhmət ilə gəlib boya-başa o,
Qalacaqdır millət üçün, xalq üçün.
Bənzəyəcək bir qiymətli qaşa o.

Bu gün burda oxuyan gül balalar,
Tarixlərin yaddaşında qalacaq.
Əziz Samir Xanlarovu[1] qış, bahar
Məhəbbətlə yadlarına salacaq.

---

[1] Samir Xanlarov - Məktəbin direktoru

Yaraşıqlı bir məktəb var Bakıda.
Təzə açıb uşaqlara qoynunu,
Aşıb-daşır ürəklərin sevinci,
Hər yol yada gətirəndə mən onu.

*15 iyun, 2011*



# XOCALI

Düşmən gəldi Xocalının üstünə,
Durdu cavan, qocaların qəsdinə,
Ölən öldü, qalan qaldı pis günə,
Ürəklərin dərd-səridir Xocalı,
Dağlar boyda kədəridir Xocalı.

Qış günüdür, hava külək, yağır qar,
Güllələnir qız-gəlinlər, uşaqlar,
Səsə düşür yenə yaxın, uzaqlar,
Ürəklərin dərd-səridir Xocalı,
Dağlar boyda kədəridir Xocalı.

Şəhər yanır, hər yer tüstü, dumandır,
Beşikdəki körpələr də al qandır,
Aman Allah! Məgər axır zamandır?
Ürəklərin dərd-səridir Xocalı,
Dağlar boyda kədəridir Xocalı.

Ayaqyalın, başı açıq qaçan var,
Qar içində çətin ayaq açan var,
Orda-burda azıb qalır adamlar,
Ürəklərin dərd-səridir Xocalı,
Dağlar boyda kədəridir Xocalı.

Ölüm-itim insanları qorxudur,
Qocaları, cavanları qorxudur,
Bu doğrudur, ya da qorxunc yuxudur?
Ürəklərin dərd-səridir Xocalı,
Dağlar boyda kədəridir Xocalı.

Simax Şeyda yay səsini hər yana,
Qan axıdan özü düşər al-qana,
Bu soyqırım sığmaz heç bir dastana,
Ürəklərin dərd-səridir Xocalı,
Dağlar boyda kədəridir Xocalı.

*20 fevral, 2012*



## CEYRANIM MƏNİM

Baxdım gözlərinə eşqini duydum,
Sevindi ürəyim, Ceyranım mənim.
Məcnun tək Leylinin eşqinə uydum.
Dondu damarlarda al qanım mənim.

Məhəbbət həyata açdı gözümü,
Yar gələn yollara dikdim gözümü,
Borc aldım gələcək gündən dözümü,
Çoxaldı get-gedə hicranım mənim.

Göydəki ulduz tək parlaqdır eşqim,
Başı gül-çiçəkli bir bağdır eşqim,
Körpə uşaq kimi sevinməz de kim,
Yar olsa bir gecə mehmanım mənim.

Simax, hamar deyil eşqin yolları,
Gah yağışlı olur, gah görür qarı.
Azalar qəlbimin qəmi, qübarı.
Gələndə o. ismi pünhanım mənim.

# OYNAR-OYNAR

Yenə də qış fəsli gəlib yetişdi,
Yel əsər, havada qar oynar-oynar,
Düzü heç bilmirəm bu necə işdir,
Qarşımda bir gözəl yar oynar-oynar.

Baxdım gözlərinə ürəyim coşdu,
Eşqim eşqi ilə sanki toqquşdu.
Göllər sonasıdı, şanki bir quşdur,
Mənə məhəbbəti var oynar-oynar.

Təbiət oynayır bahar gələndə,
Gül açır ağaclar nübar gələndə,
Simax da sevinər hər yar gələndə.
Çünki əllərində nar oynar-oynar.

## AY HÜSEYN

*Gənc bəstəkar Hüseyn Abdullayev üçün*

Keç royalın arxasına,
Dillərini gətir cana,
Səsi düşsün dörd bir yana,
Ay Hüseyn, ay Hüseyn!

Mahnılarda vardır həyat,
Qaranquştək açar qanad,
Ürəkləri eyləyər şad,
Ay Hüseyn, ay Hüseyn!

Məhəbbətlə yaz, yarat sən,
Hər arzuya, kama çat sən,
Adınla fəxr etsin vətən,
Ay Hüseyn, ay Hüseyn!

Coşqun bulaq kimi çağla,
Musiqiyə könül bağla,
Nəfəs alsın, dinsin xalqla.
Ay Hüseyn, ay Hüseyn!

Simax Şeyda, deyir var ol,
Qüdrətli bir sənətkar ol,
Şərəflidir tutduğun yol,
Ay Hüseyn, ay Hüseyn!

*Münhen, fevral 2012*

## BİRCƏ NAZIN OLMAYAYDI..

*Gözəl qızlar nazsız olmaz...*
*Bir xalq mahnısından*

Nə yaxşı ki, gördüm səni bu səhər,
Eşqə saldım ürəyimi, a dilbər,
Saçlarıma sığal çəkdi küləklər
Nərgiz gözün heç görməsin yaş sənin,
Bircə nazın olmayaydı kaş sənin.

Naz-qəmzəylə yoxdur aram əzəldən,
Əl götürə bilmərəm sən gözəldən
Hər sözümün ilki sənsən, sonu sən.
Nərgiz gözün heç görməsin yaş sənin,
Bircə nazın olmayaydı kaş sənin.

Hicranına tab etməyə yox halım,
Gördüm səni getdi qəmim, məlalım.
Gecə-gündüz yanındadır xəyalım
Nərgiz gözün heç görməsin yaş sənin,
Bircə nazın olmayaydı kaş sənin.

Simax sənin məhəbbətin yolunda,
Dağ qüvvəsi hiss eyləyir qolunda,
Gözəllərə eşq, məhəbbət var onda,
Nərgiz gözün heç görməsin yaş sənin,
Bircə nazın olmayaydı kaş sənin.

## GÖZ DƏYƏR SƏNƏ

Çox bəzənmə yar,
Göz dəyər sənə.
Səndə gözüm var,
Göz dəyər sənə.

Gözəl-göyçəksən
Necə qəşəngsən,
Bir kəpənəksən
Göz dəyər sənə.

Kirpiyin qara,
Qaşın aypara,
Gedirsən hara?
Göz dəyər sənə.

Şair xəyallım,
Yanağı xallım,
Dodağı ballım,
Göz dəyər sənə.

Ay ulu Kəbəm,
Məkkəm, Mədinəm
Qəlbimə həmdəm
Göz dəyər sənə.

Simaxa yar ol,
Xoşbəxt ol, var ol,
Bir vəfadar ol,
Göz dəyər sənə.

*Sentyabr, 2005*

## SALAM VƏTƏN

Neçə illərdir səndən,
Ayrı düşmüşəm Vətən.
Qəlbimdə məhəbbətin,
Dərya boyda həsrətin,
Gəzirəm qürbətdə mən.
Salam, yurd-yuvam Vətən!
Mehriban anam Vətən!

Sən qəşənglər qəşəngi,
Gözümün nur çələngi.
Artır şanın-şöhrətin,
Günbəgün var-dövlətin.
Olmusan cənnət təki.
Salam, yurd-yuvam Vətən!
Mehriban anam Vətən!

Deyirlər səhər-axşam,
Bakı dəyişir tamam.
Tanınmaz olub şəhər,
Tikilir uca evlər.
Heyrətə gəlir adam,
Salam, yurd-yuvam Vətən!
Mehriban anam Vətən!

Getmək istərəm yenə,
Bir gün Oğuz elinə.
Dərərdim güllərindən.
Keçərdim çöllərindən,
Torpağa sinə-sinə.
Salam, yurd-yuvam Vətən!
Mehriban anam Vətən!

Qəriblik yıxıb məni,
Yamanca sıxıb məni.
Bir görəydim Şəkini,
Sumqayıtı, Ləkini,
Şirvanı, Daşkəsəni.
Salam, yurd-yuvam Vətən!
Mehriban anam Vətən!

Kaş qəm, qüssə gedəydi,
Qəlbimi şad edəydi.
Xocalıdan bir səhər,
Qovulaydı düşmənlər
Simax kama yetəydi
Salam, yurd-yuvam Vətən!
Mehriban anam Vətən!

*Aprel, 2011*

## RAŞBİL ZAXARYAYEV KÜÇƏSİ

Yoxdur ürəyimdə nə qüssə, nə qəm,
Raşbil Zaxaryayev küçəsindəyəm.
Gəzirəm eşq ilə, məhəbbət ilə,
O böyük insana min hörmət ilə.

Qayıdıb gəlibdir doğma Qubaya,
Canı tək sevdiyi elə-obaya.
Şahdağı, Qudyal da sevinir buna
Gözün aydın deyir oğlu Germana.

Sevinir böyük də, uşaq da bu gün,
Bircə ad səslənir dodaqda bu gün,
Yaşa Zaxaryayev küçəsi, yaşa
Aç geniş qoynunu dosta, yoldaşa.

*20 iyul, 2009-cu il*

## NOVRUZ BAYRAMI

Yurdumuza gəldi Novruz bayramı,
Yaz nəfəsli lalə, nərgiz bayramı,
El-obanın gözəl, əziz bayramı,
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

Qaval səsi tar səsinə qarışır,
Aşıqlar da bir-birilə yarışır,
Küsülülər bayramlaşıb barışır,
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

Açılıbdır saçaq-saçaq süfrələr,
Nemət dolu, naxışlı, ağ süfrələr
Məhəbbətlə gülümsəyir çöhrələr
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

Xonça tutur yenə qızlar, gəlinlər
Şəkərbura, paxlavalar təzə-tər,
Yoxa çıxıb ürəklərdən qəm, kədər,
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

Bağ-baxçalar yaşıl dona dürünür,
Günəş çıxıb buludlardan görünür,
Məcrasına sığışmayır ana Kür,
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

Kəndirbazlar rəqs eyləyir bir yanda,
Pəhləvanlar güləşirlər meydanda,
Al fişənglər yanıb-sönür bir anda,
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

Nə gözəldir bayram ayı ellərin,
Qaqqıldayır sonaları göllərin
Qışdan sonra üzü gülür çöllərin,
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

Simax Şeyda, min hüsnü var baharın,
Qaş-qabağı açılıbdır rüzgarın,
Səhər şehi göz yaşıdır otların,
Dədəm Qorqud yaşındadır bu bayram,
Ürəyimin başındadır bu bayram.

*5 mart, 2012*



# KEÇƏL HƏMZƏLƏR

Kələk ilə, hiylə ilə dost olan,
Xəmirləri əyriliklə yoğrulan,
İkiüzlü insanları görəndə,
Dürlü-dürlü yalanları görəndə,
Koroğlunun Qıratını aparan,
Ürəyində fırtınalar qoparan,
Keçəl Həmzə gözlərimdə canlanır,
Qəlb evimdə ona nifrət oyanır.
Beləläri az deyildir bu gün də,
Gəzir onlar gözlərimiz önündə.
Gəzsən əgər neçə eli-obanı,
Gəncəbasar mahalını, Qubanı,
Yaxud olsan Lənkəranda, Bakıda,
Ordubadda, gül-çiçəkli Ləkidə,
Ay dost, keçəl Həmzələri görərsən,
Bu müasir üzə gülən həmzələr,
Çıxardırlar min oyunlar, məzələr.
Aramızda gəzir onlar hələ də,
Onu-bunu tapıb yanlar hələ də.
Ah, yalanlar, əyriliklər, hiylələr,
Olmasanız yer üzündə siz əgər,
Olmaz idi bəlkə keçəl həmzələr,
Qəlbimizi çulğamazdı qüssələr.

## NƏNƏM QƏLYAN ÇƏKİR

Qəlyan çəkir nənəm mənim,
Var naxışlı kisəsi də.
Bu kisədə bülbül qonub,
Təzə açan bir gül üstə.

Yaxınlaşıb dedim bir gün,
Nə gözəldir kisən nənə.
Bəlkə mənə danışasan,
Kim veribdir bunu sənə.

Dərindən bir ah çəkərək,
Eh, ay qızım, - dedi nənəm.
Qəlyanını tüstülədib,
Bir az fikrə getdi nənəm.

Nəzər salıb ətrafına,
Kədər ilə gəldi dilə:
Düz on səkkiz yaşım vardı,
O zamanlar, ay Nargilə.

Bir cavanın məhəbbəti,
Məni Məcnun eləmişdi.
Bu payızda toyumuzu
Eyləyərik söyləmişdi.

Di gəl toya beş gün qalmış,
Ayrı saldı dava bizi
Onu əsgər apardılar,
Söndürdülər eşqimizi.

On ildən çox gözlədim mən,
Çıxmadı bir xəbər ondan,
Yazıb-pozduq neçə yerə,
Xəbər gəldi Moskvadan.

Novqoroddan faşıstləri
Qovlayanda bir gün səhər,
Qəhrəmanlıq göstərərək.
Həlak olmuş Mahmud Səfər.

Əsgərliyə gedən günü
Verdi mənə bu kısəni.
Dedi: - saxla, qayıtmasam,
Hər gün baxıb yad et məni.

Neçə aylar, illər keçib,
İndi artıq o zamandan,
Hər baxanda bu kisəyə
Ürəyimi üzür hicran.

Dava vuran yaraların,
Bax, bu gün də göynər yeri..
Unutmaram ömrüm boyu
Həlak olan o əsgəri.

*18 dekabr, 2010*

## UZAQDA OLSAN DA

*Matvey İlizarova ithaf edirəm*

Sən zəhmətkeş bir mehriban insansan,
Bu eşq ilə yaşa hər an, qardaşım!
Sevinc ilə vursun qəlbin hər zaman,
Gözlərində gülsün cahan, qardaşım!

Xeyirxahsan bilir qoca, cavan da,
Hörmətin var hər obada, hər yanda,
Sən Qubadan bir az uzaq olsan da,
Ayrılmırsan heç vaxt ondan, qardaşım!

Qudyal çalıb bir zamanlar laylanı,
Olmusan sən bu yerlərin heyranı,
Zəhmət ilə qazanmısan ad-sanı!
Az tapılar sən tək insan, qardaşım!

Çalışırsan vətən üçün, xalq üçün,
Arzuların çiçək açıb günbəgün.
Qoy fəxr etsin millət sənlə öyünsün,
Görməyəsən bir qəm-hicran. qardaşım!

Simax Şeyda deyir səni yüz yaşa,
Həyatda qoy bir xeyirxah iz, yaşa,
Sevinc ilə, fərəh ilə gəz yaşa,
Kamını al bu dünyadan, qardaşım!

*Almaniya, Münhen*
*5 iyun, 2011*

## YAZ KÜLƏKLƏRİ

Oyanır təbiət qış yuxusundan,
Yenə cana gəlir hər tərəf, hər yan.
Böyük məhəbbətlə dillənir insan,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Çıxıb novruz gülü, nərgiz, bənövşə,
Yaşıl don geyinir çöl, çəmən, meşə,
Lalə baş qaldırıb baxır günəşə,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Novruz bayramının gəlişi ilə,
Sevinc içindədir hər bir ailə,
Səslənir tar, qaval, saz gəlir dilə,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Sizdə var nəfəsi kəndın, şəhərin,
Füsünkar Göygölün, mavi Xəzərin,
Ruhuma bir qədər təskınlik verin,
Əsin başım üstən, gəzir hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Qapı, pəncərəmdən içəri dolun,
Darayın saçımı, həmdəmim olun,
Vətəndən gəlmisiz məlhəmim olun,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Qürbətdə yaşamaq deyildir asan,
Vətən həsrətiylə qocalır insan,
Bakı, gözəl Oğuz çıxarmı yaddan,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Quşlar cəhcəh vurur yenə ahəstə,
Uçurlar bağlarda hey dəstə-dəstə,
Bülbüllər də qonub güllərin üstə,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Simaxın ürəyi biganə deyil,
Sizin yolunuzu gözləyir hər il,
Gülür gözlərində hər oba, hər el,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

*Mart, 2012*



## YERİ, OĞLAN

Könül verdim bir gözələ,
Eşqi ilə gəldim dilə,
Cavab verdi gülə-gülə,
Yeri oğlan, yeri, - dedi,
Dönüb baxma geri, - dedi.

Dedim: - Günüm qara olar,
Qəlbim başı yara olar.
Söylədi: - Eh, mənə nə var,
Yeri oğlan, yeri, - dedi,
Dönüb baxma geri, - dedi.

Şairlərlə yoxdur aram,
Onlara yar olammaram,
Hər biriylə hələ varam.
Yeri oğlan, yeri, - dedi,
Dönüb baxma geri, - dedi.

Qələmini alıb ələ,
Şeir yazır hər gözələ,
Gətirirlər bizi dilə,
Yeri oğlan, yeri, - dedi,
Dönüb baxma geri, - dedi.

Simax, dərd-qəm çəkmə yenə,
Nə deyəsən beləsinə,
Nahaq tənə edir sənə,
Yeri oğlan, yeri, - dedi,
Dönüb baxma geri, - dedi.

*26 fevral, 2011*

## DEYƏ-DEYƏ

Dolandım nazənin bir yar başına,
Canan deyə-deyə, can deyə-deyə.
Onun gözlərinə, onun qaşına
Ay könül, alışıb yan deyə-deyə.

Gördüm könül vermək istəmir mənə,
Ürəkdə məhəbbət bəsləmir mənə,
İstədim başına dönməyə yenə
Ay könül, alışıb yan deyə-deyə.

Simax, o dilbəri unutmaq çətin,
Eşqində çox yandım ilk məhəbbətin,
İndi qürbət eldə qalmısan yetim,
O gözəl günləri an deyə-deyə.

## TEYMURUM MƏNİM

Əlli beş yaşını qeyd edirik biz,
Bu gün sevincimiz coşğun bir dəniz,
Dəyir bir-birinə qədəhlərimiz,
Ad günün mübarək Teymurum mənim,
Sevincim, fərəhim, göz nurum mənim.

Hardan yaxın düşdü xəstəlik sənə,
Qəm, qüssə gətirdi üstəlik sənə,
Yaşa yüz iyirmi, daha çox sənə,
Ad günün mübarək Teymurum mənim,
Sevincim, fərəhim, göz nurum mənim.

Ülkər də, Aynur da səni çox istər,
Zəng vurub halından tutarlar xəbər,
Təranə, Mehparə sevinclə deyər,
Ad günün mübarək Teymurum mənim,
Sevincim, fərəhim, göz nurum mənim.

Cəmilə, Gülnarə, Səbinə, Meri,
Sənin hər sözünə deyirlər «həri»,
Ülviyə, Rəfael dilin əzbəri,
Ad günün mübarək Teymurum mənim,
Sevincim, fərəhim, göz nurum mənim.

Qardaşın Müşfiq də sıxır əlini,
Rayayla, Firuzə bilir dilini,
Salıb Nərminə də sənə meylini,
Ad günün mübarək Teymurum mənim,
Sevincim, fərəhim, göz nurum mənim.

Çəkir hər dərdini, sərini anan,
Odur əhvalına alışıb yanan,
Dərdindən atan da gülməz heç zaman
Ad günün mübarək Teymurum mənim,
Sevincim, fərəhim, göz nurum mənim.

*11 dekabr, 2011*

# NOVRUZ ÇƏRŞƏNBƏLƏRİ

*Gələndə el, obaya*
*Novruz çərşənbələri*
*Onlar verir insana,*
*İlk bahardan xəbəri.*

## 1. SU ÇƏRŞƏNBƏSİ

O böyük nemətdir ınsanlar üçün,
Qocalar, uşaqlar, cavanlar üçün,
Odur qəlbimizi dindirən hər gün,
Hər dəfə gələndə şad edir bizi,
Novruz bayramının su çərşənbəsı.

Sübh tezdən bulağa gedir adamlar,
Yuyur əl-üzünü bir-bir adamlar
Böyük həvəs ilə sulaşır onlar,
Hər dəfə gələndə şad edir bizi,
Novruz bayramının su çərşənbəsı.

Tonqallar qalanır, isinir torpaq,
Od üstən hoppanır hər oğul-uşaq,
Yaşıl don geyinir yenə bağça-bağ
Hər dəfə gələndə şad edir bizi,
Novruz bayramının su çərşənbəsı.

Dirilik suyunu ıçəndən bəri,
Sağdır Xıdır İlyas gəzir hər yeri
Çatar köməyinə köməksizlərin,
Hər dəfə gələndə şad edir bizi,
Novruz bayramının su çərşənbəsi.

Simax, müqəddəsdir el bilir ki, su
Daim qiymətlidir inci təki su,
Odur ürəklərin kamı, arzusu
Hər dəfə gələndə şad edir bizi,
Novruz bayramının su çərşənbəsi.

*26.03.2012*



## 2. OD ÇƏRŞƏNBƏSİ

Həm əzizdir, həm müqəddəs,
Novruzun od çərşənbəsi.
Ürəklərə verir həvəs,
Novruzun od çərşənbəsi.

Sevməz gələn soyuq qızı,
Tez-tez yağan qar, yağışı,
Dilləndirər dağı, daşı,
Novruzun od çərşənbəsi.

Xoşlar yanan tonqalları
Alovlanan tonqalları.
Gözlər gəlsin ilk baharı,
Novruzun od çərşənbəsi.

Ətrafında od, ocağın,
Oxuyar həm kişi, qadın.
Ruhunu şad eylər xalqın
Novruzun od çərşənbəsi.

Simax Şeyda, qədim vaxtdan,
Ocağa and içir insan.
Qoymayır ki, çıxsın yaddan,
Novruzun od çərşənbəsi.

*29.03.2012*

### 3. YEL ÇƏRŞƏNBƏSİ

Yeri, suyu hərarətə gətirir,
Ürəkləri məhəbbətə gətirir,
İnsanlara xoş xəbərlər yetirir,
Gələndə yel çərşənbəsi Novruzun.

Günəş çıxıb batır gündə neçə yol,
Büsat qurur göy üzündə neçə yol,
Şəfəq saçır el-obaya o bol-bol
Gələndə yel çərşənbəsi Novruzun.

Alovlanar həyətlərdə tonqallar,
Tüstülənər neçə yerdə tonqallar,
Mahnılarda vəsf olunar ilk bahar,
Gələndə yel çərşənbəsi Novruzun.

Gül-çiçəklər baş qaldırar torpaqdan,
Yenə quşlar köç eyləyər uzaqdan
Uçub qonar budaqlara budaqdan.
Gələndə yel çərşənbəsi Novruzun.

Səmənilər yaşıllığa bürünər,
Duman gəlib dağ-dərədə sürünər,
Qız-gəlinlər daha da şən görünər,
Gələndə yel çərşənbəsi Novruzun.

Sevinc ilə aşıb-daşar ürəklər,
Qanadlanar xoş arzular, diləklər,
Simaxı da salamlayar küləklər,
Gələndə yel çərşənbəsi Novruzun.

*01.04.2012.*

## 4. TORPAQ ÇƏRŞƏNBƏSİ

Torpağa bağlıdır əzəldən insan,
Onunla mehriban olmuş hər zaman,
Yolunda keçmişdir şirin canından.
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

İlk bahar eşqinə, günəş eşqinə,
Çıxıb novruz gülü, bənövşə yenə,
Boylanıb baxırlar çölə, çəmənə,
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

Hər evdə bayrama gedir hazırlıq,
Qalanır tonqallar, gur yanır işıq,
Baxmır od-alova düşür qaranlıq,
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

Günün şəfəqləri yeri isidər,
İnsanlar tarlaya çıxar hər səhər,
Oxunar gül kimi şirın nəğmələr,
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

Müqəddəs sayılar od tək torpaq da,
Onsuz ürək gülməz, dinməz dodaq da,
Ömür gün ötüşər daim fəraqda,
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

Bu gündə sevənlər böyük həvəslə,
Küsənlər barışır bir-biri ilə,
Dinir sədəfli saz, tar gəlir dilə,
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

Torpaq and yeridir, əzizdir adı,
Yaşadır qoynunda bu kainatı,
Vardır ürək açan min bir büsatı,
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

Simax, nə gözəldir yazı vətənin,
Daima dillənsin sazı vətənin,
Onsuz bir günün də olmasın sənin,
Torpaq çərşənbəsi günüdür bu gün,
Bayram içindədir el-oba bütün.

*06.04.2012*



# QƏZƏLLƏR



## QÜRBƏTDƏYƏM, QÜRBƏTDƏ

Düşdüm vətəndən uzaq qürbətdəyəm, qürbətdə,
Çəkirəm qüssə, fəraq, qürbətdəyəm, qürbətdə.

Daim düşür yadıma Azərbaycan torpağı,
Neçə yurd, neçə ocaq, qürbətdəyəm, qürbətdə.

Hacıkəndin, Göy-gölün havasına həsrətəm,
Hardasan, ay Xoşbulaq, qürbətdəyəm, qürbətdə.

Lənkərandan, Göyçaydan, Oğuzdan yox xəbərim,
Çıraq qala, Dəli dağ qürbətdəyəm, qürbətdə.

Səfalı Qubadandır ismi pünhanım mənim,
Canımdır o gülyanaq, qürbətdəyəm, qürbətdə.

Simax vətən həsrəti çəkə-çəkə qocalır,
Yazmaqdan qalmır ancaq, qürbətdəyəm, qürbətdə.

## DURNALAR

Göy üzündə gördüm səni bir günorta, durnalar
Düşdü gözəl Azərbaycan yenə yada, durnalar.

Dedim: -Əlbət Qarabağdan gətirmisiz şad xəbər
Çal-çağırdır, toy-büsatdır indii orda, durnalar.

Qaçqınlar da, köçkünlər də qayıdıb öz yerinə,
Uzaq düşüb camaatdan hər qan-qada, durnalar.

İllər ilə gözləmişəm bu xəbəri, bu günü
Çəkə-çəkə həsrətini düşdüm oda, durnalar.

Ulu tanrım, dediklərim kaş həqiqət olaydı,
Bir qurbanlıq qoç kəsəydi Simax Şeyda, durnalar.

*14 avqust, 2006*

## ŞEYXİM MƏNİM

*Şeyxülislam Allahşükür Paşazadəyə*
*ithaf edirəm*

Məhəbbətlə oxuyursan quranı sən, Şeyxim Mənim!
Xoş günlərə səsləyirsən insanı sən Şeyxim Mənim!

Qəlbindəki Allahtala eşqi ilə yaşa, yaşa,
Sev daha da bu dünyanı, cahanı sən, Şeyxim Mənim!

Şan-şöhrətin ağızlarda, dodaqlarda gəzir bu gün,
Şanlı islam dünyasının sultanısan, Şeyxim Mənim!

Bir zamanlar Buxarada təhsil aldın məhəbbətlə,
Daha da çox eşqlə sevdin Xudanı sən, Şeyxim Mənim!

Fəxr eyləyir Azərbaycan sənin kimi oğlu ilə,
Zəhmət ilə qazanmısan ad-sanı sən, Şeyxim Mənim!

Simax Şeyda altmış nədir yüz il ömür dilər sənə,
Gəz qəlbində vətən eşqi hər yanı sən, Şeyxim Mənim!

*Dekabr, 2009*

## AZADLIQ İSTƏYİ

Ürəyi yaralı, qəlbi yaralı
Vətəndən aralı, eldən aralı,

Gəzirəm qürbətdə Qarabağ deyə,
Ötüşür günlərim ağlı-qaralı.

Düşmənin əlində darda qalıbdır,
Şuşa tək dağların gözəl maralı.

Azadlıq istəyir Kəlbəcər, Laçın
Qubadlı, Fizuli, Ağdam mahalı.

Simax hər düşəndə Qarabağ yada,
Adamın başından çıxır xəyalı.

*İyun, 2007*

## ŞÜARIM MƏNİM

Vətəndən uzaqlara düşüb güzarım mənim,
Çıxmır bir an yadımdan Bakım, Ucarım mənim.

Qəlbimdə yuva salmış Oğuz, Quba, Qəbələ,
Qazaxdır, Lənkərandır əhdim, ilqarım mənim.

Səsli-küylü Gəncədən könlüm ayrı düşəli,
Daim gəlir yadıma Göygöl, Qoşqarım mənim.

Gül-çiçəkli Ağdamı röyalarda görürəm,
Görən səndən harda var Şəkim, Qüsarım mənim?!

Fizuli, Şuşa üçün qəlbin göynəyir, Simax,
Laçındır, Kəlbəcərdir dildə şüarım mənim.

*30.10.2006*

## YUSİF GÜNAYDINA

Yusifi-Kənan kimi qəlbi təmiz insansan,
Hamımızın yanında xətri əziz insansan.

Mehribansan, şirindir hər söhbətin, hər sözün
Milyonların qəlbində yaşarsan zaman-zaman.

«Qərib axşamlar» ilə səs salmısan dünyaya,
Həyatın mənasını anlayansan, duyansan.

Vətən məhəbbətidir daim ucaldan səni,
Aysan, günsən, Günaydın, günəşli asimansan.

Mənim əziz qardaşım, Simax sıxır əlini,
Uzaq Münhen elindən, o səfalı diyardan.

*Almaniya, Münhen*
*Sentyabr, 2010*

## YUXUDA GÖRDÜKLƏRİM

Yuxuda gördüm ki, mən Şuşadayam bu axşam,
Sağlıqlar söyləyirəm əlimdə mey dolu cam.

Qəhrəmanlıq göstərib Azərbaycan əsgəri,
Azğınlaşan düşməni eyləyib özünə ram.

Köçüb gəlir adamlar ata-baba yurduna,
Odlar yurdu eyləyir hər tərəfdə toy-bayram.

Kəsilir həyətlərdə qurbanlıq qoyunları,
Göy üzündə fişənglər yanıb-sönür durmadan.

Təndirlərə od düşür, çörək yapır gəlinlər,
Ocaqlarda dəm alır plovlar aram-aram.

Yallı gedir cavanlar yenə verib əl-ələ,
İxtiyar qocalar da danışıb gülür mudam.

Simax Şeyda qəm yemə bir gün yuxun çin olar,
Qarabağdan qovular azğın düşmənlər tamam.

*Dekabr, 2007*

# ÇAL QARDAŞIM

*Gənc bəstəkar Hüseyn Abdullayevə*
*ithaf edirəm.*

Çal, qardaşım, dilə gəlir ürəyimin telləri,
Çal, çaldıqca gəzsin səsin obaları, elləri.

Uca dağlar, göy meşələr dilə gəlsin səsinlə,
Ram eyləsin yatağına sığışmayan selləri.

Çal, çal susuz səhralara yeni həyat bəxş etsin,
Yaşıllığa qərq eyləsin dərələri, çölləri.

Eşqə düşən cavanlara saf məhəbbət diləsin,
Bir-birinə qovuşdursun sevdalı könülləri.

Salamlasın mahnıların Xocalıda, Şuşada,
Həsrət ilə hər açılan o xarı bülbülləri.

Simax Şeyda, musiqinin çox ecazkar səsi var,
Qoy bürüsün xoş nidalar hər tərəfi, hər yeri.

*28.12.2011*

# QOCALDIM

Eşq sazını çala-çala qocaldım,
Yar qadasın ala-ala qocaldım.

Yola saldım gəlib-keçən illəri,
Saç ağardı bala-bala qocaldım.

Tanrı məni ayrı saldı vətəndən,
Xəyallara dala-dala qocaldım.

İlk eşqimi o nazənin dilbəri,
Hər gün yada sala-sala qocaldım.

Simax Şeyda, hər qışın öz yazı var,
Qürbət eldə qala-qala qocaldım.



## MÜNHENİN GÖZƏLLƏRİ

Keçir gözümdən hər an Münhenin gözəlləri,
Adamı edir heyran Münhenin gözəlləri.

İşvəlidir, nazlıdır hərəsi bir-birindən,
Ürək çalandır yaman Münhenin gözəlləri.

Biri incə bellidir, biri ceyran baxışlı,
Biri də hüri-qılman Münhenin gözəlləri.

Şirin-şirin gülürlər bizim gözəllər kimi,
Can qurbandır sizə can, Münhenin gözəlləri.

Ay Simax, qoymaz səni rahat nəfəs alasan,
Hər gün qarşına çıxan Münhenin gözəlləri.

*21.09.2006*

## QARABAĞ

Çıxarda bilmirəm heç mən səni yaddan Qarabağ,
Tanrı hifz etsin səni düşməndən, yaddan, Qarabağ.

Şuşanı, Füzulini, Laçını gəzə bilmirəm,
Görən haçan qurtarar can düşdüyün oddan, Qarabağ?

Yenə İsa bulağını görməyə könül tələsir,
Xəbər tutmaq istəyirəm hər toy-büsatdan, Qarabağ.

Zakırin, Natəvanın düşmən əlındədır yurdu,
Vaxtdır qurtar canını ağır həyatdan, Qarabağ.

Ay Simax, gəl bu qədər getmə fikirə, xəyala
Tezliklə azad olacaq cənnəti-məkan Qarabağ.

*19.09.2006*



## ALMAN QIZI

Gülə-gülə aldın başdan ağlımı sən, alman qızı,
Sehrləndim eşq tökülən gözlərindən, alman qızı.

Nəsə dedin öz dilində başa düşə bilmədim mən,
Qəhərləndim, bihal oldum sözlərindən, alman qızı.

Düşündüm ki, məhəbbətli baxışlardır eşqin gücü,
Götürmədim nəzərimi nəzərindən, alman qızı.

Gəldim alman torpağına gözüm şəfa tapsın deyə,
Səndə tapdım o şəfanı, o nuru mən, alman qızı.

Nə olaydı hər istəyim həqiqətə dönəydi kaş,
Simax sənlə Qarabağda gəzəydi şən, alman qızı

*09.08.2006*

## NƏ ÇOX ÇƏKDİ BU HİCRAN

Yad şəhərdə – Münhendə gəzirəm mən qərib tək,
İnsana gəl-gəl deyir burda hər gül, hər çiçək.

Eynim açılmır ancaq qəm, qüssənin əlindən,
Fikirlər içindəyəm sevinib-dinmir ürək.

Deyirəm öz – özümə: - Nə çox çəkdi bu hicran,
Görəsən Qarabağa bahar nə vaxt gələcək?

Ümid qalmayıb məndə bu gün-sabah sözünə,
Ey Qarabağ günəşi çıx dünyaya bir car çək.

De qovulub, yağılar Laçından, Kəlbəcərdən
Füzulimiz, Şuşamız daha deyib-güləcək.

Simax, şadlıq edəcək Azərbaycan torpağı,
Bütün qüssə-kədəri ürəklərdən siləcək.

*Noyabr, 2008*

## ÖLDÜRÜR MƏNİ

Bir dilbərın işvəsi, nazı öldürür məni,
Çoxu zülüm eyləyir, azı öldürür məni.

Onun qarlı yağışlı günlərinə dözürəm,
Ancaq güllü-çiçəkli yazı öldürür məni.

Bilirəm ki, sevməkdən başqa yoxdur günahım,
Onda neçin zalımın qızı öldürür məni.

Vaxt olur ki, çıxıram onun ilə gəzməyə,
Olmur bir yol sözümdən razı, öldürür mənı.

Eşq, məhəbbət olmasa insan yaşaya bilməz,
Simax Şeyda gözəllər xası öldürür məni.

*Münhen şəhəri,*
*Mart, 2006*

# UŞAQ ŞEİRLƏRİ

## AZAD EDƏK

-Şuşa, Şuşa deyirsən
Bu qədər neçin, ata?
Kədər ilə salırsan,
Hər gün onu sən yada.

- Mənim ağıllı balam,
Sözlərimə qulaq as,
Şuşa kimi şəhərdən,
Bu dünyada tapılmaz.

Gözəldir başdan-başa,
Onun hər bir bucağı,
Vardır təmiz havası,
Neçə sərin bulağı.

Durur «Cıdır düzü» də,
Kədər içində indi,
Vaqifin məqbərəsi,
Kim bilir nə gündədir.

Gözlərimi açmışam,
Bu torpaqda bir səhər,
Mənim canım, ciyərim,
Sevincimdir bu şəhər.

Vardır ayaq izlərim,
Hər küçədə, hər tində,
Neçə ildir əsirdir,
Şuşa düşmən əlində.

Fikrə gedib bir qədər,
Belə söylədi Babək:
- Ata gedək Şuşanı
Düşməndən azad edək.

*Fevral, 2009*

## APAR MƏNİ

Çay süfrəsi arxasında
Atasına dedi Pərviz:
- Gül-çiçəkli Qarabağdan
Neçin uzaq düşmüşük biz?

Nadir əmim, Nabat xalam,
Hey Xankəndi, Şuşa deyir
Güllü nənəm yaş axıdır,
Hər gün qara paltar geyir?

Apar məni o yerlərə,
Qoy dağlardan düzdən keçim,
Sərin-sərin bulaqların
Gözlərindən mən də içim.

Əlvan-əlvan güllərindən,
Dəstə tutum anam üçün,
Bağlarından meyvə dərim,
Nənəm üçün, babam üçün.

Sür maşını, sür ay ata,
Yola düşək elə indi,
Topumu da qoy götürüm,
Bəlkə orda kara gəldi.

- Ah ay bala, səni necə
Qarabağa aparım mən?
Neçə ildir o yerləri
Zəbt eyləyib qarı düşmən.

Vardır evim, bağım-bağçam,
Şuşa kimi bir şəhərdə.

İndi çıxmaq istəmirlər
Yurdumuzdan daha onlar.
Günü-gündən qəlbimizi
Üzür qüssə, kədər, qübar.

Şəhid edib üç oğlunu
Bu davada Güllü nənə.
Ona görə qara paltar
Geyir hər gün o əyninə.

Hey deyirlər bu gün-sabah
Qovacaqlar düşmənləri.
Qalmayıbdır səbr bizdə,
İstəyirik dönək geri.

Zalımların əllərindən
Qurtaranda torpağımız.
Qarabağda ucalanda
Azərbaycan bayrağımız.

Onda səni apararam
Birdəfəlik o yerlərə.
Üzümüzə gülər həyat
Son qoyular qəm, kədərə.

*28 yanvar, 2010*

## ANARIM

Zanbaq kimi boy atdın,
Məktəb yaşına çatdın,
Açıldı qol-qanadın,
Mənim yazım-baharım,
Anarım, ay Anarım.

Hər gün oxu dərsini,
Elmə ver həvəsini,
Eşidək şən səsini,
Mənim yazım-baharım,
Anarım, ay Anarım.

Əlimə alıb qələm,
Səni təbrik edirəm,
Gözündə gülsün aləm,
Mənim yazım-baharım,
Anarım, ay Anarım.

Simax sənə can deyir,
Gözünə qurban deyir,
Var ol hər zaman deyir,
Mənim yazım-baharım,
Anarım, ay Anarım.

*10.08.2009*

## GÖZƏL SONA

*Hacı Əhməd İsayevin Sona nəvəsi üçün.*

Bizim evdə bir Sona var,
Hamı onu öpüb-oxşar,
Sevincimiz aşıb-daşar,
Dağ qızıdır bizim Sona,
Ürək heyran olub ona.

Əl-qol atıb iməkləyər,
Gündən-günə çiçəkləyər,
Təzə açan gülə bənzər.
Dağ qızıdır bizim Sona,
Ürək heyran olub ona.

Şəhriyarın qız balası,
Gətiribdir bizə yazı,
Nənə, baba çəkər nazı.
Dağ qızıdır bizim Sona,
Ürək heyran olub ona.

Bu gün, sabah boy atacaq,
Tutacaq hər şeydən soraq,
Məktəbə də basar ayaq,
Dağ qızıdır bizim Sona,
Ürək heyran olub ona.

*10 aprel, 2007*

## TANINMAZ OLUB

Moskvadan Qubaya
Qonaq gəlmişdi Lalə
Qırmızı qəsəbədə
Gəzirdi Murad ilə.

Murad dedi: - Laləcan,
Qəsəbəmiz qəşəngdir.
Hər tərəf başdan-başa
Bir bax, güldür, çiçəkdir.

Uca evlər tikilir
Burda da son zamanlar.
Daha da şən yaşayır
Günü-gündən insanlar.

İsaq Hanuk adına
Bu təzə gözəl bina
Bizim məktəbimizdir,
Diqqət ilə bax ona.

Gör necə də gözəldir,
Gör necə də işıqlı.
Sinifləri genişdir,
Foesi yaraşıqlı.

Göy üzünə baş çəkən
Şah dağıdır bu dağ da.
Havasından, suyundan.
Tapmaq olmaz heç yanda.

Bu saat gəzdiyimiz
Bu geniş küçə isə
Raşbil Zaxaryayevdir,
Çox əzizdir o bızə.

Həmyerlimiz mehriban,
Gözəl jurnalist idi.
Hamı onu hörmətlə,
Məhəbbətlə sevirdi.

Moskvada yaşayır
Raşbilin övladları.
Xeyirxah işləriylə
Yad olunur adları.

Oğlu German həmişə
Qubaya gəlib-gedir.
Qohumları, dostları
Hörmət ilə yad edir.

Bu çay isə Qudyaldır,
Axıb gəlir dağlardan.
Keçir neçə düzlərdən,
Dərələrdən, bağlardan.

Görürsən hər yer necə,
Tərtəmizdir, tərtəmiz.
Tamam tanınmaz olub
Qırmızı qəsəbəmiz.

*05.06.2012*

## İSAQ HANUK MƏKTƏBİ

Bir məktəb var Qubada,
İsak Hanuk adına.
Qırmızı qəsəbəyə
Bir gün gəlib bax ona.

Sinifləri genişdir,
Gözəldir, işıqlıdır.
Biri-birindən qəşəng.
Həm də yaraşıqlıdır.

Bu binada oxuyur,
Bizim əziz uşaqlar.
Günəş kimi ürəyi,
Qəlbi təmiz uşaqlar.

Xoş günlərə səsləyir
Ana məktəb onları.
Azad, xoşbəxt boy atan.
Qızları, oğlanları.

*5 iyun, 2012*

## QOVULANDA DÜŞMƏNLƏR

Balaca rəssam Bəkir,
Gözəl şəkillər çəkir.

Çəkir bənövşə şəkli,
Yamyaşıl meşə şəkli.

Heyran eylər, hər kəsi
Əlinin səliqəsi.

Neçə vaxtdır çəkir bax,
Aylı, ulduzlu bayraq.

Ana tamaşa etdi,
Gözəldir oğlum, – dedi.

Ata öpdü gözündən,
Nur tökülən üzündən.

Bəkir dedi: - Bu bayraq,
Şuşada ucalacaq.

Qarabağdan bir səhər,
Qovulanda düşmənlər.

*08.02.2012*

## SƏBİNƏ NƏVƏM

İyirmi yaşın
Tamamdı bu gün.
Deyib-gülürük.
Bayramdı bu gün.

Mübarək olsun
Görüm ad günün.
Həmişə keçsin
Belə şad günün.

Görüm bəxtəvər
Bir qız olasan.
Daim parlayan
Ulduz olasan.

Gəlibdir Teymur,
Əmin birinci.
Onun da aşıb,
Daşır sevinci.

Balaca bacın,
Kamalla - Meri
Səhmana salır
Evdə hər yeri.

Gəlib Murad da
Rafael ilə.
Bir dəstə təzə
Güllə, çiçəklə.

İş başındadır
Bibin Firuzə
Dadlı çörəklər
Bişirmiş bizə.

Böyük bacın da
Bəzər süfrəni.
Şad görmək istər
Daim çöhrəni.

Könül də gəlib
Nəzrin qızıyla.
Gül kimi gözəl,
Şirin qızıyla.

Qonşu İradə
Gəlib təbrikə.
Balaca oğlu
Elliylə birgə.

Bax, Nərminə də
Durmayır işsiz.
Səliqəsinə
Fikir verin siz.

Öpürəm səni
Bərk-bərk Səbinə.
Xoşbəxt ol, var ol,
Qəşəng Səbinə.

*29.09.2011*

## ŞANEL QIZIM

Şanel qızım, ay gül qızım,
Daim sevin, sən gül, qızım.

Gəlib çıxdın bir yaşa sən,
Xoşbəxt yaşa, şən yaşa sən.

Kəmalənin sevinci ol,
Hər bir işdə birinci ol.

Babaların Oqtay, Fərman,
Sənə desin həmişə can.

Tez böyü gəl, tez boy at gəl,
Hər arzuya, kama çat gəl.

Fəxr eləsin sənlə hər an,
Atan ilə, əziz anan.

*3 may, 2012*

## KİTABIN İÇİNDƏKİLƏR

Qürbətdən gələn səslər.............................................3

## QÜRBƏT ŞEİRLƏRİ

Düşmüşəm .............................................9
Küləklər .............................................11
Qərib axşamlar .............................................12
İzar çayı .............................................14
A bülbülüm .............................................15
Zoğal ağacı .............................................16
Qürbət rübailəri .............................................18

## ŞEİRLƏR

Məlhəmim mənim .............................................25
Sevgi şeirləri yazırman niyə.............................................26
Salam Təbriz .............................................28
Qardaşım .............................................30
Bolqar qızı .............................................32
Aşıq Zülfiyəyə .............................................33
Müşfiqin xətrinə .............................................35
Yaxşı adamlar .............................................37
Bir gözaltım vardır .............................................38
Bacılar .............................................39
Yaxşı ki, varsan .............................................41
Kitablar .............................................43
Oğuz suyu .............................................45
Ürəyimdən keçirsən .............................................46
Həmrəylik günü .............................................48
İsmi pünhanım .............................................50
Yada gətirəcək .............................................51
Xocalı .............................................53
Ceyranım mənim .............................................55
Oynar-oynar .............................................56
Ay Hüseyn .............................................57
Bircə nazın olmayaydı.............................................58
Göz dəyər sənə .............................................59
Salam vətən .............................................60

Raşbil Zaxaryayev küçəsi ....................62
Novruz bayramı ....................63
Keçəl həmzələr ....................65
Nənm qəlyan çəkir ....................66
Uzaqda olsa da ....................68
Yaz küləkləri ....................69
Yeri oğlan ....................71
Deyə-deyə ....................72
Teymurum mənim ....................73
Novruz çərşənbələri ....................75

## QƏZƏLLƏR

Qürbətdəyəm qürbətdə ....................82
Durnalar ....................83
Şeyxim mənim ....................84
Azadlıq istəyi ....................85
Şüarım mənim ....................86
Yusif Günaydına ....................87
Yuxuda gördüklərim ....................88
Çal, qardaşım ....................89
Qocaldım ....................90
Münhenin gözəlləri ....................91
Qarabağ ....................92
Alman qızı ....................93
Nə çox çəkdi bu hicran ....................94
Öldürür məni ....................95

## UŞAQ ŞEİRLƏRİ

Azad edək ....................97
Apar məni ....................98
Anarım ....................100
Gözəl Sona ....................101
Tanınmaz olub ....................102
İsak Hanuk məktəbi ....................104
Qovulanda düşmənlər ....................105
Səbinə nəvəm ....................106
Şanel qızım ....................108

SİMAX ŞEYDA

# QÜRBƏTDƏN GƏLƏN SƏSLƏR

*(Şeirlər)*

**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Operatoru və kompüter tərtibatçısı:** *Aygün Əsgərova*

**Yığılmağa verilmiş 15.08.2012**
**Çapa imzalanmış 25.08.2012**
**Həcmi 14 ç.v. Sayı 300**
**«Zərdabi LTD» MMC**
**Tel.: (012) 514-73-73**
**Mob.: (050; 055) 344-76-01**
**E. poçt.: zərdabi_em@mail.ru**

Симах Шејда

# ГҮРБӘТДӘН КӘЛӘН СӘСЛӘР

БАКЫ-2012

**Редактору:** **Муса Әләкбәрли**

Симах Шејда «Гүрбәтдән кәлән сәсләр», Бакы «Зәрдаби ЛТД» 2012, 224 сәһ.

*Симах Шејда ијирмидән артыг китабын мүәллифи олан танынмыш Азәрбајчан шаиридир. Өзү даг јәһудиси олса да севимли Азәрбајчан дилиндә јазыб-јарадыр, јери кәлдикчә поезијамызын ән јахшы нүмунәләрини јәһуди дилинә чевирир вә бу дилин васитәси илә дүнјаја чыхарыр. Һал-һазырда Алманијада јашајан шаирин бу китабына онун гүрбәт һавалы шеирләри дахил едилмишдир.*

Ш $\frac{4705120494 57}{0103-2012}$

© Симах Шејда, 2012

# ГҮРБӘТДӘН КӘЛӘН СӘСЛӘР

Азәрбајчан әдәбијјатына ушаг шеирләри илә кәлән Симах Шејда һәм дә бөјүкләр үчүн јазылан шеирләри вә гәзәлләри илә охучулара јахшы танышдыр. Бу китабын әлјазмаларыны охујанда көрдүм ки, бурадакы шеирләрин бөјүк бир һиссәси Бакыда чыхан гәзет вә журналларда чап олунмуш, кичик бир гисми исә һәлә ишыг үзү көрмәмишдир. Артыг 15 илдән чохдур ки, о, Азәрбајчандан узагларда јашајыр вә орада кечән күнләрини, даһа доғрусу илләрин јазыб-јаратмаг ешги илә кечирир.

С.Шејданын «Гүрбәтдән кәлән сәсләр» китабы бир нечә һиссәдән ибарәтдир. «Гүрбәт шеирләри», «Шеирләр», «Гәзәлләр» вә «Ушаг шеирләри»; Шаирин гүрбәт шеирләрини охујанда ачыг-ајдын һисс едирсән ки, онун үрәји даим көзүнү ачдығы, боја-баша чатдығы Азәрбајчан торпағына мәһәббәт илә долудур. О, һал-һазырда јашадығы Алманијада өзүнү Азәрбајчансыз һисс етмир, фүрсәт дүшән кими Бакыја кәлир вә гәләмә алдығы шеирләрини китаб һалында бурахдырыр.

Вәтәнә олан мәһәббәтини, дујғуларыны шаир гәзәлләринин бириндә белә тәрәннүм едир:

Дүшдүм вәтәндән узаг, гүрбәтдәјәм, гүрбәтдә
Чәкирәм гүссә, фәраг, гүрбәтдәјәм, гүрбәтдә.

Даим дүшүр јадыма Азәрбајчан торпағы,
Нечә јурд, нечә очаг, гүрбәтдәјәм, гүрбәтдә.

Һачыкәндин, Көјкөлүн һавасына һәсрәтәм,
Һардасан, ај Хошбулаг, гүрбәтдәјәм, гүрбәтдә?

Ләнкәрандан, Көјчајдан, Оғуздан јох хәбәрим,
Чыраггала, Дәлидағ гүрбәтдәјәм, гүрбәтдә.

Сәфалы Губадандыр исми пүнһаным мәним,
Чанымдыр о Күлјанаг, гүрбәтдәјәм, гүрбәтдә.

Симах вәтән һәсрәти чәкә-чәкә гочалыр,
Јазмагдан галмыр анчаг, гүрбәтдәјәм, гүрбәтдә.

Јери кәлмишкән гејд едәк ки, вәтән вә ел мәһәббәти сафлыг вә сәдагәт С.Шејданын јарадычылығынын ана хәттини тәшкил едир. О, Азәрбајчана гырылмаз телләр илә бағлыдыр. Шаир Шаһдағы вә Кәпәзин әтәкләриндән ахан сәрин булаглары, көз ишләдикчә узанан гозлу, фындыглы вә шабалыдлы мәшәләри, кениш дүзләри бөјүк мәһәббәтлә тәрәннүм едир. Онун үчүн вәтән ешги һәр шејдән мүгәддәс вә үлвидир. Инсан чөрәксиз вә һавасыз јашаја билмәдији кими вәтәнсиз дә јашаја билмәз. Көз ачдығы ел-обаја бағлылыг Симахын шеирләриндән гырмызы бир хәтт кими кечир. Бу шаирин гүрбәт шеирләриндә даһа чох һисс олунур. «Дүшмүшәм» шеиринин бир јериндә охујуруг:

Ана вәтән, әф ет мәни, бағышлы,
Бахма мәнә башга көзлә, бахышла,
Јола дүшүб бир күн гарла, јағышла
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

Јохдур сөзүм һавасына гүрбәтин,
Чана олан сәфасына гүрбәтин,
Оғузумун һеј чәкирәм һәсрәтин,
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

Шаир шеиринин башга бир бәндиндә гүрбәтә кәлиб дүшдүјүнүн сәбәбини өзүнүн хәстәлији илә әлагәдар олараг белә јазыр:

Көзүм сечир даим писдән јахшыны,
Гәлбим севмәз һәр наданы, нашыны.
Атмаг үчүн хәстәлијин дашыны,
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

Вәтәнинин бир һиссәси олан Гарабағ торпагларынын ишғалы илә бағлы С.Шејда истәр ушаглар, истәрсә дә бөјүкләр үчүн бир сыра шеирләр јазмышдыр. Онун «Азад едәк», «Апар мәни», «Хочалы», «Говуланда дүшмәнләр», «Гарабағ» вә бир сыра шеирләри бу мәсәләјә һәср олунмушдур. О, инаныр ки, кеч-тез дүшмән әлиндә галан Азәрбајчан торпаглары азад олачаг, гачгын вә көчкүнләр өз јурд-јуваларына гајыдачаглар. Шаир сабаһкы күнә үмидлә бахараг рүбаиләринин бириндә јазыр:

Чох да севинмәсин дејин әғјара,
Гара палтарыны гојсун ашкара.
Бу күн, сабаһ Шуша азад олачаг,
Јенә кејинәчәк ону дүбара.

Үмумијјәтлә С.Шејданын сон илләрдә гәләмә алдығы рүбаиләри инсан дујғулары вә һиссләрини охшајан әсил поезија нүмунәләридир.

Онун поезијасында Гарабағ дәрди дә вар, Тәбриз һәсрәти дә. Бакы-Тбилиси-Чејһан нефт кәмәринин чә-килмәсиндән доған севинч һиссләри дә, шаирин Исраил һәјатындан бәһс едән шеирләри дә чохдур.

Сон илләр көзләриндә јаранан проблемлә әлагәдар олараг Алманијада јашајан шаирин бу јерин һәјатындан јаздығы бир сыра шеирләри дә мараглыдыр.

С.Шејданын президент Илһам Әлијевин сәрәнчамы илә 2010-чу илдә Оғуздан Бакыја чәкилән ичмәли сујун

пајтахта кәтирилмәси мүнасибәти илә јаздығы шеири дә илһамла гәләмә алынмышдыр.

«Гүрбәтдән кәлән сәсләр» китабыны охујаркән сиз бурадакы рүбаиләрә диггәт един, хүсуси илә бу рүбаијә:

Дағларын башына думан, гар кәләр,
Күман вар көрүшә бу күн јар кәләр.
Јер үзү нә гәдәр кениш олса да,
Гүрбәтдә инсана дүнја дар кәләр.

Көрүрсүнүзмү гүрбәтдә јашамаг нә гәдәр чәтин вә чансыхычыдыр. Симах мүәллим өз фикрини нә гәдәр көзәл ифадә етмишдир.

Китабдакы «Мүшфигин хәтринә» шеири дә илһамла гәләмә алынмышдыр. Шаирин бу шејри бәзи чызма-гара шеирләр јазан шаирләрә бир чаваб кими сәсләнир.

Бөјүк шаир М.Мүшфиг демишкән:

Шаирә илһамдан маја кәрәкдир,
Анасыз ушаға дајә кәрәкдир.
Шаирәм сөјләјир јериндән дуран,
Адамын үзүндә һәја кәрәкдир.

Мәлумдур ки, сон вахтлар шеир јазанларын сајы күндән-күнә артыр һәр әлинә гәләм алан «мән шаирәм» дејир. Шеирин бир јериндә охујуруг.

Әбү-Үлла Кәнчәви, Низамидән бу јана,
Чох шаирләр кәлибдир јер үзүнә, чаһана.
Дүрлү-дүрлү шеирләр алмыш гәләмә онлар
Сәс салмыш јер үзүнә бүтүн аләмә онлар.
«Хәмсә» бир мәктәб олмуш илләр боју инсана,
Диггәт ејлә, шаир кәл, шеиринин һәр сәтринә,
Дүнјадан накам кедән Мүшфигимин хәтринә.

Китабда ејни заманда шаирин бир нечә севки шеирләри дә јер алмышдыр. Мүхтәлиф илләрдә чап олунмуш бу шеирләр ахычы вә рәвандыр. Онун «Кәнчәли гыз», «Јағыр», «Бир көзалтым вардыр», «Бирчә назын олмајајды» вә бир сыра шеирләриндән көрүнүр ки, шаир һәлә кәнчлик илләриндән башлајараг мәһәббәт шеирләри јазмаға башламышдыр. Инди дә о, өмрүнүн аһыл вахтларында ара-сыра белә шеирләр јазыр. «Севки шеирләри јазырсан нијә» шеири бу чәһәтдән мараглыдыр. Шаирә суал верән көзәлләрдән бири сорушур:

Кәнчлик илләрини салмысан јола,
Дөнмәз чаванлығын бир даһа дала,
Истәр чағыр ону, истәр һарајла,
Галарсан јолларда көз дөјә-дөјә,
Севки шеирләри јазырсан нијә?

Әлбәттә, шаирин јаздығы шеирләрдә үлви мәһәббәтдән, тәмиз севкидән сөһбәт кедир. Анчаг әслиндә севән үрәк үчүн јаш мәһдудијјәти јохдур. Инсан өмрүнүн кәнчлик, чаванлыг, һәтта аһыл чағларында да севә биләр. Шаирин суал верән көзәлә чавабына да диггәт јетирәк:

Дедим: -Низамини көтүр варагла,
Бөјүк Фүзулини оху марагла,
Вагифи, Закири јадында сахла,
Бир кимсә олубму онлара дејә,
Севки шеирләри јазырсан нијә?

Мәлум олдуғу кими С.Шејданын 4 китаб гәзәлләри дә ишыг үзү көрүбдүр. Бурадакы шеирләрин әксәријјәти мәһәббәт шеирләридир. Бу гәзәлләри охујан һәр бир кәс јахшы билир ки, ешг вә мәһәббәт ојун-ојунчаг дејил, аилә гуран о инсан хошбәхт олур ки, гәлбиндәки севки

дујғулары саф, тәмиз вә бир-биринә гырылмаз телләрлә бағлы олсун. Шаир демишкән:

Ешг сазыны чала-чала гочалдым,
Јар гадасын ала-ала гочалдым.

«Гүрбәтдән кәлән сәсләр» китабында ејни заманда С.Шејданын бәзи ушаг шеирләри дә вардыр. Бурадакы шеирләр өз садәлији, ојнаглығы, дадлы-дузлу дејим тәрзи илә бир-бириндән фәргләнир. Балача охучулар бу шеирләри охујаркән истәр-истәмәз фикирләшмәјә башлајыр, үрәјә јатымлы мисралары бир-ики дәфә охујан кими әзбәрләјә билирләр.

Түкәнмәз сәнәт ешги, вәтән севкиси илә Азәрбајчан торпағына бағлы олан С.Шејданын һәм дә китабда бир нечә гәзәлләри дә верилмишдир.

2011-чи илдә С.Шејданын 75 јашы тамам олмушдур.

Онун Бакыда, Губада, Нју-Јоркда вә Тәл-Әвив шәһәрләриндә јубилеји кечирилмишдир. Кәлин гүрбәтдә вәтән һәсрәти илә јашајан, јени-јени шеирләри илә Азәрбајчан мәтбуатында тез-тез чыхыш едән Симах Шејдаја мөһкәм чансағлығы вә јарадычылығында јени-јени уғурлар арзулајаг.

*Вагиф Әлијев*
*Азәрбајчан Јазычылар Бирлијинин үзвү*

# ДҮШМҮШӘМ

Ана вәтән, әф ет мәни бағышла,
Бахма мәнә башга көзлә, бахышла,
Јола дүшүб бир күн гарла, јағышла,
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

Јохдур сөзүм һавасына гүрбәтин.
Чана олан чәфасына гүрбәтин.
Оғузумун һеј чәкирәм һәсрәтин,
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

Азәрбајчан! Гәлбимдәсән һәр заман,
Әзиз адын чыхмаз һеч вахт јадымдан,
Од көтүрүб исинирәм одундан,
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм

Бу јерләрин гышы гышды, јајы јај,
Күл-чичәкли бағларына олмаз тај,
Күндүз күнәш охшар мәни, кечә ај,
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

Көзүм сечир даим писдән јахшыны,
Гәлбим севмәз һәр наданы, нашыны,
Атмаг үчүн хәстәлијин дашыны,
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

Симах Шејда вәтән ешги мүәгәддәс,
Гүрбәт елдә Бакы, Кәнчә дејиб кәз.
Ај Шаһдағы, көзәл Көјкөл, Хан Кәпәз
Кәлиб сәндән узаглара дүшмүшәм,
Көрмәдијим торпаглара дүшмүшәм.

*Март, 2011*
*Алманија, Мүнһен*



## КҮЛӘКЛӘР

Вәтәндәнми учмусунуз бу јурда,
Кәзирсиниз башым үстә күләкләр?
Сиз атлыысыз, мән исә бир пијада,
Көз нурсуздур, үрәк хәстә, күләкләр.

Әсин, әсин сачларымы дарајын.
Јахамы да, ачын јери кәләндә.
Мән гәрибиби ахтарын, сиз, арајын
Узаглардан һәр јол бәри кәләндә.

Мәлһәм олур ел һавасы дејирләр,
Гәриб елдә һәсрәт чәкән инсана.
Үрәкләрә вар сәфасы дејирләр,
Аман вермәз о, нискилә, һичрана.

Мән вәтәнли вәтәнсизәм бу јердә,
Әлим чатмыр бир кимсәјә, бир кәсә.
Јетим-јетим долашырам шәһәрдә.
Әһвалымы бир соран јох нәдәнсә.

Бәлкә мәнә кәтирмисиз шад хәбәр,
Гарабағдан о сәфалы мәкандан.
Азадлыға чыхыбмы ај күләкләр
Көзәл Шуша, көзәл Лачын, Зәнкилан.

Јохса јенә кәлиб кедир адамлар,
Дүшмән гачыр о вердији сөзүндән?
Ширин-ширин сөһбәт едир адамлар,
Разы галыр һәр кәс өзү-өзүндән.

Симах Шејда бир Аллаһа архалан.
Јох олачаг гәлбинин гәм, кәдәри.
Күр кими ах, Хәзәр кими чалхалан,
Гошул әсән күләкләрә дөн кери.

*26.03.2011*

## ГӘРИБ АХШАМЛАР

Ганадлы атлары миниб чапмысыз,
Өмрүн аһыл вахты мәни тапмысыз,
Хәјаллар әландә галмышам јалгыз,
Дөјүр пәнчәрәми һәрдәм јағыш, гар
Ај гәриб ахшамлар, гәриб ахшамлар.

Гәриблик әлиндә галмышам әсир,
Пас атан гандаллар әлими кәсир,
Башымын үстүндә дуруб мүнтәзир,
Гојмурсуз үзүмә күлсүн шән баһар,
Ај гәриб ахшамлар, гәриб ахшамлар.

Бахырам Мүнһендән вәтәнә сары,
Һәр јолдан кечәнә, өтәнә сары,
Бағрыма басырам уча дағлары,
Чәкмәјим Бакычүн бунча интизар,
Ај гәриб ахшамлар, гәриб ахшамлар.

Истәрәм Гарабағ елиндә олум,
Дүшсүн Хочалыја, Шушаја јолум,
О, көзәл јерләрә бир дә вурулум
Охшасын руһуму јенә гавал, тар,
Ај гәриб ахшамлар, гәриб ахшамлар.

Динлә мәни гачгын, көчкүн гардашым,
Нечин кәдәрлисән, нечин гардашым.
Талејин кәләчәк бир күн гардашым,
Јаначаг һәр јердә лампалар, шамлар.
Ај гәриб ахшамлар, гәриб ахшамлар.

Симах, башына дөн ана вәтәнин,
Онсуз үзүн күлмәз һеч заман сәнин,
Оғуздур, Кәнчәдир јурдун, мәскәнин.
О көзәл јерләри көнлүн саламлар.
Aj гәриб ахшамлар, гәриб ахшамлар.

*Апрел, 2010*



## ИЗАР ЧАЈЫ

Сән нә Күрсән, нә дә Араз,
Изар чајы, Изар чајы.
Мән данышым, сән гулаг ас,
Изар чајы, Изар чајы.

Бу күн еркән ојанмышам,
Саһилиндә дајанмышам,
Сәни мәнә дост санмышам,
Изар чајы, Изар чајы.

Хејли вахтдыр гүрбәтдәјәм.
Дәрддә, гәмдә, һәсрәтдәјәм,
Гәлб евимдән бир хәстәјәм.
Изар чајы, Изар чајы.

Сән дә даим сәфәрәсән,
Нечә кәнддә, шәһәрдәсән,
Мәним кими дәрд-сәрдәсән.
Изар чајы, Изар чајы.

Кәл бир јердә јаш ахыдаг,
Бир-биринә һәмдәм олаг,
Нә дил билсин, нә дә додаг.
Изар чајы, Изар чајы.

Гәлбимә ах, ју дәрд, гәми,
Овундур кәл үрәјими,
Көрүнмәјим гәриб кими,
Изар чајы, Изар чајы.

Истәр баһар, ја гыш олсун,
Вәтәнимә дүшсә јолун,
Дејнән сағдыр шаир оглун,
Изар чајы, Изар чајы.

*Март, 2011*

## А БҮЛБҮЛҮМ

Охујурсан сәһәр-сәһәр,
Сәсиндә вар гүссә, кәдәр,
Ган-јаш төкмә кәл бу гәдәр,
Етмә фәган, а бүлбүлүм.

Мәним јурдум Азәрбајчан,
О сәфалы көзәл мәкан,
Бәс сән һансы дијардансан?
Ағлама чан, а бүлбүлүм.

Гүрбәт елдә күлмр үрәк,
Кәдәрлијәм мән дә сән тәк,
Гәрибликдә күн кечирмәк,
Дејил асан, а бүлбүлүм.

Гәмли тапар гәмлисини,
Даим көзү нәмлисини,
Гучуб ағлар өз дизини,
Заман-заман, а бүлбүлүм.

Ајрылығын үзү гара,
Ағыр дәрдә олмаз чара,
Кәлиб чыхдым һардан-һара,
Күлләм һачан, а бүлбүлүм

Симах Шејда илдән-илә,
Јашар вәтән ешги илә,
Шеир јазар доғма елә.
Чәкәр һичран, а бүлбүлүм.

*30.03.2011*

## ЗОҒАЛ АҒАЧЫ

Тез-тез бу јерләрдә көрүрәм сәни,
Јадыма салырсан анна вәтәни,
Сәфалы Губаны, көзәл Кәнчәни,
Мејвән үрәкләрин мин бир әлачы,
Ај зоғал ағачы, зоғал ағачы.

Јел әсир тәрпәдир будагларыны,
Төкүр торпаг үстә јарпагларыны,
Танымыр инсанлар бурда барыны.
Мејвән үрәкләрин мин бир әлачы,
Ај зоғал ағачы, зоғал ағачы.

Јохса мәним кими сән дә гәрибсән,
Исти јурд-јувандан бура кәлибсән,
Јолларда, бағларда салмысан мәскән,
Мејвән үрәкләрин мин бир әлачы,
Ај зоғал ағачы, зоғал ағачы.

Сачаглы сүфрәләр ачылан заман,
Ортаја чај кәлиб ичилән заман,
Зоғал мүрәббәси чыхармы јаддан?
Мејвән үрәкләрин мин бир әлачы,
Ај зоғал ағачы, зоғал ағачы.

Билирәм үрәкдә интизарын вар,
Сајылмамаг кими гәм, гүбарын вар,
Гүрбәтдә јашајан тез јаддан чыхар.
Мејвән үрәкләрин мин бир әлачы,
Ај зоғал ағачы, зоғал ағачы.

Ај Симах, јаз-јарат унут һәсрәти,
Чыхарт хатириндән дәрди, мөһнәти
Сәни јашадачаг ел мәһәббәти,
Мејвән үрәкләрин мин бир әлачы,
Ај зоғал ағачы, зоғал ағачы

*20.03.2011*



# ГҮРБӘТ РҮБАИЛӘРИ

## 1

Доғма вәтән һара, гүрбәт ел һара,
Вәтәни һәр заман ахтарыб ара,
Бахырам һәсрәтлә, интизар илә,
Гүрбәтдән вәтәнә кедән јоллара.

## 2

Гајыдыб кәлмишди бири гүрбәтдән,
Севинч јашларыны төкүрдү дән-дән.
Үзүнү сүртүрдү даша, торпаға,
Дејирди: – имана кәлдим, ај вәтән.

## 3

Лачивәрд көјләрдә булуд олајдым,
Һәрдән бошалајдым, һәрдән долајдым.
Бир хејрим дәјәјди елә мәним дә,
Вәтән торпағында өлүб галајдым.

## 4

Дағларын башына думан, гар кәләр,
Күман вар көрүшә бу күн јар кәләр.
Јер үзү нә гәдәр кениш олса да,
Гүрбәтдә инсана дүнја дар кәләр.

## 5

Гәлбимдә бәсләрәм ана вәтәни,
Сәфалы Бакыны, көзәл Кәнчәни,
А гүрбәт кәл мәнә биканә бахма,
Вәтән тәк истәјә билмәрәм сәни.

### 6

Нә вар, нә дә дөвләт һәсрәтиндәјәм,
Нә дә ки, шан-шөһрәт һәсрәтиндәјәм.
Вәтәндә јашамаг, вәтәндә өлмәк,
Бир белә сәадәт һәсрәтиндәјәм.

### 7

Ајрылыг һәсрәти чәкәндән бәри,
Ағлајыб көз јашы төкәндән бәри,
Хәјал гатарына миниб кәзирәм,
Һәр күн сејр едирәм доғма елләри.

### 8

Ај күләк, баһардыр мәһәббәтлә әс,
Верир лалә, нәркиз үрәјә һәвәс,
Кәтир кәл гүрбәтә вәтән әтрини,
Сонра башым үстә ифтихарла әс.

### 9

Узагда олсам да өз ел-обамдан,
Бакыдан, Кәнчәдән, көзәл Губамдан,
Билмирәм ајрылыг, интизар нәдир
Чүнки гәлбимдәдир вәтән һәр заман.

### 10

Гүрбәтдә сордулар бир ихтијардан,
Нечин кәдәрлисән һәр вахт, һәр заман?
Сөјләди севиниб күләрми дејин,
Ел-оба һәсрәти чәкән бир инсан?

**11**

Вәтән ешги илә јанар үрәјим,
Ону сәһәр-ахшам анар үрәјим,
Һаггыны һәр шејдән уча тутмасам,
Зәһримара дөнәр дузум, чөрәјим.

**12**

Гүрбәтдә бир евә кетмишдим дүнән,
Бир «Бакы» таблосу көрдүм орда мән,
Елә бил јенидән кәлдим дүнјаја,
Бүтүн Азәрбајҹан кечди көзүмдән.

**13**

Кечсә дә күнләрим тојда-дүјүндә,
Күмраһ көрүнсәм дә халгын көзүндә,
Јүз дәфә гүрбәтдән вәтән јахшыдыр,
Гар, јағыш үстүмә јағса да күндә.

**14**

Әнкин үфүгләрдә бир гуш олајдым,
Гүрбәтдән вәтәнә учмуш олајдым,
Гарабағ дүшмәндән азад оланда,
О гәдәр ичәјдим биһуш олајдым.

**15**

Һејранам Бакынын көзәллијинә,
Ачан чичәкләрин, күлүн әтиринә,
Кәнчәдә лаләли дүзләрдән кечсән,
Мәни дә хатырла Аллаһ хәтринә.

**16**

Чәкил көзләримдән думан, сис кими,
Долашма ортада бир хәбис кими,
Күндә нечә дәфә вәтән дејирсән.
Кәзирсән вәтәндә вәтәнсиз кими.

**17**

Дөјсә јағыш мәни, дөјсә гар мәни,
Гүрбәтдә инчитсә интизар мәни,
Вәтән мәһәббәти, ел мәһәббәти,
Һәр дәрддән, бәладан сахлајар мәни.

**18**

Кәзирдим Изарын саһилиндә мән.
Бир дәстә гуш учду јаныма бирдән,
Сорушдум бу севинч нәдир? Дедиләр,
Салам кәтирмишик сәнә вәтәндән.

**19**

Дүшсән гәриблијә гәрибәм демә,
Талеһдән инчијиб гәм, гүссә јемә,
Билирәм ағырдыр гүрбәтин дашы,
Атылан һәр даша сән бојун әјмә.

**20**

Бир чәрхи - фәләјин дүшсән әлинә,
Сәни һәсрәт гојар доғма елинә,
Тәк-тәнһа галарсан хәјалларынла,
Алмаз бир кимсә дә сәни ејнинә.

## 21

Бизим ел-обаја бәнзәр бу јерләр,
Хачмаза, Губаја бәнзәр бу јерләр,
Севдалы гәлбимдә, хәјалларымда,
Ганадлы гуш кими кәзәр бу јерләр.

## 22

Силин лүғәтләрлән гүрбәт сөзүнү,
Интизар сөзүнү, һәсрәт сөзүнү,
Гәм, гүссә инсаны вахтсыз гочалдар,
Гојмаз ки, һәјата ачсын көзүнү.

## 23

Јухуда көрдүм ки, Гарабағдајам,
Даһиләр јетирән бир торпагдајам,
Шуша да, Лачын да сөјләјир мәнә.
Һарада галмысыз дар ајагдајам.

## 24

Гүрбәтә кәлмишди бири вәтәндән,
Күлмүрдү кишинин үзү һәсрәтдән.
Вәтәнини һалыны хәбәр алырды
Һәр јолдан кечәндән, кәлиб – кедәндән.

## 25

Дүшмән, чәк әлини Шуша, Лачындан,
Чох данышма торпаг еһтијачындан.
Бары абыр ејлә, һәја ејлә кәл,
Бојнуна асдығын дәмир хачындан.

**26**

Бир гәмли сорушду, башга гәмлидән,
Үрәји кәдәрли, көзү нәмлидән:
- Гүрбәтдә јашамаг нә верди сәнә,
Инди һеј дејирсән вәтән, чан вәтән?

**27**

Гүрбәтдә бир достдан сорушдум: - Гардаш,
Сәнин бу күнүнү көрмәјәјдим каш.
Дилләнди: -Сән мәндән јахшысан мәкәр?
Сәнин дә көзүндә аз көрмәдим јаш.

**28**

Гүрбәтдә Шушаны тез-тез анырам.
Онун ешги илә аловланырам.
Дејирәм јәгин ки, јанғым сөнәрди
«Иса булағындан» ичсәјдим бир чам.

**29**

Күләкли бир күндә, бир илк баһарда,
Фикирли кәзирдим гүрбәт дијарда.
Бир таныш јанашыб сөјләди мәнә:
-Көр бизи гәм-гүссә һаглады һарда.

**30**

Һаны Шушам мәним, Хочалым мәним,
Фүзули, Лачын тәк һилалым мәним.
Ијирми илдир ки, көрә билмирәм,
Бир дастана сығмаз бу һалым мәним.

## 31

О күн ки, дүшдүм мән вәтәндән узаг,
Оғуз тәк, Кәнчә тәк күлшәндән узаг.
Севинчим, фәрәһим, тәрк етди мәни.
Инди чох мүшкүлдүр онлары тапмаг.

## 32

Чох да севинмәсин дејин әғјара
Гара палтарыны гојсун ашкара.
Бу күн, сабаһ Шуша азад олачаг.
Јенә дә кејәчәк ону дүбара.



# МӘЛҺӘМИМ МӘНИМ

Гәриб ахшамларын гәриблијиндә
Хәјаллар олубдур һәмдәмим мәним.
Күлүр көзләриндә сәма да, јер дә.
Јохдур үрәјимдә бир гәмим мәним.

Кәзирәм Бакыны, Губа, Хачмазы.
Мәнә кәл, кәл дејир Газахын гызы,
Динир Әдаләтин сәдәфли сазы.
Башга бир аләмдир, аләмим мәним.

Кедирәм Кәнчәдән дағлара сары,
Лаләли дүзләрә, бағлара сары,
Јенә сејр едирәм гарлы Гошгары.
Кәзир ағ варагда гәләмим мәним.

Гәриблик гәлбими инчидир һәрдәм,
Гојмур илһам алым һәр бир сәһәрдән.
Бојланыр гаранлыг гәринәләрдән,
Фәрһадым, Шириним, Кәрәмим мәним.

Симах, вәтән ешги охшар үрәји,
Балдан ширин олур дузу, чөрәји,
Бу көзәл торпағын де јохдур нәји?
Сују, һавасыдыр мәлһәмим мәним.

## СЕВКИ ШЕИРЛӘРИ ЈАЗЫРСАН НИЈӘ?

*Ешгидир меһрабы уча көјләрин,*
*Ешгисиз еј дүнја нәдир дәјәрин.*
*Ешгисиз олсајды хилгәтин чаны,*
*Дирилик сармазды бүтүн дүнјаны.*

**(Низами)**

Сөһбәт ејләјирдим бир көзәл илә,
Бир чејран бахышлы инчәбел илә,
Чатыб гашларыны о күлә-күлә,
Сөјләди: - һәр гыза, һәр күлүзлүјә.
Севки шеирләри јазырсан нијә?

Кәнчлик илләрини салмысан јола,
Дөнмәз чаванлығын бир даһа дала,
Истәр чағыр ону, истәр һарајла.
Галарсан јолларда көз дөјә-дөјә,
Севки шеирләри јазырсан нијә?

Чох көзәлләр көрдүн бу јашында сән.
Баш әјдин онларын гаршысында сән,
Инди ки, өмрүнүн сәрт гышындасан,
Бәсдир бундан сонра бахма өзкәјә,
Севки шеирләри јазырсан нијә?

Чананлар ешгијлә јанмагдан дашын,
Онлары јад едиб анмагдан дашын,
Гәләми гој јерә ајылсын башын,
Јол вермә гәлбиндә һәр бир кимсәјә,
Севки шеирләри јазырсан нијә?

Көрүрәм гүрбәтдә һәсрәт чәкирсән,
Интизар чәкирсән, мөһнәт чәкирсән,
Вәтән ешги илә чошуб чағла сән,
Бахма нә кәдәрә, нә бир гүссәјә,
Севки шеирләри јазырсан нијә?

Дедим: - Низамини көтүр варагла,
Бөјүк Фүзулини оху марагла,
Вагифи, Закири јадында сахла,
Бир кимсә олубму онлара дејә,
Севки шеирләри јазырсан нијә?

Ешглә, мәһәббәтлә долудур синәм,
Назлы көзәлләрин јолудур синәм,
Илһамым кәләндә суса билмирәм,
Мәкәр демәк олар севән үрәјә,
Севки шеирләри јазырсан нијә?

Севки мүгәддәсдир, севки әзиздир,
О, үлви көјләр тәк сафдыр, тәмиздир,
Јатаға сығмајан чошғун дәниздир,
Демә һеч кимә сән чүрәт ејләјә,
Севки шеирләри јазырсан нијә?

*Ијул, 2012*

## САЛАМ, ТӘБРИЗ

Илләр илә һәсрәтини чәкмишәм,
Һәсрәтини, мөһнәтини чәкмишәм,
Бир гуш олуб торпағында сәкмишәм,
Салам Тәбриз, салам Тәбриз салам һеј!
Севинчиндән лал олмушам, лалам һеј!

Кәзиб кәлдим Әрдәбили, Зәнчаны,
Синды бир аз үрәјимин һәјчаны,
Гој мән олум көзләринин гурбаны,
Салам Тәбриз, салам Тәбриз салам һеј!
Сәнсиз валлаһ мән саралыб соллам һеј!

Гисмәт олду кәлдим сәни кәзмәјә,
Әлван-әлван күлләрини үзмәјә,
Назлы јарын јолларында дүзмәјә,
Салам Тәбриз, салам Тәбриз салам һеј!
Булуд кими мән бошалыб долам һеј!

«Һејдәр баба» сәнә көнүл бағладым,
Охудугча чајлар кими чағладым,
Шәһријары јада салыб ағладым,
Салам Тәбриз, салам Тәбриз, салам һеј!
Бир лајлај чал, сөјлә лајлај балам һеј!

Дүнја күлүр көзләримдә нә дәрдим,
Дост бағындан чичәк үздүм, күл дәрдим,
Сәндә кәзир Бәһмән ағам, Әһәдим.
Салам Тәбриз, салам Тәбриз салам һеј!
Әлә дүшмәз бир дә белә мәгам һеј!

Симах Шејда көрдү сәни дирилди.
Һәсрәитинлә јол кәлирди јүз илди,
Өпмәк үчүн торпағына әјилди,
Салам Тәбриз, салам Тәбриз салам һеј!
Истәјирәм бурда өлүб галам һеј!

*Бакы, 1993*



# ГАРДАШЫМ

*Шејхүлислам Аллаһшүкүр Пашазадәнин*
*60 иллији мүнасибәтилә*

Күл-чичәкли Ләнкаранда доғулдун,
Чох сәфалы бир мәканда доғулдун,
Милјон-милјон инсанлара шејх олдун,
Аллаһшүкүр Пашазадә гардашым,
Ај меһрибан, гәлби садә гардашым.

Анан сәндә динә инам бәсләди,
Шејхүлислам дүнјасына сәсләди,
Һагга олан инамыны кәсмәди,
Аллаһшүкүр Пашазадә гардашым,
Ај меһрибан, гәлби садә гардашым.

Мәһәббәтлә охујурсан Гураны,
Ибадәтә чағырырсан инсаны,
Шан-шөһрәтин тутуб бүтүн чаһаны,
Аллаһшүкүр Пашазадә гардашым,
Ај меһрибан, гәлби садә гардашым.

Үрәјиндә Аллаһтала ешги вар,
Бу ешг сәнин јолларына нур сачар,
Истәрәм ки, өмрүн олсун бәхтијар,
Аллаһшүкүр Пашазадә гардашым,
Ај меһрибан, гәлби садә гардашым.

Азәрбајчан сәнин шанын-шөһрәтин,
Билирәм вар Гарабағ тәк мөһнәтин,
Шәфа тапар көрән һачан бу дәрдин?
Аллаһшүкүр Пашазадә гардашым,
Ај меһрибан, гәлби садә гардашым.

Симах Шејда һүзурунда баш әјир,
Сәнә хошбәхт узун өмүр диләјир,
Үрәкләрин ифтихары ол дејир.
Аллаһшүкүр Пашазадә гардашым,
Ај меһрибан, гәлби садә гардашым.

*Декабр, 2009*



## БОЛГАР ГЫЗЫ

Һардан габағыма чыхдын бу сәһәр,
Кетмә, кетмә дајан, а болгар гызы?
Елә бил күн чыхды күлдү үфүгләр,
Нурланды асиман, а болгар гызы.

Биздә дә аз дејил көзәл сәнәмләр,
Валлаһ бир бахмагла үрәк вәрәмләр,
Азалар гүссәләр, јох олар гәмләр
Киминлә данышсан, а болгар гызы.

Вармы Күстелдилдә сәнин тәк көзәл?
Сән көзәл, күл көзәл, ја чичәк көзәл,
Һәр күн бу күчәјә бәзән, дүзән кәл,
Меһрибан, меһрибан, а болгар гызы.

Дағ дағa говушар инсан инсана,
Торпаг гар, јағышсыз кәләрми чана?
Ешгин гәлбимдәдир кетсән һајана,
Мәнәм естекадан, а болгар гызы.

Симахын көзүндә сән уча дағсан,
Чичәкли чәмәнсән, мејвәли бағсан,
Күнәшдән нурлусан, ајдан парлагсан,
Хошбәхт ол һәр заман, а болгар гызы.

*Софија, 1982*

## АШЫГ ЗҮЛФИЈӘЈӘ

Сән һәм охујурсан, һәм саз чалырсан,
Һәр елә, обаја сәда салырсан,
Халгын нәзәриндә һеј учалырсан,
Аj елләр ашығы, аj елләр гызы,
Чал телли сазынын кәлсин авазы.

Көзәл мәлаһәтли ширин сәсин вар,
Гәлбләрә руһ верән хош нәфәсин вар,
Сәни көзләр нечә тојлар, бајрамлар
Аj елләр ашығы, аj елләр гызы,
Чал телли сазынын кәлсин авазы.

Үрәкдән вурғунсан өз сәнәтинә,
Шеир сәнәтинә, сөз сәнәтинә,
Көрүм ки, дәјмәсин көз сәнәтинә.
Аj елләр ашығы, аj елләр гызы,
Чал телли сазынын кәлсин авазы.

Гошмајла, тәчнислә долудур синән,
Аббасдан, Алыдан дејирләр һәрдән,
Сән Аллаһ бир ағыз оху Валеһдән,
Аj елләр ашығы, аj елләр гызы,
Чал телли сазынын кәлсин авазы.

Зилин дә шириндир, бәмин дә ширин,
Ашыглар ичиндә вардыр өз јерин,
Тәбин чошғун дәниз, камалын дәрин,
Аj елләр ашығы, аj елләр гызы,
Чал телли сазынын кәлсин авазы.

«Озан» мәчлисинә верирсән һәјат,
Дәдәм Горгудун да руһу олур шад,
Ағ күнләр ешгилә, оху, јаз-јарат.
Ај елләр ашығы, ај елләр гызы,
Чал телли сазынын кәлсин авазы.

Көкләниб Симахын гәлби саз үстә,
Хошлар охујанда һәр боју бәстә,
Дөзүр гүрбәт елдә дәрдә, һәсрәтә.
Ај елләр ашығы, ај елләр гызы,
Чал телли сазынын кәлсин авазы.

*3 август, 2012*



## МҮШФИГИН ХӘТИРИНӘ

*(Бәзи шаирләрә)*

Әбү-Үлла Кәнчәви, Низамидән бу јана,
Чох шаирләр кәлмишди бу дүнјаја, чаһана,
Дүрлү-дүрлү шеирләр алмыш гәләмә онлар,
Сәс салмыш јер үзүнә, бүтүн аләмә онлар,
«Хәмсә» бир мәктәб олмуш, илләр боју инсана
Диггәт ејлә, шаир кәл шеиринин һәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

Гәләм алыр әлинә һәр чаван, гоча бу күн,
Шеир јазыр билмәјән гафијә, һеча бу күн,
Кәрајлыдан, тәчнисдән хәбәри олмајанлар,
Сөзләринин мәнасы, кәсәри олмајанлар,
Өзләрини өјүрләр, тутурлар уча бу күн,
Диггәт ејлә, шаир кәл шеиринин һәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

Нәсимини сојдулар дири-дири кафирләр,
Ағлатдылар ушаг тәк көјү, јери кафирләр,
Ики чаһан сығышар мәндә шаир сөјләди,
Мән исә бу чаһана сыға билмәрәм деди:
Ал гана гәрг етдиләр үрәкләри кафирләр,
Диггәт ејлә, шаир кәл шејринин һәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

Ләл, чәваһир дејилми Фүзули гәзәлләри?
Вәсф ејләди вәфалы назәнин көзәлләри,
Салам верди алмады саламыны мәмурлар,
Рүшвәт дејилди дејә гәбул етмәди онлар,
Лакин күн тәк нур сачды һәр јерә әмәлләри,
Диггәт ејлә, шаир кәл шеиринин һәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

Молла Пәнаh Вагиф дә јазды көзәл шеирләр,
Көзәлләрин ешгијлә нәфәс алды дејирләр,
Анчаг чаhан мулкундә бир hәгигәт көрмәди,
Нә көрду әјри көрду, өзкә hаләт көрмәди,
Үрәјини, гәлбини једи hәр күн гәм, кәдәр,
Диггәт ејлә, шаир кәл шеиринин hәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

Сатира аләминдә Сабир түғјан ејләди,
Зәманәнин зүлмүнә даим үсјан ејләди,
Чәhаләтдә јашамаг көрду нечә ағырдыр,
Халгы елмә, билијә, маарифә чағырды
hагг сәсисни аләмә јајды, бәјан ејләди.
Диггәт ејлә, шаир кәл шеиринин hәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

Апардылар Чавиди, бир күн Әhмәд Чаваду,
Өлүм олду, ган олду онларын мүкафаты.
Отуз јашлы Мүшфигин сусадылар ганына,
Дәрја тәбли шаирин гәсд етдиләр чанына.
Даим јашар гәлбләрдә онун шөhрәти, ады
Диггәт ејлә, шаир кәл шеиринин hәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

Сәмәд Вурғун, Шәhријар, Сүлејман, Рәсул Рза,
Шан-шөhрәтә јетишди, шеирләр јаза-јаза.
Јазды үрәк ганыјла «Күлүстаны» Бәхтијар,
Охуду көз јашыјла ону чаван, ихтијар.
Охша Нәби Хәзријә, охша Мәммәд Араза.
Диггәт ејлә, шаир кәл шеиринин hәр сәтринә,
Дүнјадан накам кетмиш Мүшфигимин хәтринә.

*Нју-Јорк-Мунhен*
*Октјабр, 2011*

## ЈАХШЫ АДАМЛАР

*Кәмаләддин Һејдәрова*
*итһаф едирәм*

Көјләрдәт парлајан улдуза бәнзәр,
Һатәм сәхавәтли јахшы адамлар.
Ады ағызларда, дилләрдә кәзәр,
Садә тәбиәтли јахшы адамлар.

Сағоллар, дуалар сахлар онлары,
Даһа да һәјата бағлыр онлары,
Гојмаз ки, һагласын гәм инсанлары,
Кәләчәк нијјәтли јахшы адамлар.

Зәһмәт дүнјасынын олар султаны,
Гојмаз ки, дәрд чәксин гоча, чаваны,
Севәр чаны кими Азәрбајчаны,
Вәтән мәһәббәтли јахшы адамлар.

Һачы Зејналабдин олар бириси,
Истәр тарихләрдә гала бириси,
Аләмә сәс-сәда салар бириси,
Вар олсун гејрәтли јахшы адамлар.

Симах јахшылары даим јад ејләр,
Чүнки үрәкләри онлар шад ејләр,
Һајыф аз тanылар, аз көзә дәјәр,
Јагутдан гијмәтли јахшы адамлар.

*Август, 2008-чи ил*

## БИР КӨЗАЛТЫМ ВАРДЫ МӘНИМ

Нечә дәфә бу јерләрдән кечмишәм,
Бу јерләрин буз сујундан ичмишәм,
Өзүмә бир назлы никар сечмишәм,
Даһа көзәл бир көзалтым вар мәним,
Илһам верир үрәјимә јар мәним.

Анам бундан хәбәр тутду биринчи,
Ашыб-дашды үрәјимин севинчи,
Јох арвадын раһатлығы, нә динчи,
Даһа көзәл бир көзалтым вар мәним,
Илһам верир үрәјимә јар мәним.

Бачыларым евимизә јығышды,
Гыз һаггында сорғу-суал гызышды,
Гоншу гызы бахыб мәнә гымышды,
Даһа көзәл бир көзалтым вар мәним,
Илһам верир үрәјимә јар мәним.

Симах, күлсүн субајларын чөһрәси,
Ширин олсун јар бағынын бәһрәси,
Бир улдуза дөнсүн көрүм һәрәси,
Даһа көзәл бир көзалтым вар мәним,
Илһам верир үрәјимә јар мәним.

## БАЧЫЛАР

*Мүғәнни Күлјанаг вә Күлјаз*
*бачыларына итһаф едирәм.*

Ширин-ширин охујурсуз һәвәслә,
Бүлбүл кими өтүрсүнүз хош сәслә,
Бу ешг илә, бу гәлб ачан һәвәслә,
Охујун сиз, охујун сиз бачылар,
Вәчдә кәлсин үрәјимиз, бачылар.

Сәсиниздә илк баһарын әтри вар,
Көнүлләрдә хош дујғулар ојадар,
Узаг дүшәр инсанлардан гәм, гүбар,
Охујун сиз, охујун сиз бачылар,
Вәчдә кәлсин үрәјимиз, бачылар.

Чана кәлир сәсинизлә чөл-чәмән,
Күнәш чыхар, итәр көздән думан, чән,
Күнләр кечир бир-бириндән даһа шән,
Охујун сиз, охујун сиз бачылар,
Вәчдә кәлсин үрәјимиз, бачылар.

Ганадлы бир гуш кимидир маһнылар,
Мин бир дәрдин мәлһәмидир маһнылар,
Онларда бир гәлб охшајан фүсун вар,
Охујун сиз, охујун сиз бачылар,
Вәчдә кәлсин үрәјимиз, бачылар.

Күндән-күнә, ајдан-аја учалын,
Јер үзүнә даһа да кур сәс салын,
Олун сәнәт дүнјасынын гарталы,
Охујун сиз, охујун сиз бачылар,
Вәчдә кәлсин үрәјимиз, бачылар.

Зејнәбдирми, Шөвкәтдирми Күлјанаг,
Дүнјаја бир зијнәтдирми Күлјанаг,
Күлјаз гыз да ишыг сачан бир мајак,
Охујун сиз, охујун сиз бачылар,
Вәчдә кәлсин үрәјимиз, бачылар.

Симах Шејда, ләл, көһәрдир көзәл сәс,
Гүрбәт елдә онсуз күнүн хош кечмәз,
Маһны илә, шеир илә ал нәфәс,
Охујун сиз, охујун сиз бачылар,
Вәчдә кәлсин үрәјимиз, бачылар.

*24 ијун, 2012*

## ЈАХШЫ КИ, ВАРСАН

*(«Гәриб ахшамлар» верилишинә бахаркән)*

Көрүрүк үзүнү һәфтәдә бир күн,
Чәкирик сәнинчүн һәсрәт, интизар,
Кәзир һәр бир евдә сөһбәтин, сөзүн,
Ај гәриб ахшамлар, гәриб ахшамлар.

Сән гәриб дејилсән-доғмасан доғма,
Илк күндән кәлишин долудур нурла.
Севинч бәхш едирсән һәр бир адама,
Кедирсән сабаһа бөјүк уғурла.

Чанлы бир көрпүсән билирик буну,
Вәтәнлә гүрбәтин арасында сән,
Хош күнә сәсләрсән инсан оғлуну,
Олмурсан дүнјанын һарасында сән?

Ширин-ширин динир, данышыр ешглә,
Ефирдән гүрбәтлә Јусиф Күнајдын.
Һәмишә инсаны кәтирир дилә,
Бөјүк мәһәббәтлә Јусиф Күнајдын.

Зәнк едиб Мүнһендән, көзәл Венадан,
Вәтәнин ешгилә кәлирик чана,
Диниб-данышырыг Украјнадан,
Гарабағ һалына һеј јана-јана.

Дејирәм дүнјанын ишинә бир бах,
Бир торпаг бөлүнүб көр нечә јерә,
Бир гисми дүшмәнин әлиндә дустаг,
Гачгыны, көчкүнү дүшүб чөлләрә.

Јахшы ки, дүнјада, чаһандә варсан,
Вәтәнин әтрини сәндән алырыг,
Дәрдли үрәкләри бир-бир охшарсан,
Өлкүн дујғулара сачырсан ишыг.

Һәр сәни көрәндә күлүр гәлбимиз,
Дүшүр јадымыза көһнә әјјамлар.
Әл-әлә веририк бирләширик биз,
Ај гәриб ахшамлар, гәриб ахшамлар.

*Мүнһен шәһәри,*
*Ијул, 2012*

## КИТАБЛАР

Јахын достум олмусунуз һәр заман,
Чыхартмырам һеч вахт сизи јадымдан,
Вердиз мәнә јени нәфәс, јени чан,
Ај мараглы, үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.

Ушаглыгдан сизи әлдән гојмадым,
Охудугча охумагдан дојмадым,
Тез-тез гачыб ојнамаға ујмадым,
Ај мараглы, үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.

Әввәл-әввәл нағыллара вурулдум,
Ағ атлы тәк оғуллара вурулдум,
Ел-обајла, халгла, чамаатла бир олдум,
Ај мараглы, үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.

Сиздә нечә әр инсанла көрүшдүм,
Бабәк илә, Газан ханла көрүшдүм,
Короғлу тәк гәһрәманла көрүшдүм,
Ај мараглы үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.

Көнүл вердим чох кәнч икән шеирә мән,
Чыхдым ушаг дүнјасыны сејрә мән,
Илһам алдым онларын шән сәсиндән.
Ај мараглы, үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.

Сизсиз өмрүм бир зүлмәтә дөнәрди.
Од-очағым вахтындан тез сөнәрди,
Илһам пәрим нә дил ачыб динәрди,
Ај мараглы, үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.

Чох гапылар ачмысыныз үзүмә,
Күч вермисиз сөһбәтимә, сөзүмә.
Сиз өзүмү гајтармысыз өзүмә,
Ај мараглы, үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.

Сизсиз Симах Шејданын вар-дөвләти,
Үрәјинин мәһәббәти, үлфәти.
Гојмурсунуз чәксин вәтән һәсрәти,
Ај мараглы үрәк ачан китаблар!
Јолларыма ишыг сачан китаблар.



## ОҒУЗ СУЈУ

*(Президент Илһам Әлијевин сәрәнчамы илә Оғуздан Бакыја су хәтти чәкилир)*

Баш көтүрүб, дағлардан,
Мешәләрдән, бағлардан,
Сәфалы јајлаглардан
Ах Бакыја буз сујум,
Ај мәним Оғуз сујум.

Мәлһәм ол үрәкләрә,
Ганад ол диләкләрә,
Күлүб-севинсин һәрә,
Ах Бакыја буз сујум,
Ај мәним Оғуз сујум.

Гәбәләни саламла,
Кеч јоллардан инамла,
Шамахыда ахшамла,
Ах Бакыја буз сујум,
Ај мәним Оғуз сујум.

Алгыш сәни чәкәнә,
Алын тәри төкәнә,
Шан-шөһрәт ол вәтәнә,
Ах Бакыја буз сујум,
Ај мәним Оғуз сујум.

*Ијун, 2008*

## ҮРӘЈИМДӘН КЕЧИРСӘН

Ај гыз, бөјүк мәһәббәтим вар сәнә,
Истәјирәм олум јахшы јар сәнә,
Бу күн- сабаһ, јај да кәлиб өтүшәр.
Бағ-бағчаја јағыш јағар, гар дүшәр.
Ешгимиздән бир шад хәбәр вер мәнә,
Заман кечир ејләмә чох фикир сән,
Күндүз јүз јол үрәјимдән кечирсән.

Сәндән башга һеч бир кәсдә көзүм јох,
Данышмаға сөһбәтим јох, сөзүм јох,
Анам дејир көнүл вер бир көзәлә,
Гојма јенә пајыз кечиб гыш кәлә,
Даһа мәндә көзләмәјә дөзүм јох,
Заман кечир ејләмә чох фикир сән,
Күндүз јүз јол үрәјимдән кечирсән.

Тезлик илә азад олар Гарабағ,
Гајыдарыг Хочалыја јенә бах.
Орада биз көзәл бир тој едәрик,
Һәр арзуја, һәр бир кама јетәрик,
Јашајарыг дамағы чағ, кефи чағ,
Заман кечир ејләмә чох фикир сән,
Күндүз јүз јол үрәјимдән кечирсән.

Анам сәни бир күн көрүб узагдан,
Хошу кәлиб сәнин тәк күл јанагдан,
Бачыларым һәр күн мәнә дејирләр,
Бәсдир евлән субај кәзмә бу гәдәр,
Габағымда ојнајыблар накәһан,
Заман кечир ејләмә чох фикир сән,
Күндүз јүз јол үрәјимдән кечирсән.

Гәбул ејлә кәл ешгими севкилим,
Тәзә ачыб әтир сачан күл кими,
Бир дүнјалыг севинч, фәрәһ кәтир кәл,
Бизим евә, аиләјә, ај көзәл,
Өмүр боју јашајаг биз сәмими,
Заман кечир ејләмә чох фикир сән,
Күндүз јүз јол үрәјимдән кечирсән.

*28 ијун, 2012*



## ҺӘМРӘЈЛИК КҮНҮ

Гурултај күнүдүр, Бакы шәһәри,
Јығышыб азәри халгы бир јерә,
Бирлијә чағырыр һәмјерлиләри,
Чыхыр Азәрбајчан көзәл күнләрә.

Сиз еј Алманијада, көзәл Венада,
Русијада чалышан чан гардашларым,
Јығышын әл-әлә верин дүнјада,
Ахсын көзләримдән севинч јашларым.

Узаг Франсадан сәс вер сәсимә
Ај Дәдәм Горгудун мәрд өвладлары.
Дүнја һејран галсын бу һәвәсимә,
Сизинлә фәхр етсин Одлар дијары.

Гардашлыг күнүдүр, бу бирлик күнү,
Даһа да иснишир инсан инсана.
Тој бүсат бүрүјәр јерин үзүнү,
Учар хош хәбәрләр Азәрбајчана.

Бу гардашлыг күнү, бу бирлик күнү,
Көрүнүр көнүлдән көнүлә јоллар,
Шаир дә, алим дә дејир сөзүнү.
Һәр инсан гәлбиндә күләр бир баһар.

Гардашым! Изн вер сыхым әлини,
Уғурлар диләјим үрәкдән сәнә,
Гүрбәтдә һеч заман чыхма гәлбини,
Вәтән мәһәббәти бәслә вәтәнә.

Шуша да, Лачын да бирләшин дејир,
Һәлә дә Хочалы хәјаллардадыр.
Кәлбәчәр бухову гырмаг истәјир,
Фүзули, Губадлы интизардадыр.

Гурултај күнүдүр, Бакы шәһәри,
Јығышыб азәри халгы бир јерә,
Бирлијә чағырыр һәмјерлиләри,
Чыхыр Азәрбајчан көзәл күнләрә.



## ИСМИ ПҮНҺАНЫМ

Сормаіын кимдир
Исми пүнһаным?
Ешгим, севкимдир,
Исми пүнһаным?

Вар аі чамалы,
Јанагда халы,
Гәлбә од салыр,
Исми пүнһаным?

Данышмаз әбәс,
Һәр деіән күлмәз,
О дили билмәз
Исми пүнһаным?

Бағчада кәзәр,
Күл-чичәк үзәр,
Сачына дүзәр,
Исми пүнһаным?

Ал сәһәримдир,
Илһам пәримдир,
Шаһ әсәримдир,
Исми пүнһаным?

*Октіабр, 2006*

## ЈАДА КӘТИРӘЧӘК

*Бакыда даг јәһудиләринин ушаглары үчүн мәктәб ачылыб.*

Јарашыглы бир мәктәб вар Бакыда.
Тәзә ачыб ушаглара гојнуну,
Ашыб-дашыр үрәкләрин севинчи,
Һәр јол јада кәтирәндә мән ону.

Тәһсил алыр бурда әзиз балалар,
Һәм инкилис, һәм ивритчә биләчәк,
Күнәш кими гәлби тәмиз балалар,
Ширин-ширин данышачаг, күләчәк.

Кетмәк олмаз кәләчәјә биликсиз,
Ачмаг олмаз онсуз һеч вахт гол-ганад.
Елм ијлә учду аја пејкимиз,
Ачды бизә гучағыны каинат.

Бу бинаны тикәнләрә ешг олсун,
Зәһмәт илә кәлиб боја-баша о,
Галачагдыр милләт үчүн, халг үчүн.
Бәнзәјәчәк бир гијмәтли гаша о.

Бу күн бурда охујан күл балалар,
Тарихләрин јаддашында галачаг.
Әзиз Самир Ханларову[2] гыш, баһар
Мәһәббәтлә јадларына салачаг.

---

[2] Samir Xanlarov - Məktəbin direktoru

Јарашыглы бир мәктәб вар Бакыда.
Тәзә ачыб ушаглара гојнуну,
Ашыб-дашыр үрәкләрин севинчи,
Һәр јол јада кәтирәндә мән ону.

*15 ијун, 2011*



## ХОЧАЛЫ

Дүшмән кәлди Хочалынын үстүнә,
Дурду чаван, гочаларын гәслинә,
Өлән өлдү, галан галды пис күнә,
Үрәкләрин дәрд-сәридир Хочалы,
Дағлар бојда кәдәридир Хочалы.

Гыш күнүдүр, һава күләк, јағыр гар,
Күлләләнир гыз-кәлинләр, ушаглар,
Сәсә дүшүр јенә јахын, узаглар,
Үрәкләрин дәрд-сәридир Хочалы,
Дағлар бојда кәдәридир Хочалы.

Шәһәр јаныр, һәр јер түстү, думандыр,
Бешикдәки көрпәләр дә ал гандыр,
Аман Аллаһ! Мәкәр ахыр замандыр?
Үрәкләрин дәрд-сәридир Хочалы,
Дағлар бојда кәдәридир Хочалы.

Ајагјалын, башы ачыг гачан вар,
Гар ичиндә чәтин ајаг ачан вар,
Орда-бурда азыб галыр адамлар,
Үрәкләрин дәрд-сәридир Хочалы,
Дағлар бојда кәдәридир Хочалы.

Өлүм-итим инсанлары горхудур,
Гочалары, чаванлары горхудур,
Бу доғрудур, ја да горхунч јухудур?
Үрәкләрин дәрд-сәридир Хочалы,
Дағлар бојда кәдәридир Хочалы.

Симах Шејда јај сәсини һәр јана,
Ган ахыдан өзү дүшәр ал-гана,
Бу сојгырым сығмаз һеч бир дастана,
Үрәкләрин дәрд-сәридир Хочалы,
Дағлар бојда кәдәридир Хочалы.

*20 феврал, 2012*



## ЧЕЈРАНЫМ МӘНИМ

Бахдым көзләринә ешгини дујдум,
Севинди үрәјим, Чејраным мәним.
Мәчнун тәк Лејлинин ешгинә ујдум.
Донду дамарларда ал ганым мәним.

Мәһәббәт һәјата ачды көзүмү,
Јар кәлән јоллара дикдим көзүмү,
Борч алдым кәләчәк күндән дөзүмү,
Чохалды кет-кедә һичраным мәним.

Көјдәки улдуз тәк парлагдыр ешгим,
Башы күл-чичәкли бир бағдыр ешгим,
Көрпә ушаг кими севинмәз де ким,
Јар олса бир кечә меһманым мәним.

Симах, һамар дејил ешгин јоллары,
Каһ јағышлы олур, каһ көрүр гары.
Азалар гәлбимин гәми, гүбары.
Кәләндә о, исми рүнһаным мәним.

## ОЈНАР-ОЈНАР

Јенә дә гыш фәсли кәлиб јетишди,
Јел әсәр, һавада гар ојнар-ојнар,
Дүзү һеч билмирәм бу нечә ишдир,
Гаршымда бир көзәл јар ојнар-ојнар.

Бахдым көзләринә үрәјим чошду,
Ешгим ешги илә санки тоггушду.
Көлләр сонасыды, санки бир гушдур,
Мәнә мәһәббәти вар ојнар-ојнар.

Тәбиәт ојнајыр баһар кәләндә,
Күл ачыр ағачлар нүбар кәләндә,
Симах да севинәр һәр јар кәләндә.
Чүнки әлләриндә нар ојнар-ојнар.

## АЈ ҺҮСЕЈН

*Кәнч бәстәкар Һүсејн Абдуллајев үчүн*

Кеч ројалын архасына,
Дилләрини кәтир чана,
Сәси дүшсүн дөрд бир јана,
Ај Һүсејн, ај Һүсејн!

Маһныларда вардыр һәјат,
Гарангуштәк ачар ганад,
Үрәкләри ејләјәр шад,
Ај Һүсејн, ај Һүсејн!

Мәһәббәтлә јаз, јарат сән,
Һәр арзуја, кама чат сән,
Адынла фәхр етсин вәтән,
Ај Һүсејн, ај Һүсејн!

Чошгун булаг кими чағла,
Мусигијә көнүл бағла,
Нәфәс алсын, динсин халгла.
Ај Һүсејн, ај Һүсејн!

Симах Шејда, дејир вар ол,
Гүдрәтли бир сәнәткар ол,
Шәрәфлидир тутдуғун јол,
Ај Һүсејн, ај Һүсејн!

*Мүнһен, феврал 2012*

## БИРЧӘ НАЗЫН ОЛМАЈАЈДЫ..

***Козәл гызлар назсыз олмаз...***
*Бир халг маһнысындан*

Нә јахшы ки, көрдүм сәни бу сәһәр,
Ешгә салдым үрәјими, а дилбәр,
Сачларыма сығал чәкди күләкләр
Нәркиз көзүн һеч көрмәсин јаш сәнин,
Бирчә назын олмајајды каш сәнин.

Наз-гәмзәјлә јохдур арам әзәлдән,
Әл көтүрә билмәрәм сән козәлдән
Һәр сөзүмүн илки сәнсән, сону сән.
Нәркиз көзүн һеч көрмәсин јаш сәнин,
Бирчә назын олмајајды каш сәнин.

Һичранына таб етмәјә јох һалым,
Көрдүм сәни кетди гәмим, мәлалым.
Кечә-күндүз јаныңдадыр хәјалым
Нәркиз көзүн һеч көрмәсин јаш сәнин,
Бирчә назын олмајајды каш сәнин.

Симах сәнин мәһәббәтин јолунда,
Дағ гүввәси һисс ејләјир голунда,
Көзәлләрә ешг, мәһәббәт вар онда,
Нәркиз көзүн һеч көрмәсин јаш сәнин,
Бирчә назын олмајајды каш сәнин.

## КӨЗ ДӘЈӘР СӘНӘ

Чох бәзәнмә јар,
Көз дәјәр сәнә.
Сәндә көзүм вар,
Көз дәјәр сәнә.

Көзәл-көјчәксән
Нечә гәшәнксән,
Бир кәпәнәксән
Көз дәјәр сәнә.

Кирпијин гара,
Гашын ајпара,
Кедирсән һара?
Көз дәјәр сәнә.

Шаир хәјаллым,
Јанағы халлым,
Додағы баллым,
Көз дәјәр сәнә.

Ај улу Кәбәм,
Мәккәм, Мәдинәм
Гәлбимә һәмдәм
Көз дәјәр сәнә.

Симаха јар ол,
Хошбәхт ол, вар ол,
Бир вәфадар ол,
Көз дәјәр сәнә.

*Сентјабр, 2005*

## САЛАМ ВӘТӘН

Нечә илләрдир сәндән,
Аjры дүшмүшәм Вәтән.
Гәлбимдә мәһәббәтин,
Дәрjа бојда һәсрәтин,
Кәзирәм гүрбәтдә мән.
Салам, јурд-јувам Вәтән!
Меһрибан анам Вәтән!

Сән гәшәнкләр гәшәнки,
Көзүмүн нур чәләнки.
Артыр шаньн-шөһрәтин,
Күнбәкүн вар-дөвләтин.
Олмусан чәннәт тәки.
Салам, јурд-јувам Вәтән!
Меһрибан анам Вәтән!

Дејирләр сәһәр-ахшам,
Бакы дәјишир тамам.
Танынмаз олуб шәһәр,
Тикилир уча евләр.
Һејрәтә кәлир адам,
Салам, јурд-јувам Вәтән!
Меһрибан анам Вәтән!

Кетмәк истәрәм јенә,
Бир күн Огуз елинә.
Дәрәрдим күлләриндән.
Кечәрдим чөлләриндән,
Торпаға синә-синә.
Салам, јурд-јувам Вәтән!
Меһрибан анам Вәтән!

Гәриблик јыхыб мәни,
Јаманча сыхыб мәни.
Бир көрәјдим Шәкини,
Сумгајыты, Ләкини,
Ширваны, Дашкәсәни.
Салам, јурд-јувам Вәтән!
Меһрибан анам Вәтән!

Каш гәм, гүссә кедәјди,
Гәлбими шад едәјди.
Хочалыдан бир сәһәр,
Говулајды дүшмәнләр
Симах кама јетәјди
Салам, јурд-јувам Вәтән!
Меһрибан анам Вәтән!

*Апрел, 2011*

## РАШБИЛ ЗАХАРЈАЈЕВ КҮЧӘСИ

Јохдур үрәјимдә нә гүссә, нә гәм,
Рашбил Захарјајев күчәсиндәјәм.
Кәзирәм ешг илә, мәһәббәт илә,
О бөјүк инсана мин һөрмәт илә.

Гајыдыб кәлибдир доғма Губаја,
Чаны тәк севдији елә-обаја.
Шаһдағы, Гудјал да севинир буна
Көзүн ајдын дејир оғлу Кермана.

Севинир бөјүк дә, ушаг да бу күн,
Бирчә ад сәсләнир додагда бу күн,
Јаша Захарјајев күчәси, јаша
Ач кениш гојнуну доста, јолдаша.

*20 ијул, 2009-чу ил*

## НОВРУЗ БАЈРАМЫ

Јурдумуза кәлди Новруз бајрамы,
Јаз нәфәсли лалә, нәркиз бајрамы,
Ел-обанын көзәл, әзиз бајрамы,
Дәдәм Горгуд јашындадыр бу бајрам,
Үрәјимин башындадыр бу бајрам.

Гавал сәси тар сәсинә гарышыр,
Ашыглар да бир-бирилә јарышыр,
Күсүлүләр бајрамлашыб барышыр,
Дәдәм Горгуд јашындадыр бу бајрам,
Үрәјимин башындадыр бу бајрам.

Ачылыбдыр сачаг-сачаг сүфрәләр,
Немәт долу, нахышлы, ағ сүфрәләр
Мәһәббәтлә күлүмсәјир чөһрәләр
Дәдәм Горгуд јашындадыр бу бајрам,
Үрәјимин башындадыр бу бајрам.

Хонча тутур јенә гызлар, кәлинләр,
Шәкәрбура, пахлавалар тәзә-тәр,
Јоха чыхыб үрәкләрдән гәм, кәдәр,
Дәдәм Горгуд јашындадыр бу бајрам,
Үрәјимин башындадыр бу бајрам.

Бағ-бахчалар јашыл дона дүрүнүр,
Күнәш чыхыб булудлардан көрүнүр,
Мәчрасына сығышмајыр ана Күр,
Дәдәм Горгуд јашындадыр бу бајрам,
Үрәјимин башындадыр бу бајрам.

Кəндирбазлар рəгс ејлəјир бир јанда,
Пəһлəванлар күлəширлəр мејданда,
Ал фишəнклəр јаныб-сөнүр бир анда,
Дəдəм Горгуд јашындадыр бу бајрам,
Үрəјимин башындадыр бу бајрам.

Нə көзəлдир бајрам ајы еллəрин,
Гаггылдајыр соналары көллəрин
Гышдан сонра үзү күлүр чөллəрин,
Дəдəм Горгуд јашындадыр бу бајрам,
Үрəјимин башындадыр бу бајрам.

Симах Шејда, мин һүснү вар баһарын,
Гаш-габағы ачылыбдыр рүзкарын,
Сəһəр шеһи көз јашыдыр отларын,
Дəдəм Горгуд јашындадыр бу бајрам,
Үрəјимин башындадыр бу бајрам.

*5 март, 2012*



# КЕЧӘЛ ҺӘМЗӘЛӘР

Кәләк илә, һијлә илә дост олан,
Хәмирләри әјриликлә јоғрулан,
Икиүзлү инсанлары көрәндә,
Дүрлү-дүрлү јаланлары көрәндә,
Короғлунун Гыратыны апаран,
Үрәјиндә фыртыналар гопаран,
Кәчәл Һәмзә көзләримдә чанланыр,
Гәлб евимдә она нифрәт ојаныр.
Беләләри аз дејилдир бу күн дә,
Кәзир онлар көзләримиз өнүндә.
Кәзсән әкәр нечә ели-обаны,
Кәнчәбасар маһалыны, Губаны,
Јахуд олсан Ләнкәранда, Бакыда,
Ордубадда, күл-чичәкли Ләкидә,
Ај дост, кәчәл Һәмзәләри көрәрсән,
Бу мүасир үзә күлән һәмзәләр,
Чыхардырлар мин ојунлар, мәзәләр.
Арамызда кәзир онлар һәлә дә,
Ону-буну тапыб јанлар һәлә дә.
Аһ, јаланлар, әјриликләр, һијләләр,
Олмасаныз јер үзүндә сиз әкәр,
Олмаз иди бәлкә кечәл һәмзәләр,
Гәлбимизи чулғамазды гүссәләр.

*Мај, 2006*

## НӘНӘМ ГӘЛЈАН ЧӘКИР

Гәлјан чәкир нәнәм мәним,
Вар нахышлы кисәси дә.
Бу кисәдә бүлбүл гонуб,
Тәзә ачан бир күл үстә.

Јахынлашыб дедим бир күн,
Нә көзәлдир кисән нәнә.
Бәлкә мәнә данышасан,
Ким верибдир буну сәнә.

Дәриндән бир аһ чәкәрәк,
Еһ, ај гызым, - деди нәнәм.
Гәлјаныны түстүләдиб,
Бир аз фикрә кетди нәнәм.

Нәзәр салыб әтрафына,
Кәдәр илә кәлди дилә:
Дүз он сәккиз јашым варды,
О заманлар, ај Наркилә.

Бир чаванын мәһәббәти,
Мәни Мәчнун еләмишди.
Бу пајызда тојумузу
Ејләјәрик сөјләмишди.

Ди кәл тоја беш күн галмыш,
Ајры салды дава бизи
Ону әскәр апардылар,
Сөндүрдүләр ешгимизи.

Он илдән чох көзләдим мән,
Чыхмады бир хәбәр ондан,
Јазыб-поздуг нечә јерә,
Хәбәр кәлди Москвадан.

Новгороддан фашистләри
Говлајанда бир күн сәһәр,
Гәһрәманлыг көстәрәрәк
Һәлак олмуш Маһмуд Сәфәр.

Әскәрлијә кедән күнү
Верди мәнә бу кисәни.
Деди: - сахла, гајытмасам,
Һәр күн бахыб јад ет мәни.

Нечә ајлар, илләр кечиб,
Инди артыг о замандан,
Һәр баханда бу кисәјә
Үрәјими үзүр һичран.

Дава вуран јараларын,
Бах, бу күн дә көјнәр јери..
Унутмарам өмрүм боју
Һәлак олан о әскәри

*18 декабр, 2010*

## УЗАГДА ОЛСАН ДА

*Матвеј Илизарова итһаф едирәм*

Сән зәһмәткеш бир меһрибан инсансан,
Бу ешг илә јаша һәр ан гардашым!
Севинч илә вурсун гәлбин һәр заман,
Көзләриндә күлсүн чаһан, гардашым!

Хејирхаһсан билир гоча, чаван да,
Һөрмәтин вар һәр обада, һәр јанда,
Сән Губадан бир аз узаг олсан да,
Ајрылмырсан һеч вахт ондан, гардашым!

Гудјал чалыб бир заманлар лајланы,
Олмусан сән бу јерләрин һејраны,
Зәһмәт илә газанмысан ад-саны!
Аз тапылар сән тәк инсан, гардашым!

Чалышырсан вәтән үчүн, халг үчүн,
Арзуларын чичәк ачыб күнбәкүн.
Гој фәхр етсин милләт сәнлә өјүнсүн,
Көрмәјәсән бир гәм-һичран, гардашым!

Симах Шејда дејир сәни јүз јаша,
Һәјатда гој бир хејирхаһ из, јаша,
Севинч илә, фәрәһ илә көз јаша,
Камыны ал бу дүнјадан, гардашым!

*Алманија, Мүнһен*
*5 ијун, 2011.*

## ЈАЗ КҮЛӘКЛӘРИ

Ојанып тәбиәт гыш јухусундан,
Јенә чана кәлир һәр тәрәф, һәр јан.
Бөјүк мәһәббәтлә дилләнир инсан,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри.

Чыхыб новруз күлү, нәркиз, бәнөвшә,
Јашыл дон кејинир чөл, чәмән, мешә,
Лалә баш галдырыб бахыр күнәшә,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри.

Новруз бајрамынын кәлиши илә,
Севинч ичиндәдир һәр бир аилә,
Сәсләнир тар, гавал, саз кәлир дилә,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри.

Сиздә вар нәфәси кәндин, шәһәрин
Фүсункар Көјкөлүн, мави Хәзәрин,
Руһума бир гәдәр тәскинлик верин,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри.

Гапы, пәнчәрәмдән ичәри долун,
Дарајын сачымы, һәмдәмим олун,
Вәтәндән кәлмисиз мәлһәмим олун,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри

Гүрбәтдә јашамаг дејилдир асан,
Вәтән һәсрәтијлә гочалыр инсан,
Бакы, көзәл Оғуз чыхармы јаддан,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри.

Гушлар чәһчәһ вурур јенә аһәстә,
Учурлар бағларда һеј дәстә-дәстә,
Булбүлләр дә гонуб күлләрин үстә,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри.

Симахын үрәји биканә дејил,
Сизин јолунузу көзләјир һәр ил,
Күлүр көзләриндә һәр оба, һәр ел,
Әсин башым үстән, кәзин һәр јери,
Ај јаз күләкләри, јаз күләкләри.

*Март, 2012*



## ЈЕРИ, ОҒЛАН

Көнүл вердим бир көзәлә,
Ешги илә кәлдим дилә,
Ҹаваб верди күлә-күлә,
Јери оғлан, јери, - деди,
Дөнүб бахма кери, - деди.

Дедим: - Күнүм гара олар,
Гәлбим башы јара олар.
Сөјләди: - Еһ, мәнә нә вар,
Јери оғлан, јери, - деди,
Дөнүб бахма кери, - деди.

Шаирләрлә јохдур арам,
Онлара јар оламмарам,
Һәр бирилә һәлә варам.
Јери оғлан, јери, - деди,
Дөнүб бахма кери, - деди.

Гәләмини алыб әлә,
Шеир јазыр һәр көзәлә,
Кәтирирләр бизи дилә,
Јери оғлан, јери, - деди,
Дөнүб бахма кери, - деди.

Симах, дәрд-гәм чәкмә јенә,
Нә дејәсән беләсинә,
Наһаг тәнә едир сәнә,
Јери оғлан, јери, - деди,
Дөнүб бахма кери, - деди.

*26 феврал, 2011*

## ДЕЈӘ-ДЕЈӘ

Доландым назәнин бир јар башына,
Чанан дејә-дејә, чан дејә-дејә.
Онун көзләринә, онун гашына
Ај көнүл, алышыб јан дејә-дејә.

Көрдүм көнүл вермәк истәмир мәнә,
Үрәкдә мәһәббәт бәсләмир мәнә,
Истәдим башына дөнмәјә јенә
Ај көнүл, алышыб јан дејә-дејә.

Симах, о дилбәри унутмаг чәтин,
Ешгиндә чох јандым илк мәһәббәтин,
Инди гүрбәт елдә галмысан јетим,
О көзәл күнләри ан дејә-дејә.

## ТЕЈМУРУМ МӘНИМ

Әлли беш јашыны гејд едирик биз,
Бу күн севинчимиз чошғун бир дәниз,
Дәјир бир-биринә гәдәһләримиз,
Ад күнүн мүбарәк Тејмурум мәним,
Севинчим, фәрәһим, көз нурум мәним.

Һардан јахын дүшдү хәстәлик сәнә,
Гәм, гүссә кәтирди үстәлик сәнә,
Јаша јүз ијирми, даһа чох сәнә,
Ад күнүн мүбарәк Тејмурум мәним,
Севинчим, фәрәһим, көз нурум мәним.

Үлкәр дә, Ајнур да сәни чох истәр,
Зәнк вуруб һалындан тутарлар хәбәр,
Тәранә, Меһпарә севинчлә дејәр,
Ад күнүн мүбарәк Тејмурум мәним,
Севинчим, фәрәһим, көз нурум мәним.

Чәмилә, Күлнарә, Сәбинә, Мери,
Сәнин һәр сөзүнә дејирләр «һәри»,
Үлвијә, Рәфаел дилин әзбәри,
Ад күнүн мүбарәк Тејмурум мәним,
Севинчим, фәрәһим, көз нурум мәним.

Гардашын Мүшфиг дә сыхыр әлини,
Рајајла, Фирузә билир дилини,
Салыб Нәрминә дә сәнә мејлини,
Ад күнүн мүбарәк Тејмурум мәним,
Севинчим, фәрәһим, көз нурум мәним.

Чәкир һәр дәрдини, сәрини анан,
Одур әһвалына алышыб јанан,
Дәрдиндән атан да күлмәз һеч заман
Ад күнүн мүбарәк Тејмурум мәним,
Севинчим, фәрәһим, көз нурум мәним.

*11 декабр, 2011*

# НОВРУЗ ЧӘРШӘНБӘЛӘРИ

*Кәләндә ел, обаја*
*Новруз чәршәнбәләри*
*Онлар верир инсана,*
*Илк баһардан хәбәри.*

## 2. СУ ЧӘРШӘНБӘСИ

О бөјүк немәтдир инсанлар үчүн,
Гочалар, ушаглар, чаванлар үчүн,
Одур гәлбимизи диндирән һәр күн,
Һәр дәфә кәләндә шад едир бизи,
Новруз бајрамынын су чәршәнбәси.

Сүбһ тездән булаға кедир адамлар,
Јујур әл-үзүнү бир-бир адамлар.
Бөјүк һәвәс илә сулашыр онлар,
Һәр дәфә кәләндә шад едир бизи,
Новруз бајрамынын су чәршәнбәси.

Тонгаллар галаныр, исинир торпаг,
Од үстән һоппаныр һәр оғул-ушаг,
Јашыл дон кејинир јенә бағча-бағ
Һәр дәфә кәләндә шад едир бизи,
Новруз бајрамынын су чәршәнбәси.

Дирилик сујуну ичәндән бәри,
Сағдыр Хыдыр Илјас кәзир һәр јери
Чатар көмәјинә көмәксизләрин,
Һәр дәфә кәләндә шад едир бизи,
Новруз бајрамынын су чәршәнбәси.

Симах, мүгәддәсдир ел билир ки, су
Даим гијмәтлидир инчи тәки су,
Одур үрәкләрин камы, арзусу
Һәр дәфә кәләндә шад едир бизи,
Новруз бајрамынын су чәршәнбәси.

*26.03.2012*



## 2. ОД ЧӘРШӘНБӘСИ

Һәм әзиздир, һәм мүгәддәс,
Новрузун од чәршәнбәси,
Үрәкләрә верир һәвәс,
Новрузун од чәршәнбәси.

Севмәз кәлән сојуг гызы,
Тез-тез јаған гар, јағышы,
Дилләндирәр дағы, дашы,
Новрузун од чәршәнбәси.

Хошлар јанан тонгаллары
Аловланан тонгаллары.
Көзләр кәлсин илк баһары,
Новрузун од чәршәнбәси.

Әтрафында од, очағын,
Охујар һәм киши, гадын.
Руһуну шад ејләр халгын
Новрузун од чәршәнбәси.

Симах Шејда, гәдим вахтдан,
Очаға анд ичир инсан.
Гојмајыр ки, чыхсын јаддан,
Новрузун од чәршәнбәси.

*29.03.2012*

## 3. ЈЕЛ ЧӘРШӘНБӘСИ

Јери, сују һәрарәтә кәтирир,
Үрәкләри мәһәббәтә кәтирир,
Инсанлара хош хәбәрләр јетирир,
Кәләндә јел чәршәнбәси Новрузун.

Күнәш чыхыб батыр күндә нечә јол,
Бусат гурур көј үзүндә нечә јол,
Шәфәг сачыр ел-обаја о бол-бол
Кәләндә јел чәршәнбәси Новрузун

Аловланар һәјәтләрдә тонгаллар,
Түстүләнәр нечә јердә тонгаллар,
Маһныларда вәсф олунар илк баһар,
Кәләндә јел чәршәнбәси Новрузун.

Күл-чичәкләр баш галдырар торпагдан,
Јенә гушлар көч ејләјәр узагдан
Учуб гонар будаглара будагдан.
Кәләндә јел чәршәнбәси Новрузун.

Сәмәниләр јашыллыға бүрүнәр,
Думан кәлиб дағ-дәрәдә сүрүнәр,
Гыз-кәлинләр даһа да шән көрүнәр,
Кәләндә јел чәршәнбәси Новрузун.

Севинч илә ашыб-дашар үрәкләр,
Ганадланар хош арзулар, диләкләр,
Симахы да саламлајар күләкләр,
Кәләндә јел чәршәнбәси Новрузун.

*01.04.2012.*

## 4. ТОРПАГ ЧӘРШӘНБӘСИ

Торпаға бағлыдыр әзәлдән инсан,
Онунла меһрибан олмуш һәр заман,
Јолунда кечмишдир ширин чанындан.
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

Илк баһар ешгинә, күнәш ешгинә,
Чыхыб новруз күлү, бәнөвшә јенә,
Бојланыб бахырлар чөлә, чәмәнә,
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

Һәр евдә бајрама кедир һазырлыг,
Галаныр тонгаллар, кур јаныр ишыг,
Бахмыр од-алова дүшүр гаранлыг,
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

Күнүн шәфәгләри јери исидәр,
Инсанлар тарлаја чыхар һәр сәһәр,
Охунар күл кими ширин нәғмәләр,
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

Мүгәддәс сајылар од тәк торпаг да,
Онсуз үрәк күлмәз, динмәз додаг да,
Өмүр күн өтүшәр даим фәрагда,
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

Бу күндә севәнләр бөјүк һәвәслә,
Күсәнләр барышыр бир-бири илә,
Динир сәдәфли саз, тар кәлир дилә,
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

Торпаг анд јеридир, әзиздир ады,
Јашадыр гојнунда бу каинаты,
Вардыр үрәк ачан мин бир бусаты,
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

Симах, нә көзәлдир јазы вәтәнин,
Даима диллләнсин сазы вәтәнин,
Онсуз бир күнүн дә олмасын сәнин,
Торпаг чәршәнбәси күнүдүр бу күн,
Бајрам ичиндәдир ел-оба бүтүн.

*06.04.2012*

# ГӘЗӘЛЛӘР



# ҜҮРБӘТДӘЈӘМ, ҜҮРБӘТДӘ

Дүшдүм вәтәндән узаг ҝүрбәтдәјәм, ҝүрбәтдә,
Чәкирәм ғуссә, фәраг, ҝүрбәтдәјәм, ҝүрбәтдә.

Даим дүшүр јадыма Азәрбајҹан торпағы,
Нечә јурд, нечә очаг, ҝүрбәтдәјәм, ҝүрбәтдә.

Һачыкәндин, Көј-көлүн һавасына һәсрәтәм,
Һардасан, ај Хошбулаг, ҝүрбәтдәјәм, ҝүрбәтдә.

Ләнкәрандан, Көјчајдан, Оғуздан јох хәбәрим,
Чыраг гала, Дәли дағ ҝүрбәтдәјәм, ҝүрбәтдә.

Сәфалы Губадандыр исми пүнһаным мәним,
Ҹанымдыр о күлјанаг, ҝүрбәтдәјәм, ҝүрбәтдә.

Симах вәтән һәсрәти чәкә-чәкә гочалыр,
Јазмагдан галмыр анҹаг, ҝүрбәтдәјәм, ҝүрбәтдә.

## ДУРНАЛАР

Көј үзүндә көрдүм сәни бир күнорта, дурналар
Дүшдү көзәл Азәрбајчан јенә јада, дурналар.

Дедим: -Әлбәт Гарабағдан кәтирмисиз шад хәбәр
Чал-чағырдыр, тој-бүсатдыр индии орда, дурналар.

Гачгынлар да, көчкүнләр дә гајыдыб өз јеринә,
Узаг дүшүб чамаатдан һәр ган-гада, дурналар.

Илләр илә көзләмишәм бу хәбәри, бу күнү
Чәкә-чәкә һәсрәтини дүшдүм ода, дурналар.

Улу танрым, дедикләрим каш һәгигәт олајды,
Бир гурбанлыг гоч кәсәјди Симах Шејда, дурналар.

*14 август, 2006*

# ШЕЈХИМ МӘНИМ

*Шејххүлислам Аллаһшүкүр Пашазадәјә*
*итһаф едирәм*

Мәһәббәтлә охујурсан гураны сән, Шејхим Мәним!
Хош күнләрә сәсләјирсән инсаны сән Шејхим Мәним!

Гәлбиндәки Аллаһ-тала ешги илә јаша, јаша,
Сев даһа да бу дүнјаны, чаһаны сән, Шејхим Мәним!

Шан-шөһрәтин ағызларда, додагларда кәзир бу күн,
Шанлы ислам дүнјасынын султанысан, Шејхим Мәним!

Бир заманлар Бухарада тәһсил алдын мәһәббәтлә,
Даһа да чох ешглә севдин Худаны сән, Шејхим Мәним!

Фәхр ејләјир Азәрбајчан сәнин кими оғлу илә,
Зәһмәт илә газанмысан ад-саны сән, Шејхим Мәним!

Симах Шејда алтмыш нәдир јүз ил өмүр диләр сәнә,
Кәз гәлбиндә вәтән ешги һәр јаны сән, Шејхим Мәним!

*Декабр, 2009*

## АЗАДЛЫГ ИСТӘЈИ

Үрәји јаралы, гәлби јаралы
Вәтәндән аралы, елдән аралы,

Кәзирәм гүрбәтдә Гарабағ дејә,
Өтүшүр күнләрим ағлы-гаралы

Дүшмәнин әлиндә дарда галыбдыр,
Шуша тәк дағларын көзәл маралы.

Азадлыг истәјир Кәлбәчәр, Лачын
Губадлы, Физули, Ағдам маһалы.

Симах һәр дүшәндә Гарабағ јада,
Адамын башындан чыхыр хәјалы.

*Ијун, 2007*

## ШҮАРЫМ МӘНИМ

Вәтәндән узаглара дүшүб күзарым мәним,
Чыхмыр бир ан јадымдан Бакым, Учарым мәним.

Гәлбимдә јува салмыш Оғуз, Губа, Гәбәлә,
Газахдыр, Ләнкәрандыр әһдим, илгарым мәним.

Сәсли-күјлү Кәнчәдән көнлүм ајры дүшәли,
Даим кәлир јадыма Көјкөл, Гошгарым мәним.

Күл-чичәкли Ағдамы рөјаларда көрүрәм,
Көрән сәндән һарда вар Шәким, Гүсарым мәним?!

Физули, Шуша үчүн гәлбин көјнәјир, Симах,
Лачындыр, Кәлбәчәрдир дилдә шүарым мәним.

*30.10.2006*

## ЈУСИФ КҮНАЈДЫНА

Јусифи-Кәнан кими гәлби тәмиз инсансан,
Һамымызын јанында хәтри әзиз инсансан.

Меһрибансан, ширindир һәр сөһбәтин, һәр сөзүн
Милјонларын гәлбиндә јашарсан заман-заман.

«Гәриб ахшамлар» илә сәс салмысан дүнјаја,
Һәјатын мәнасыны анлајансан, дујансан.

Вәтән мәһәббәтидир даим учалдан сәни,
Ајсан, күнсән, Күнајдын, күнәшли асимансан.

Мәним әзиз гардашым, Симах сыхыр әлини,
Узаг Мүнһен елиндән, о сәфалы дијардан.

*Алманија, Мүнһен*
*Сентјабр, 2010*

## ЈУХУДА КӨРДҮКЛӘРИМ

Јухуда көрдүм ки, мән Шушадајам бу ахшам,
Сағлыглар сөјләјирәм әлимдә меј долу чам.

Гәһрәманлыг көстәриб Азәрбајчан әскәри,
Азғынлашан дүшмәни ејләјиб өзүнә рам.

Көчүб кәлир адамлар ата-баба јурдуна,
Одлар јурду ејләјир һәр тәрәфдә тој-бајрам.

Кәсилир һәјәтләрдә гурбанлыг гојунлары,
Көј үзүндә фишәнкләр јаныб-сөнүр дурмадан.

Тәндирләрә од дүшүр, чөрәк јарыр кәлинләр,
Очагларда дәм алыр пловлар арам-арам.

Јаллы кедир чаванлар јенә вериб әл-әлә,
Ихтијар гочалар да данышыб күлүр мудам.

Симах Шејда гәм јемә бир күн јухун чин олар,
Гарабағдан говулар азғын дүшмәнләр тамам.

*Декабр, 2007*

## ЧАЛ ГАРДАШЫМ

*Кәнч бәстәкар Һүсејн Абдуллајевә*
*итһаф едирәм.*

Чал, гардашым, дилә кәлир үрәјимин телләри,
Чал, чалдыгча кәзсин сәсин обалары, елләри.

Уча дағлар, көј мешәләр дилә кәлсин сәсинлә,
Рам ејләсин јатағына сығышмајан селләри.

Чал, чал сусуз сәһралара јени һәјат бәхш етсин,
Јашыллыға гәрг ејләсин дәрәләри, чөлләри.

Ешгә дүшән чаванлара саф мәһәббәт диләсин,
Бир-биринә говушдурсун севдалы көнүлләри.

Саламласын маһныларын Хочалыда, Шушада,
Һәсрәт илә һәр ачылан о хары бүлбүлләри.

Симах Шејда, мусигинин чох ечазкар сәси вар,
Гој бүрүсүн хош нидалар һәр тәрәфи, һәр јери.

*28.12.2011*

## ГОЧАЛДЫМ

Ешг сазыны чала-чала гочалдым,
Јар гадасын ала-ала гочалдым.

Јола салдым кәлиб-кечән илләри,
Сач ағарды бала-бала гочалдым.

Танры мәни ајры салды вәтәндән,
Хәјаллара дала-дала гочалдым.

Илк ешгими о назәнин дилбәри,
Һәр күн јада сала-сала гочалдым.

Симах Шејда, һәр гышын өз јазы вар,
Гүрбәт елдә гала-гала гочалдым.



## МҮНҺЕНИН КӨЗӘЛЛӘРИ

Кечир көзүмдән һәр ан Мүнһенин көзәлләри,
Адамы едир һејран Мүнһенин көзәлләри.

Ишвәлидир, назлыдыр һәрәси бир-бириндән,
Үрәк чаландыр јаман Мүнһенин көзәлләри.

Бири инчә беллидир, бири чејран бахышлы,
Бири дә һүри-гылман Мүнһенин көзәлләри.

Ширин-ширин күлүрләр бизим көзәлләр кими,
Чан гурбандыр сизә чан, Мүнһенин көзәлләри.

Ај Симах, гојмаз сәни раһат нәфәс аласан,
Һәр күн гаршына чыхан Мүнһенин көзәлләри.

*21.09.2006*

# ГАРАБАҒ

Чыхарда билмирәм һеч мән сәни јаддан Гарабағ,
Танры һифз етсин сәни дүшмәндән, јаддан, Гарабағ.

Шушаны, Фүзулини, Лачыны кәзә билмирәм,
Көрән һачан гуртарар чан дүшдүјүн оддан, Гарабағ?

Јенә Иса булағыны көрмәјә көнүл тәләсир,
Хәбәр тутмаг истәјирәм һәр тој-бүсатдан, Гарабағ.

Закирин, Натәванын дүшмән әлиндәдир јурду,
Вахтдыр гуртар чаныны ағыр һәјатдан Гарабағ.

Ај Симах, кәл бу гәдәр кетмә фикирә, хәјала
Тезликлә азад олачаг чәннәти-мәкан Гарабағ.

*19.09.2006*



## АЛМАН ГЫЗЫ

Күлә-күлә алдын башдан ағлымы сән, алман гызы,
Сеһрләндим ешг төкүлән көзләриндән, алман гызы.

Нәсә дедин өз дилиндә баша дүшә билмәдим мән,
Гәһәрләндим, биһал олдум сөзләриндән, алман гызы.

Дүшүндүм ки, мәһәббәтли бахышлардыр ешгин күчү,
Көтүрмәдим нәзәрими нәзәриндән, алман гызы.

Кәлдим алман торпағына көзүм шәфа тапсын дејә,
Сәндә тапдым о шәфаны, о нуру мән, алман гызы.

Нә олајды һәр истәјим һәгигәтә дөнәјди каш,
Симах сәнлә Гарабағда кәзәјди шән, алман гызы.

*09.08.2006*

## НӘ ЧОХ ЧӘКДИ БУ ҺИЧРАН

Јад шәһәрдә – Мүнһендә кәзирәм мән гәриб тәк,
Инсана кәл-кәл дејир бурда һәр күл, һәр чичәк.

Ејним ачылмыр анчаг гәм, гүссәнин әлиндән,
Фикирләр ичиндәјәм севиниб-динмир үрәк.

Дејирәм өз – өзүмә: - Нә чох чәкди бу һичран,
Көрәсән Гарабаға баһар нә вахт кәләчәк?

Үмид галмајыб мәндә бу күн-сабаһ сөзүнә,
Еј Гарабағ күнәши чых дүнјаја бир чар чәк.

Де говулуб, јағылар Лачындан, Кәлбәчәрдән
Фүзулимиз, Шушамыз даһа дејиб-күләчәк.

Симах, шадлыг едәчәк Азәрбајчан торпағы,
Бүтүн гүссә-кәдәри үрәкләрдән силәчәк.

*Нојабр, 2008*

## ӨЛДҮРҮР МӘНИ

Бир дилбәрин ишвәси, назы өлдүрүр мәни,
Чоху зүлүм еjләjир, азы өлдүрүр мәни.

Онун гарлы jағышлы күнләринә дөзүрәм,
Анчаг күллү-чичәкли jазы өлдүрүр мәни.

Билирәм ки, севмәкдән башга jохдур күнаһым,
Онда нечин залымын гызы өлдүрүр мәни.

Вахт олур ки, чыхырам онун илә кәзмәjә,
Олмур бир jол сөзүмдән разы, өлдүрүр мәни.

Ешг, мәһәббәт олмаса инсан jашаjа билмәз,
Симах Шеjда көзәлләр хасы өлдүрүр мәни.

*Мүнһен шәһәри,*
*Март, 2006*

# УШАГ ШЕИРЛӘРИ

## АЗАД ЕДӘК

-Шуша, Шуша дејирсән
Бу гәдәр нечин, ата?
Кәдәр илә салырсан,
Һәр күн ону сән јада.

- Мәним ағыллы балам,
Сөзләримә гулаг ас,
Шуша кими шәһәрдән,
Бу дүнјада тапылмаз.

Көзәлдир башдан-баша,
Онун һәр бир бучағы,
Вардыр тәмиз һавасы,
Нечә сәрин булағы.

Дурур «Чыдыр дүзү» дә,
Кәдәр ичиндә инди,
Вагифин мәгбәрәси,
Ким билир нә күндәдир.

Көзләрими ачмышам,
Бу торпагда бир сәһәр,
Мәним чаным, чијәрим,
Севинчимдир бу шәһәр.

Вардыр ајаг изләрим,
Һәр күчәдә, һәр тиндә,
Нечә илдир әсирдир,
Шуша дүшмән әлиндә.

Фикрә кедиб бир гәдәр,
Белә сөјләди Бабәк:
- Ата кедәк Шушаны
Дүшмәндән азад едәк.

*Феврал, 2009*

## АПАР МӘНИ

Чај сүфрәси архасында
Атасына деди Пәрвиз:
- Күл-чичәкли Гарабағдан
Нечин узаг дүшмүшүк биз?

Надир әмим, Набат халам,
Һеј Ханкәнди, Шуша дејир
Күллү нәнәм јаш ахыдыр,
Һәр күн гара палтар кејир?

Апар мәни о јерләрә,
Гој дағлардан дүздән кечим,
Сәрин-сәрин булагларын
Көзләриндән мән дә ичим.

Әлван-әлван күлләриндән,
Дәстә тутум анам үчүн,
Бағларындан мејвә дәрим,
Нәнәм үчүн, бабам үчүн.

Сүр машыны, сүр ај ата,
Јола дүшәк елә инди,
Топуму да гој көтүрүм,
Бәлкә орда кара кәлди.

- Аһ ај бала, сәни нечә
Гарабаға апарым мән?
Нечә илдир о јерләри
Зәбт ејләјиб гары дүшмән.

Вардыр евим, бағым-бағчам,
Шуша кими бир шәһәрдә.

Инди чыхмаг истәмирләр
Јурдумуздан даһа онлар.
Күнү-күндән гәлбимизи
Үзүр гүссә, кәдәр, гүбар.

Шәһид едиб үч оғлуну
Бу давада Күллү нәнә.
Она көрә гара палтар
Кејир һәр күн о әјнинә.

Һеј дејирләр бу күн-сабаһ,
Говачаглар дүшмәнләри.
Галмајыбдыр сәбр биздә,
Истәјирик дөнәк кери.

Залымларын әлләриндән
Гуртаранда торпағымыз.
Гарабағда учаланда
Азәрбајчан бајрағымыз.

Онда сәни апарарам
Бирдәфәлик о јерләрә.
Үзүмүзә күләр һәјат
Сон гојулар гәм, кәдәрә.

*28 јанвар, 2010*

## АНАРЫМ

Занбаг кими боj атдын,
Мәктәб јашына чатдын,
Ачылды гол-ганадын,
Мәним јазым-баһарым,
Анарым, аj Анарым.

Һәр күн оху дәрсини,
Елмә вер һәвәсини,
Ешидәк шән сәсини,
Мәним јазым-баһарым,
Анарым, аj Анарым.

Әлимә алыб гәләм,
Сәни тәбрик едирәм,
Көзүндә күлсүн аләм,
Мәним јазым-баһарым,
Анарым, аj Анарым.

Симах сәнә чан дејир,
Көзүнә гурбан дејир,
Вар ол һәр заман дејир,
Мәним јазым-баһарым,
Анарым, аj Анарым.

*10.08.2009*

# КӨЗӘЛ СОНА

*Һачы Әһмәд Исајевин Сона нәвәси үчүн.*

Бизим евдә бир Сона вар,
Һамы ону өпүб-охшар,
Севинчимиз ашыб-дашар,
Дағ гызыдыр бизим Сона,
Үрәк һејран олуб она.

Әл-гол атыб имәкләјәр,
Күндән-күнә чичәкләјәр,
Тәзә ачан күлә бәнзәр.
Дағ гызыдыр бизим Сона,
Үрәк һејран олуб она.

Шәһријарын гыз баласы,
Кәтирибдир бизә јазы,
Нәнә, баба чәкәр назы.
Дағ гызыдыр бизим Сона,
Үрәк һејран олуб она.

Бу күн, сабаһ бој атачаг,
Тутачаг һәр шејдән сораг,
Мәктәбә дә басар ајаг,
Дағ гызыдыр бизим Сона,
Үрәк һејран олуб она.

*10 апрел, 2007*

## ТАНЫНМАЗ ОЛУБ

Москвадан Губаја
Гонаг кәлмишди Лалә.
Гырмызы гәсәбәдә
Кәзирди Мурад илә.

Мурад деди: - Лаләчан,
Гәсәбәмиз гәшәнкдир.
Һәр тәрәф башдан-баша
Бир бах, күлдүр, чичәкдир.

Уча евләр тикилир
Бурда да сон заманлар.
Даһа да шән јашајыр
Күнү-күндән инсанлар.

Исаг Һанук адына
Бу тәзә көзәл бина.
Бизим мәктәбимиздир,
Диггәт илә бах она.

Көр нечә дә көзәлдир,
Көр нечә дә ишыглы.
Синифләри кенишдир,
Фоеси јарашыглы.

Көј үзүнә баш чәкән
Шаһ дағыдыр бу даг да.
Һавасындан, сујундан
Тапмаг олмаз һеч јанда.

Бу саат кәздијимиз
Бу кениш күчә исә.
Рашбил Захарјајевдир,
Чох әзиздир о бизә.

Һәмјерлимиз меһрибан,
Көзәл журналист иди.
Һамы ону һөрмәтлә,
Мәһәббәтлә севирди.

Москвада јашајыр
Рашбилин өвладлары.
Хејирхаһ ишләријлә
Јад олунур адлары.

Оғлу Керман һәмишә
Губаја кәлиб-кедир.
Гоһумлары, достлары
Һөрмәт илә јад едир.

Бу чај исә Гудјалдыр,
Ахыб кәлир дағлардан.
Кечир нечә дүзләрдән,
Дәрәләрдән, бағлардан.

Көрүрсән һәр јер нечә,
Тәртәмиздир, тәртәмиз.
Тамам танынмаз олуб
Гырмызы гәсәбәмиз.

*05.06.2012*

# ИСАГҺАНУК МӘКТӘБИ

Бир мәктәб вар Губада,
Исак Һанук адына.
Гырмызы гәсәбәјә
Бир күн кәлиб бах она.

Синифләри кенишдир,
Көзәлдир, ишыглыдыр.
Бири-бириндән гәшәнк.
Һәм дә јарашыглыдыр.

Бу бинада охујур,
Бизим әзиз ушаглар.
Күнәш кими үрәји,
Гәлби тәмиз ушаглар.

Хош күнләрә сәсләјир
Ана мәктәб онлары.
Азад, хошбәхт бој атан
Гызлары, оғланлары.

*5 ијун, 2012*

## ГОВУЛАНДА ДҮШМӘНЛӘР

Балача рәссам Бәкир,
Көзәл шәкилләр чәкир.

Чәкир бәнөвшә шәкли,
Јамјашыл мешә шәкли.

Һејран ејләр, һәр кәси
Әлинин сәлигәси.

Нечә вахтдыр чәкир бах,
Ајлы, улдузлу бајраг.

Ана тамаша етди,
Көзәлдир оғлум, – деди.

Ата өпдү көзүндән,
Нур төкүлән үзүндән.

Бәкир деди: - Бу бајраг,
Шушада учалачаг.

Гарабағдан бир сәһәр,
Говуланда дүшмәнләр.

*08.02.2012*

## СӘБИНӘ НӘВӘМ

Иҹирми јашын
Тамамды бу күн.
Дејиб-күлүрүк.
Бајрамды бу күн.

Мүбарәк олсун
Көрүм ад күнүн.
Һәмишә кечсин
Белә шад күнүн.

Көрүм бәхтәвәр
Бир гыз оласан.
Даим парлајан
Улдуз оласан.

Кәлибдир Тејмур,
Әмин биринчи
Онун да ашыб,
Дашыр севинчи.

Балача бачын,
Камалла - Мери
Сәһмана салыр
Евдә һәр јери.

Кәлиб Мурад да
Рафаел илә.
Бир дәстә тәзә
Күллә, чичәклә.

Иш башындадыр
Бибин Фирузә
Дадлы чөрәкләр
Биширмиш бизә.

Бөјүк бачын да
Бәзәр сүфрәни.
Шад көрмәк истәр
Даим чөһрәни.

Көнүл дә кәлиб
Нәзрин гызыјла.
Күл кими көзәл,
Ширин гызыјла.

Гоншу Ирадә
Кәлиб тәбрикә.
Балача оғлу
Еллијлә биркә.

Бах, Нәрминә дә
Дурмајыр ишсиз.
Сәлигәсинә
Фикир верин сиз.

Өпүрәм сәни
Бәрк-бәрк Сәбинә.
Хошбәхт ол, вар ол,
Гәшәнк Сәбинә.

*29.09.2011*

## ШАНЕЛ ГЫЗЫМ

Шанел гызым, ај күл гызым,
Даим севин, сән күл, гызым.

Кәлиб чыхдын бир јаша сән,
Хошбәхт јаша, шән јаша сән.

Кәмаләнин севинчи ол,
Һәр бир ишдә биринчи ол.

Бабаларын Огтај, Фәрман,
Сәнә десин һәмишә чан.

Тез бөјү кәл, тез бој ат кәл,
Һәр арзуја, кама чат кәл.

Фәхр еләсин сәнлә һәр ан,
Атан иләә, әзиз анан.

*3 мај, 2012*

## КИТАБЫН ИЧИНДӘКИЛӘР

Гүрбәтдән кәлән сәсләр ........ 115

### ГҮРБӘТ ШЕИРЛӘРИ

Дүшмүшәм 121
Күләкләр ........ 123
Гәриб ахшамлар ........ 124
Изар чаjы ........ 126
А бүлбүлүм ........ 127
Зоғал ағачы ........ 128
Гүрбәт рүбаиләри ........ 130

### ШЕИРЛӘР

Мәлһәмим мәним ........ 137
Севки шеирләри jазырман ниjә ........ 137
Салам Тәбриз ........ 139
Гардашым ........ 141
Болгар гызы ........ 143
Ашыг Зүлфиjәjә ........ 144
Мүшфигин хәтринә ........ 146
Jахшы адамлар ........ 147
Бир көзалтым вардыр ........ 148
Бачылар ........ 150
Jахшы ки, варсан ........ 152
Китаблар ........ 154
Оғуз суjу ........ 156
Үрәjимдән кечирсән ........ 157
Һәмрәjлик күнү ........ 159
Исми пүнһаным ........ 161
Jада кәтирәчәк ........ 162
Хочалы ........ 164
Чеjраным мәним ........ 166
Оjнар-оjнар ........ 167
Аj Һүсеjн ........ 168
Бирчә назын олмаjаjды ........ 169
Көз дәjәр сәнә ........ 170
Салам вәтән ........ 171

Рашбил Захарјајев кучәси ........ 174
Новруз бајрамы ........ 175
Кәчәл һәмзәләр ........ 177
Нәнм гәлјан чәкир ........ 179
Узагда олса да ........ 180
Јаз күләкләри ........ 181
Јери оғлан ........ 183
Дејә-дејә ........ 184
Тејмурум мәним ........ 185
Новруз чәршәнбәләри ........ 187

## ГӘЗӘЛЛӘР

Гүрбәтдәјәм гүрбәтдә ........ 194
Дурналар ........ 195
Шејхим мәним ........ 196
Азадлыг истәји ........ 197
Шуарым мәним ........ 198
Јусиф Күнајдына ........ 199
Јухуда көрдүкләрим ........ 200
Чал, гардашым ........ 201
Гочалдым ........ 202
Мүнһенин көзәлләри ........ 203
Гарабағ ........ 204
Алман гызы ........ 205
Нә чох чәкди бу һичран ........ 206
Өлдүрүр мәни ........ 207

## УШАГ ШЕИРЛӘРИ

Азад едәк ........ 209
Апар мәни ........ 210
Анарым ........ 212
Көзәл Сона ........ 213
Танынмаз олуб ........ 214
Исак Һанук мәктәби ........ 216
Говуланда дүшмәнләр ........ 217
Сәбинә нәвәм ........ 218
Шанел гызым ........ 220

СИМАХ ШЕЈДА

# ҜҮРБӘТДӘН КӘЛӘН СӘСЛӘР

(Шеирләр)

Мәтбәәнин директору: *Елман Гасымов*
Оператору вә компүтер тәртибатчысы: *Ајкүн Әскәрова*

Јығылмаға верилмиш 15.08.2012
Чапа имзаланмыш 25.08.2012
Һәчми 14 ч.в. Сајы 300
«Зәрдаби ЛТД» ММЧ
Тел.: (012) 514-73-73
Моб.: (050; 055) 344-76-01
Е. почт.: зәрдаби_ем@маил.ру

